
TÖVHİD,
İSLAM İDEOLOJİ VƏ
DƏYƏRLƏNDİRMƏ
SİSTEMİNDƏ
Ustad Misbah Yəzdi

**Ustad Misbah Yəzdi**

# TÖVHİD,
## İSLAM İDEOLOJİ VƏ DƏYƏRLƏNDİRMƏ SİSTEMİNDƏ

| | |
|---|---|
| **Kitabın tərcümə:** | Tövhid, islam ideoloji və dəyərləndirmə sistemində |
| **Müəllif:** | Ayətullah Misbah Yəzdi |
| **Nəşir:** | İslam Maarifi və islami əlaqələr təşkilatı - Tərcümə və nəşriyyat redaksiyası |
| **Çap tarixi:** | Birinci çap 1996-M. 1418-H.q 1375-H.ş |
| **Tiraj:** | 3000 |
| **Ünvan:** | İran İslam Cümhuriyyəti, Tehran<br>P.Q 14155-6187 |

**ISBN964 – 6177 – 04 - 2**

**Çap huququ qorunur**

# ÖN SÖZ

## Bismillahir-Rəhmanir-Rəhim

Kitab bəşər maarifi və mədəniyyətinin tərəqqi və təkamülü yolunda lazım olan bütün xüsusiyyətlərə malik olmaqla insan fikrini danışmaqda, onu başqalarına çatdırmaqda və mədəniyyətin yüksəlişində mühüm rol oynayır.

Şübhəsiz ki, islam təfəkkürü və mədəniyyəti zəngin qaynaqlara və real dünyagörüşünə görə, insan təfəkkürü və düşüncəsinin ən üstün və mütərəqqi düşüncələrindəndir.

Biz bu həqiqətə vardıqda və bu geriçəyi dərindən başa düşdükdə imkan daxilində bu böyük işdə (islam düşüncəsini insanlara çatdırmaqda) şərik olub, bu yolda səy göstərib çalışmaq istədik. Bu böyük islam işində qadir Allahdan müvəfəqiyyət diləyirik. Həqiqətən, O, duaları qəbul edəndir.

**İslam maarifi və islami əlaqələr təşkilatı**
**Tərcümə və nəşriyyat redaksiyası**

# NƏŞİRDƏN

## Bismillahir-Rəhmanir-Rəhim

Əlinizdəki kitab İslam dünyagörüşü haqqında Ustad Məhəmmədtəği Misbahın yazdığı kitabdır. Varlıq mövzusunu açıb-araşdırmaq məsələsi tarix boyu filosofları məşğul edən bir məsələdir. Bu günə qədər bu sahədə irəli sürülmüş nəzəriyyələr və görüşlər olduqca mürəkkəb və rəngarəngdir. Bu sahədə irəli sürülmüş realist və mütərəqqi görüşlərin ən realist və düzgün vəhy mənbəyinə arxalanan islam ideoloji sistemidir. Bu sistemdə varlıq və insan düzgün araşdırılır və insanın dünya və axirət səadətinə çatması üçün lazımi göstərişlər verilir.

Elə əlinizdə olan bu əsər də islam ideoloji və dəyərləndirmə sistemi sahəsindədir. Müəllif Əqli və Nəqli sübutlara arxalanaraq elmi şəkildə mövzunu açıb aydınlaşdırmış və yeri gəldikdə Qurani-Kərimin ayələrinə istinad edərək irəli sürdüyü nəzərlərini möhkəmləndirmişdir.

İslam maarifini və mədəniyyətini bütün dünya dillərində yaymaq islami əlaqələr təşkilatının vəzifəsi olduğuna görə, bu əsəri Azərbaycan dilinə tərcümə etdirib əziz müsəlman öz azərbaycanlı bacı-qardaşlarımıza çatdırmaq məqsədi ilə çapa hazırlamışdır. Ümid edirik ki, əziz müsəlman bacı-qardaşlarımız bu kitabdan faydalana bilsinlər. Yeri gəlmişkən artırmalıyıq ki, Ayətullah Ustad Məhəmmədtəği Misbah din elmləri hövzəsi həmçinin Universitet Ustadlarından olub İslam fəlsəfəsi sahəsində və həmçinin marksizm və materializm ideologiyasının tənqidində onlarla əsərin müəllifidir. O, hal-

hazırda Qum şəhərində tədqiqat və tədris işləri ilə məşğuldur və İranda böyük hörmətə malikdir.

***Beynalxalq tədqiqat və araşdırmalar mərkəzi.***

# BİRİNCİ FƏSİL

## TÖVHİD SƏMAVİ DİNLƏRİN OXUDUR

Haqqında bəhs etməli olduğumuz mövzu islamın ideoloji və dəyərlər sistemində tövhidin yeridir. Tövhid, səmavi dinlərin xüsusilə müqəddəs islam dininin əsas qayəsini təşkil edir.

Qurani-Kərim buyurur:

وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَسُولًا أَنِ اعْبُدُوا اللَّهَ وَاجْتَنِبُوا الطَّاغُوتَ

***«Biz hər ümmətə: «Allaha ibadət edin, Tağutdan çəkinin! – deyə peyğəmbər göndərmişdik».*** [1]

Ayrı bir yerdə buyurur:

وَمَا أَرْسَلْنَا مِنْ قَبْلِكَ مِنْ رَسُولٍ إِلَّا نُوحِي إِلَيْهِ أَنَّهُ لَا إِلَٰهَ إِلَّا أَنَا فَاعْبُدُونِ

***«(Ya Rəsulum!) Səndən əvvəl elə bir peyğəmbər göndərmədik ki, ona: «Məndən başqa heç bir tanrı yoxdur. Buna görə də yalnız Mənə ibadət edin!» – deyə vəhy etməyək».*** [2]

Habelə Quranın dediyi kimi hər bir peyğəmbər göndərildikdə öz qövmlərinə belə deyirdilər:

يَا قَوْمِ اعْبُدُوا اللَّهَ مَا لَكُمْ مِنْ إِلَٰهٍ غَيْرُهُ

***«Ey camaatım! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur».*** [3]

---

[1] «Nəhl» surəsi, ayə 36.
[2] «Ənbiya» surəsi, ayə 25.
[3] «Əraf» surəsi, ayə 59.

Böyük İslam peyğəmbəri (s)-də peyğəmbərliyə çatanda deyirdi ki:

قولوا لا اله الا الله تفلحوا

**«Dünya və axirətin qurtuluşu və səadəti tövhidin zəmanətindədir».** Yeganə Allaha iman fətirin, onun birliyini təsdiq edin ki, nicat tapasınız.

## MƏSUMLARIN NƏZƏRİNCƏ TÖVHİD BƏHSİNİN ZƏRURİLİYİ VƏ ƏHƏMİYYƏTİ

Pak imamlardan müxtəlif ifadələrlə nəql olunmuşdur ki, dünya və axirət səadəti tövhid girovundadır. O cümlədən aşağıdakı hədisdir:

لا اله الا الله ثمن الجنة

**«La ilahə illəllah sözü cənnətin qiymətidir».**[1]

Hədis kitablarında başqa rəvayətlər də nəql edilmişdir ki, onlara əsasən müvəhhid olan və tövhid etiqadının ömrünün sonuna qədər itirməyən şəxs Allahın əzabından amanda qalacaqdır.

## SİLSİLƏTÜZ-ZƏHƏB HƏDİSİ

Səkkizinci İmam Əli ibn Müsər-Rza (ə) on iki nəfər Nişabur alimlərinin yığıncağında və elə bir sosial-siyasi şəraitdə söylədi silsilətüz-zəhəb hədisində buyurdu: Atam Musa ibn Cəfər öz atasından, o da öz atasından və nəhayət Əmirəl-möminin Əli (ə)-dan, O da Peyğəmbərdən, O da Cəbrayıldən nəql etmişdir ki, Allah buyurur:

---

[1] «Tövhidi-Səduq» səh. 821, rəvayət 13.

كلمة لا اله الله حصنى فمن دخل حصنى أمن من عذابى

Yəni la ilahə illəllah demək, tövhidi təsdiq etmək və tək Allaha inanmaq Allah-Təalanın sarsılmaz qalasıdır, Tövhidə iman gətirib Allahın təkliyini təsdiq edən bu sarsılmaz qalaya girmişdir - deyə Peyğəmbər göndərmişdik.[1] Bəzi rəvayətlədə deyilir ki, pak niyyətlə tövhid sözünü deyənlər cənnətə daxil olcaqlar. İmam (ə)-a görə pak niyyətdə məqsəd tək Allahın əmrindən çıxmamaqdır. Nə isə tövhid haqqında rəvayət çoxdur və alimlər Peyğəmbəri-Əkrəmin (ə) və məsum imamların (ə) bu barədə buyurduqlarından neçə-neçə kitablar yazmışlar ki, zəngin xəzinədirlər.

Burada belə bir sualla rastlaşırıq ki, tövhidə inanmaq insanın şəxsi və sosial həyatında nə kimi rol ifadə edir ki, peyğəmbərlər ona bu qədər təkid etmişlər. Bütün peyğəmbərlər tövhidi öz çağırışlarının başlıcası qərar vermiş, Peyğəmbəri-Əkrəm (s) və məsum imamlar isə onun müxtəlif cəhətlərini bəyan etmək üçün nə qədər əzab-əziyyət çəkmişlər?

## ƏMİRƏL-MÖMİNİN (Ə)-IN CƏMƏL MÜHARİBƏSİNDƏ TÖVHİD HAQQINDA DEDİYİ SÖZLƏR

Cəməl müharibəsi zamanı bir bədəvi ərəb Əmirəl-möminin Əli (ə) bir sualım var, - deyə o Həzrətlə görüşmək istədi. Onu Həzrətin qulluğuna apardılar. Həzrətin səhabələri və ordu komandirləri onun nə dediyini güdürdülər. Müharibə haqqında məlumat vermək istəyirmi? Gizli sözü varmı? Görəsən məsələ

[1] «Üyuni əxbarür-Riza» cild 1, səh. 135; «Məali-Səduq» və «Tövhidi-Səduq» səh. 24, rəvayət 21.

nədir? Onlar maraqla baxırdılar. Bədəvi ərəb gözlənilmədən tövhid məsələsini irəli sürüb

اتقول ان الله واحد

(Allah birdirmi deyirsən) - Deyə imama sual verdi. Sahabələr acıqlandılar. İndi bu sualların yeridirmi? Görmürsən ki, Əmirəl-möminin müharibə işləri ilə məşğuldur? Və ona mane olmaq və geri qaytarmaq istədilər. Həzrət buyurdu:

دعوه فان الذى يريد الاعرابى هو الذى نريده من القوم

**«Qoyun sözünü desin, bu ərəb axtardığı, bizim müharibə etdiyimiz qövmdən istədiyimiz şeydir».**[1]

Yəni biz tövhid uğrunda döyüşürük. Sonra Həzrət döyüş meydanında və müharibə şəraitində tövhid haqqında elə sözlər danışdı ki, onu başa düşmək bizim təhsil almış şəxslərimizə də çətindir. Həmin sözlər rəvayət kitablarında dərc olunub.

Bu sözlərdə məqsədimiz buna işarə etməkdir ki, tövhid məsələsi islam dini rəhbərlərinin və bütün peyğəmbərlərin nəzərində o qədər əhəmiyyətli olmuşdur ki, onu yaymaq üçün heç fürsət itirmir və hətta Cəməl müharibəsində belə, necə deyərlər müvəhhid müsəlmanların qarşısında tövhid haqqında çıxış edirdi. Buna görə də bu əsas prinsip camaatın beynində olduqca çox yerləşməli və müsəlmanlar onu bütün yönlərini öyrənməlidirlər ki, tövhid onların dünya və axirət səadətində öz təsirini buraxsın. Tövhid layiqincə öyrənib, ürəklərə nüfuz etsə, həyat tamamilə ilahiləşib, düzgün istiqamətdə, sirati-müstəqimdə və Allah-Təalaya doğru istiqamətlənəcək və tövhid xətindən tanılmaqdan irəli gələn yanılmaq, səhv etmək və azmaqdam amanda qalacaqdır.

---

[1] «Tövhidi-Səduq» səh. 83.

Bu müqəddimə ilə məsələnin əhəmiyyəti islam və bütün ilahi dinlərin nəzərincə aydınlaşır. Şübhəsiz ki, bu etiqad insanların varlı dünyasına baxışımı və davranışının kamala doğru getməsinə təminat verir. Bu təminat necədir?

## TÖVHİD BÜTÜN ƏQİDƏLƏRİN KÖKÜDÜR

Biz ümumiyyətlə inanırıq ki, tövhid bütün haqq inamların və dəyərlərin köküdür. Lakin tövhid bütün haqq əqidələrin və düzgün dəyərlərin kökü olduğunu və tövhid əhlinin cənnət əhli olmasını dünya və axirət səadətinə çatmasını necə sübut etmək olar? Qurani-Kərimin çox gözəl və dəyərli bir misalı vardır ki, biz tövhidin etiqad və dəyərləndirmə sistemi ilə əlaqəsini bəyan etmək üçün ondan faydalanırıq. «İbrahim» surəsinin 24-cü ayəsində deyilir:

أَلَمْ تَرَ كَيْفَ ضَرَبَ اللَّهُ مَثَلًا كَلِمَةً طَيِّبَةً كَشَجَرَةٍ طَيِّبَةٍ أَصْلُهَا ثَابِتٌ وَفَرْعُهَا فِي السَّمَاءِ

***«Məgər Allahın necə bir məsəl çəkdiyini görmürsənmi? Xoş bir söz (la ilahə illallah, Muhəmmədun rəsulullah) kökü yerdə möhkəm olub budaqları göyə ucalan gözəl bir ağac (xurma ağacı) kimidir».***

Belə bir ağac həmişə şirin və dadlı meyvə verəcəkdir. Lakin sabit kökü olmayan haqq və həqiqət üzərində durmayan ağac isə kökü yerdən çıxmış ağac kimidir. Belə bir ağac nəinki meyvə verməz, üstəlik çox çəkmədən çürüyüb aradan gedər:

وَمَثَلُ كَلِمَةٍ خَبِيثَةٍ كَشَجَرَةٍ خَبِيثَةٍ اجْتُثَّتْ مِنْ فَوْقِ الْأَرْضِ مَا لَهَا مِنْ قَرَارٍ

***«Pis söz isə yerdən qopardılmış, kökü olmayan pis bir ağaca bənzəyir».***[1]

Quranın çəkdiyi bu misalda islam ideya-məfkurəsi kökü «la ilahə illəllah» üzərində möhkəmlənmiş bir ağac hesab olunmuşdur. Bu söz və etiqad layiq insanların ürəyində kök salmış ağacdır. Bu ağac yenə də kök atır budaqlanır və nəhayət çiçəklənir, ləzzətli və dəyərli meyvələr verir. Bunun başqa ağaclarla fərqi burasındadır ki, başqa ağaclar müəyyən fəsillərdə meyvə verir, bu ağacın meyvəsi isə üzülmür. İnsanlar həmişə ondan istifadə edir. Bu meyvə dünya və axirət səadətindən başqa bir şey deyildir:

تُؤْتِي أُكُلَهَا كُلَّ حِينٍ بِإِذْنِ رَبِّهَا

***«O (ağac) Rəbbinin izni ilə bəhrəsini hər vaxt (ilin bütün fəsillərində) verər».***[2]

## TÖVHİDİN DİGƏR ƏQİDƏLƏRLƏ ƏLAQƏSİ

Həmin ayədən ilham alaraq deyə bilərik ki, tövhid və digər əqidələr arasında habelə islamın dəyərləndirmə sistemi ilə tövhid arasında müəyyən əlaqə vardır. Bir çox ideologiyaların xilafına olaraq (belə ideologiyalar naqis fikirlərə əsaslanaraq müəyyən ünsür və prinsipləri və onların bir-biri ilə əlaqələrini nəzərə almadan tərkib edib, bu ideologiya necə prinsipdən ibarətdir, deyirlər) İslam dini bütövlükdə sıx, bir-birinə bağlı və həmahəng bir sistemdir. Bütün ünsürləri bir-biri ilə əlaqədədir, aralarında heç bir uyğunsuzluq yoxdur.

---

[1] «İbrahim» surəsi, ayə 26.
[2] «İbrahim» surəsi, ayə 25.

## İSLAMIN İKİ İNAM VƏ DƏYƏRLƏNDİRMƏ SİSTEMİ VƏ ONLARIN ARASINDAKI ƏLAQƏ

Ümumiyyətlə islam dininin məzmunu iki parça, iki budaq sistem kimu nəzərdə tutmaq olar. Bu iki budaq sistem bir-biri ilə əlaqədardır, bir-birinə bağlıdır. Bunlardan biri inam, o biri isə dəyərlər sistemidir. İslam dinində bir sıra etiqadlar vardır ki, insanlar onlara inanmalı, qəbul etməli və iman gətirməlidirlər, bir sıra dəyərlər də vardır ki, davranışda və əməldə onları riayət etməlidirlər. Birinci hissə ideoloji, ikinci hissə isə dəyərləndirmə sistemi adlanır. Yuxarıdakı ayədən ilham alaraq birinci hissəni prinsiplər, ikkinci hissəni isə budaqlar adlandıra bilərik. İdeologiya və əqidə insanların həyatı üçün ağacın kökü kimidir ki, insanların ürəyində yerləşsə, o kökə nisbət kifayət qədər bilik əldə etmək, bəsirətli olmaq və bütün cəhətlərini öyrənmək şərti ilə onların əməllərinə təsir buraxacaqdır. Demək birinci növbədə əqidə möhkəmlətməli, ikinci növbədə isə onların verəcəyi nəticə ilə məşğul olmalıyıq. Çünki, islamın iki sistemdən ibarət olduğuna baxmayaraq prinsiplə fər arasında, köklə budaq arasında müəyyən əlaqə vardır. Buna görə də islam alimləri əqidə prinsiplərini dinin üsulları, dəyərləndirmə sistemini isə dinin budaqları adlandırmışlar, üsullar islam ağacının kökləri, dəyərlər isə onun qol-budağıdırlar.

Başqa bir tərəfdən isə köklə budaq arasında qarşılıqlı təsir buraxma vardır: Kök qol-budağın cücərməsində, qol-bydaq isə kökün möhkəmləndirilməsində əsas və həyati rol ifa edir. Kök əvvəldə qol-budağın cücərməsinə, tapılmasına səbəb olduğu kimi onlar da öz növbəsində kökü gücləndirirlər. Başqa sözlə köllə qol-budağın əlaqəsini və ordakı dəyişiklikləri göstərən

sxem ziqzaq şəklindədir, belə ki, əvvəlcə kökdən budağa doğru gedir, sonra isə budaqdan kökə qayıdır. Deməк kök yəni, iman ilə budaq yəni, əməl arasındakı bu cərəyan davam edir. İman gücləndiyi qədər əməl təsir buraxır, eləcə də insan etiqad prinsiplərinə əməl edib onların tələbatına uyğun davransa imanın kökü gücləndirəcəkdir. Bu köklə qol-budaq, imanla əməl, dünyagörüşü ilə ideologiya arasındakı qarşılıqlı təsirdir. Əslinə gəldikdə isə ideologiyanı dünyagörüşü yaradır.

Qabaqca qeyd etdiyimiz ayələrə diqqət etsəniz bu əlaqə daha da aydınlaşacaqdır:

وَمَا أَرْسَلْنَا مِنْ قَبْلِكَ مِنْ رَسُولٍ إِلَّا نُوحِي إِلَيْهِ أَنَّهُ لَا إِلَٰهَ إِلَّا أَنَا فَاعْبُدُونِ

***«Səndən əvvəl elə bir peyğəmbər göndərmədik ki, ona: «Məndən başqa heç bir tanrı yoxdur. Buna görə də yalnız Mənə ibadət edin!» – deyə vəhy etməyək».***[1]

Sonra onu budaqlandıraraq buyurur: «fəbuduni». Yəni, Allahın bir olduğunu və ondan başqa heç kimin tanrılığa layiq olmadığını bildinizmi mənə pərəstiş edin. Pərəstiş, əməl sahəsidir, Allahın bir olduğunu bilmək isə insanın əməldə ona pərəstiş etməsinə səbəb olur. Elə bir təməl olmasa, belə bir budaq olmayacaq, kök möhkəm olmasa, bydaq bar verməyəcəkdir.

Mövzudan uzaqlaşmayaq. Dediyimiz kimi mövzu-bəhs islamın etiqadi və dəyərləndirmə sistemində tövhidin tutduğu yerini bəyan etməkdir. Yəni bir müsəlmanın inanmalı və əməldə riayət etməli olduğu əqidə və dəyərlər toplusunda tövhidin yeri nədir və hansı rolu ifa edir.

[1] «Ənbiya» surəsi, ayə 25.

## TÖVHİDİN DİGƏR DİN ÜSULLARI İLƏ ƏLAQƏSİ

Biz tövhidi məktəblərdə öyrəndiyimiz sadə şəkildə başa düşsək doğrudur, lakin onunla digər din üsulları arasındakı əlaqəni bəyan etmək üçün kifayət etməz. Bizim öyrəndiyimizə görə din üsullarının birinci əsli Allahın iki deyil, bir olduğu, ikinci əsli Allahın adil olduğu, üçüncü əsli insanları hidayət etmək üçün peyğəmbərlər göndərilməsi, dördüncü əsli Allahın əmri ilə peyğəmbərdən sonra məsum imamların canişin təyin edilməsi, beşinci əsli isə məaddır. Bu anlayışları yuxarıda deyildiyi kimi bir-biri ilə müqaisə etmək, onların arasında müəyyən əlaqə tapmayacağıq: Misal üçün Allahın bir olduğu və insanların qiyamət günü dirilməsi. İlk baxışda nəzərə gələn bu əlaqəsizlik tövhidin düzgün öyrənilməməsindən irəli gəlir. Bu üsulları tövhidlə əlaqəsini aydınlaşdırmaq üçün bu əlaqələri izah edib göstərməliyik ki, «la ilahə illəllah» deməklə insanın dünya və axirət səadəti necə təmin olur.

Rəhmətlik Əllamə Təbatəbai deyərdi: Töhvid genişləndikdə bütün islamı ehtiva edir, islamın icmalını isə tövhid təşkil edir. Tövhid elə bir xəzinə icmalıdır ki, zahirdə sadə bir etiqadi prinsip kimi görünür, açıldıqda, genişləndikdə isə islamı bütövlükdə ehtiva edir. Başqa sözlə, islam müxtəlif orqanlardan ibarət bir gövdədir, tövhid isə onun ruhudur. Bu gövdəyə tövhid yəni, ruh verilsə, canlı bir bədən olacaqdır, yoxsa, cansız və ölü bir sistemə çevriləcəkdir. Qurani-Məcid bu əlaqəni gözəl bənzətmə ilə bəyan edir:

أَلَمْ تَرَ كَيْفَ ضَرَبَ اللَّهُ مَثَلًا كَلِمَةً طَيِّبَةً كَشَجَرَةٍ طَيِّبَةٍ أَصْلُهَا ثَابِتٌ وَفَرْعُهَا فِي السَّمَاءِ

***«Məgər Allahın necə bir məsəl çəkdiyini görmürsənmi? Xoş bir söz (la ilahə illallah, Muhəmmədun rəsulullah) kökü yerdə möhkəm olub budaqları göyə ucalan gözəl bir ağac (xurma ağacı) kimidir».***[1]

Deməк tövhid dinin əsası və köküdür.

## TÖVHİD ƏDL İLƏ ƏLAQƏSİ

İndi isə əqidə prinsiplərinin (din üsullarından) hər birinin tövhidlə əlaqəsini izah edirik: Bildiyimiz kimi, Allah-Təala bütün kəmalatlarda yeganədir, misilsizdir lakin bu o demək deyildir ki, dünyada var olan hər bir mövcud yeganədir, ya filosoflar demişkən Vəhdət varlıqlara yanaşıdır (yəni həqiqi vəhdətdən yerdə həqiqi varlıq alar, həqiqi varlıq isə vəhdətdə alacaqdır). Bu iradənin səhv olduğunu Əmirəl-möminin Əli (ə) Cəməl müharibəsində bədəvi bir ərəb bəyan etdi. İnsan ya hər hansı bir varlıq birdir, deməkdə məqsəd budur ki, onlarla yanaşı iki, üç ya minlərlə fərdlər nəzərdə tutmaq olar. Allaha gəldikdə isə ikincisini təsəvvür etmək qeri-mümkündür. Onun bütün kəmalatlarda yeganiliyi də həmin mənadadır: Heç kimin qüdrəti Allahın qüdrəti kimi deyil hər harada bir qüdrət vardırsa, onun qüdrətidir. Heç kimin elmi özününkü deyil, hər harda elm varsa, ondandır. Bütün yerlərdəki həyar ondandır. Kəmal və Cəmal tamamilə ondandır. Əgər Allah-Təalanın hər bir kəmala sonu təsəvvür olunmayan dərəcədə malik olduğunu dərk edə bilsək, onun haqqında heç bir çatışmayan sifətin təsəvvür edilməz olduğunu başa düşərik. Məlumdur ki, belə bir varlıq kəmalatın eynisi olması, bütün kəmalatlar onda olmalıdır. Belə bir varlıq müəyyən bir kəmalın amili olmayan,

---

[1] «İbrahim» surəsi, ayə 24.

müəyyən bir kəmalın meydana çıxmasına səbəb olmayan bir iş görməz, bəndələrini yaratmaqdan əbədi səadət və kəmaldan başqa bir məqsədi olmaz. Kəmalatdan uzaq və hikmətə zidd olan əməldən, zülm etməkdən uzaqdır. Hər bir insanla ədalət və insafa əsaslanaraq davranacaqdır. Beləliklə məlum olur ki, din üsullarından ikinci əsli yəni, ədl, tövhid və Allahın birliyini öyrənməklə birbaşa əlaqədardır.

## TÖVHİD NÜBÜVVƏT VƏ İMAMƏTLƏ ƏLAQƏSİ

Nübuvvət də belə əlaqəyə malikdir. Əgər evinizə bir qonaq çağırasınız və bu dəvətdə doğrudan da ciddi olasınız, amma ünvanınızı ona verməyədiniz, məlumdur ki, hikmətli iş görməmiş olursunuz. Belə bir vəziyyətdə demək olarmı ki, siz doğrudan qonaq çağırmaq istəyirsiniz? Əgər biri doğrudan da qonaq çağırmaq istəyirsə yəgin ki, ünvanını qonağa verər və küçələrin oxşarlığınıda səhv etməməsini xatırladar. Bu isə hikmətli bir işdir. Allah insanları əbədi rəhmətə çatmaq üçün yaratmışdır. Buna görə də hikmətinin tələblərinə görə onları doğru yola hidayət edib səhvlərdən və yanılmalardan amanda saxlamaq üçün peyğəmbərlər göndərməlidir. Bununla məlum olur ki, biz nübüvvətə çatdıran da belə Allah mərifətidir.

Peyğəmbərlərin göndərilməsinin lazım olduğu sübut edildikdən sonra ilahi hikmət tələb edir ki, peyğəmbərlərdən sonra da insanlar rəhbərsiz qalmasınlar və bilsinlər ki, məsələlərin həlli üçün kimlərlə əlaqədə olacaqlar. İmamət mövzusu da bu yolla sübut olunur.

## TÖVHİDİN MƏADLA ƏLAQƏSİ

Yol aydınlaşdıqdan sonra insanlar ya peyğəmbərlər və imamlar göstərdiyi yolla gedəcək ya ondan yanılacaqlar. Bu iki dəstəyə (yəni doğru yolla gedib, həva-həvəslərinə göz yumub və tövhidin yüksəlməsi uğrunda can verənlər və onlara qarşı duranlar) bir gözlə baxmaq, ədalət və hikmətdən uzaqdır. Demək ilahi ədalət və hikmət tələb edir ki, kafir və möminin maddi nemətlərdən eyni dərəcədə yararlandığı dünyadan sonra başqa bir dünya da olmalıdır ki, onun nemətləri möminlərə və övliyalara, əzabı isə kafirlər və Allahın düşmənlərinə məxsus olsun.

Demək Allah-Təalanı tanımaq və onu müxtəlif sifətlərini öyrənmək başqa etiqadları meydana çıxarır, əkilmiş əsli kökdən başqa köklərinə törəndiyi və ümumiyyətlə bir ağac sistemini təşkil etdiyi kimi. Kök özünə yer açıb möhkəmləndikdən sonra ağac fəaliyyətə başlayır və qol-budaq verir. Yəni, etiqadlar əmələ təsir edərək onu istiqamətləndirir. İslam dininin etiqadi sistemi tövhid əsas ox, əsas kök olduğu kimi dəyərləndirmə sistemində də təkallahlıq və Allaha ibadət etmək bütün dəyərlərin əsasıdır. Əslində islam dinindəki bütün dəyərlər Allahpərəstliyə qayıdır.

## TÖVHİD DƏYƏRLƏNDİRMƏ SISTEMİNİN OXUDUR

İslamın dəyərləndirmə sistemi başqa dəyərləndirmə sistemlərin xilafına olaraq ayrı-ayrı və həmahəng olmayan elementlərdən ibarət deyildir. Müxtəlif simalarda təzahür edən ümumi bir dəyərdir. Allahpərəstliyin müxtəlif cilvələridir. Bu

dəyərlərin əsası Allaha könül vermək, ona aşiq olmaqdır. Bütün dəyərlər həmin eşqdən törənir. İnsan dünyaya məhəbbət bəsləmir. Allaha könül verən və onun eşqini ürəyində bəsləyən dünyanın cah-cəlalına vurulmaz. Dünya malı onun yanında dəyərli olmaz. Ürəyi Allahın yeri olan «qəlbül-mömini ərşür-rəhman» insan mal davara və daş-torpağa məhəbbət bəsləsə, yəgin ki, Allahı tanımamışdı, Allahı tanısa, ondan başqasının seçilməyə layiq olmasını bilər və dünya məhəbbətini ürəyindən çıxarardı. Dünya məhəbbəti ürəkdə olmasa, paxıllıq, ədavət və düşmənçilik də olamaz. Mənsəbpərəstlikdən törənən bu qədər pozğunçuluqlar tapılmaz. Vəzifə üstündə haqlar batmaz və kökün dünyagirlik olan bu çarpışmalar aradan gedər. Dünya malını sevməyənin nəzərində onun olub olmaması eynidir. Bu kimi şəxs dünya malını kəmala çatmağa bir vasilə olmaq, Allah yolunda ehsan etmək üçün istəyir.

Allahı tanıyan, onun məhəbbətini ürəyində yerləşdirən şəxs hər şeyi Allah üçün istəyər. Allah ona əmr etsə ki, müəyyən vəzifəni əldə etməklə xalqa xidmət etsin, canla-başla qəbul edər. Lakin vəzifəni özü səcsə, heç vaxt ona tərəf getməz, çünki belə bir vəzifə büt olar, tövhid isə bütpərəstliklə saziş etməz.

Müxtəlif sənədlərlə bizə çatmış bir hədis vardır. Bu hədisi «Kafi» kitabından nəql edirik:

ما ذئبان ضاربان فى غنم قد فارقها رعاؤها، احدهما فى اولها و الأخرها بأفسد فيها من حب المال والشرف فى دين المسلم

Özbaşına buraxılmış bir sürünü təsəvvür edin ki, iki qurd, biri bir tərəfdən, o birisi isə digər tərəfdən sürüyə daraşıb, canavarların yırtıcılığını nəzərdə tutaraq sizcə qoyunlardan necəsi salim qalar? Məlumdur ki, salim qoyun qalmaz və sürüyə çox ziyan dəyər. Bu hədisdə Həzrət buyurur: O iki ac

canavar sürüyə vurduğu ziyan dünyagirlik və mənsəbpərəstliyin müsəlmanın dininə vurduğu ziyandan çox deyildir; Çünki pulgirlik və mənsəbpərəstlik fərdlərdə büt olur və onları tövhiddən çıxarır.[1]

Demək tövhid bütün həqiqətlərin kökü, etiqad sisteminin və necə deyərlər islam dünyagörüşünün oxunu təşkil etdiyi kimi dəyərləndirmə və ideologiyasının oxunu da təşkil edir.

## TÖVHİDİ TƏLİMLƏ QAVRAMAQ OLARMI?

Tövhid mövzusu haqqındakı bəhs çoxcəhətlidir. Bu cəhətlərin bir hissəsi ixtisas tələb edir və elm ocaqlarında araşdırılmalıdır. Misal üçün tövhid həqiqəti və ilahi mərifət, Allahın pak və qabil ürəklərə sacdığı nurdur, bəhs və danışıqla qavramaq olmaz. Həzrət Seyyiduş-şühəda «Ərəfə» duasında deyir:

ما ذئبان ضاربان فى غنم قد فارقها رعاؤها، احدهما فى اولها و الأخرها بأفسد فيها من حب المال والشرف فى دين المسلم

**«İlahi! Sən saleh bəndələrinin ürəyinə nur sacdın və onlar səni tanıdılar və birliyini dərk etdilər. Yadları övliyalarının ürəyindən sildin ki, səndən başqasına könül verməsinlər və səndən başqasına sığınmasınlar».**[2]

Lakin buna baxmayaraq tövhid məsələləri barəsində bəhs etməyin və öyrənməyin yolu bağlı deyildir, yol yalnız ürək idrakına həsr olmur. Peyğəmbərlər əməl və ibadətdə ixlaskar olmağa təkid etməklə yanaşı tövhid həqiqətlərini də təlim

---

[1] «Üsuli-kafi» cild 4, səh. 315; «Üsuli-kafi» cild 4, səh. 3.
[2] «Məfatihul-cinan» Şeyx Abbas Qumi.

verirlər və heç fürsəti, döyüş meydanında belə əldən vermədilər.

Qabaqca dediyimiz kimi tövhid bir tərəfdən etiqad sisteminin oxunu təşkil edir, mükəmməlləşdiyi dərəcədə tövhid imanın cilvələri olan digər inamları gücləndirəcəkdir. Digər tərəfdən isə dəyərləndirmə sisteminin altqurumudur. Yəni bütün həqiqi kəmal və fəzilət tövhidlə əldə edilir, tövhiddən qaynaqlanır. Başqa sözlə tövhid əməldə təzahür etdikdə əxlaq və fəzilət yaradır və onu əbədi dünyadakı nəticələri cənnətin müxtəlif dərəcələri olacaqdır. Deməк kəmalat və Cənnətin mərtəbələri əslində insanların tövhid sahəsindəki mərtəbələrindən asılıdır.

## XALİQİYYƏTDƏ TÖVHİD

Tövhidin ən sadə mərtəbələrindən biri xaliqiyyətdəki tövhiddir. Yəni insanların buna inanmasıdır ki, varlıq dünyası bir yaradanın yaratdığıdır. Bu inam bir çox müşriklərdə belə var idi. Qurani-Kərim Peyğəmbəri-Əkrəm (s) dövründə olan Məkkə müşrik və bütpərəstlərinin dilindən nəql edir ki, onlar öz bütlərinin yaradan olduğuna inanmırdılar, bütləri yeganə Alllaha yaxınlaşmaq üçün vasitə hesab edir və deyirdilər:

مَا نَعْبُدُهُمْ إِلَّا لِيُقَرِّبُونَا إِلَى اللَّهِ زُلْفَىٰ

***«Biz onlara yalnız bizi Allaha yaxınlaşdırmaq üçün ibadət edirik!»***[1]

Bütpərəstlər təsəvvür edirdilər ki, mələklər Allahın «nəuzu billah» qızlarıdırlar. Bu təsəvvürə əsasən onlara cismani sürət

[1] «Zumər» surəsi, ayə 3.

nəzərdə tutub pərəstiş edirdilər ki, bütlərin ruhunu razı saxlasınlar, onlar isə tanrının yanında bunlara şəfaət etsinlər.

Ayrı bir ayə də buyurur:

وَلَئِنْ سَأَلْتَهُمْ مَنْ خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ لَيَقُولُنَّ اللَّهُ

***«(Ya Rəsulum!) Həqiqətən, əgər sən (müşriklərdən): «Göyləri və yeri kim yaratmışdır?» – deyə soruşsan, onlar mütləq: «Allah!» – deyə cavab verəcəklər».***[1]

Demək Məkkə müşrikləri Allahı inkar etmirdilər, yeganə Allahdan aşağı mərtəbədə olan tanrılara inanır və onların heykəlini düzəldib, pərəstiş edirdilər. Onlar inanırdılar ki, tanrılar dünyanın ixtiyarı sahibidirlər və dünya onların nəzəri ilə dolandırırlar. O tanrıların Günəşin və Ayın dolanmasına, yer və göy hadisələrinin baş verməsinə, insanların səadət və şəqavətinə təsir edirlər. Bəziləri dənizlərin, bəziləri quruluqların məsuliyyətini daşıyır, bəziləri müharibələrə nəzarət edir, bəziləri isə insanları idarə edirlər. Bu müşriklər dünyanı idarə edənləri çoxsaylı bilir və çoxallahlığa inanırdılar. Qurani-Kərim bu inama qarşı gərgin mübarizə aparmış və demişdir ki, dünyanı yaradan həm də onu idarə edir. Və onun izni olmadan heç kim onun yaratdıqlarına zərrəcə dəxalət edə bilməz.

Bu ilahlar məlum olur ki, islam dinində yaradanın birliyinə inanmaq kifayət etməz və bu kimi şəxslər təkallahlı sayılmaz, rübubiyyətdə də tövhid olmalıdır.

---

[1] «Loğman» surəsi, ayə 25.

## RÜBUBİYYƏTDƏ TÖVHİD

İlahi rübubiyyəti izah edib onun mahiyyətini dərk etsək onun keniş anlayışa və müxtəlif cilvələrə malik olduğunu görəcəyik. Ümumiyyətlə rübubiyyət iki hissəyə bölünür: Təqvimi rübubiyyət və təşrii rübubiyyət. Təkvini rübubiyyətdə tövhid o deməkdir ki, əslində Allahı dünyanın idarə edəni və tədbir tökəni bilək və inanaq ki, Günəşin və Ayın dolanması, gecə-gündüz, insanların həyatı və ölümü, dünyanı və yaranmışları məhvedici qəzadan amanda saxlamaq Allahın əlindədir, yeri və göylərin saxlayan odur:

إِنَّ اللَّهَ يُمْسِكُ السَّمَاوَاتِ وَالْأَرْضَ أَنْ تَزُولَا

***«Həqiqətən, Allah göyləri və yeri zaval tapmasınlar (öz mehvərindən çıxmasınlar) deyə, tutub saxlayır».***[1]

Bu əngin varlığın hər bir nöqtəsində hər bir mövcudun yaranması, inkişaf edib olması, töküb törəməsi ya onda təzahür edən başqa hər bir varlıq izni ilahi tədbir və iradənin təsiri altındadır və ilahi rübubiyyət dairəsindən kənar heç bir hadisə baş verə bilməz. Nəfəs çəkmək, danışmaq, dinləmək, küləyin əsməsi, bitkinin cücərməsi, kiçik bir torpağın ağacın budağından üzülməsi, bir qarışqanın hərəkəti, bir milçəyin belə hərəkəti ilahi rübubiyyət dairəsindən kənarda deyil. Dünyanın heç bir yerində heç bir mövcud onun izni olmadan zərrəcə hərəkət edə bilməz. Buna görə mələklər və digər yaranmışların müstəqilcəsinə təsir buraxılmasına yer qalmır və mövcudların buraxdığı təsir Allahın onlara ilahi təkvin izni və qüdrəti verməsi nəticəsində mümkün olmuşdur. Başqa sözlə desək,

[1] «Fatir» surəsi, ayə 41.

Allah iradə etməyincə heç bir mövcud hərəkət edə bilməz, hadisə yarada bilməz, dünyada dəyişiklik törədə bilməz. Allahın təkvini iradəsi bütün dünyaya hakimdir və hər şey onun iradə və istəyi altındadır. Əlbəttə bu cəbr və ixtiyar kateqoriyası ilə zidd deyildir. Bu kateqoriyalara haqqındakı bəhs öz yerində gəlmişdir.

## TƏŞRİİ RÜBUBİYYƏT

Rübubiyyətin ikinci hissəsi insanların ixtiyari cəhətinin iradəsi ilə əlaqədardır. Allahın bu dünyada yaratdığı mövcudlar arasında bir dəstə vardır ki, onların hərəkətləri, əsər və təkamülləri ixtiyarı əməllərinə bağlıdır. Bu mövcudadlar insanlardır. İnsan öz həqiqi kəmalatına çatmaq üçün öz iradə və ixtiyar ilə hərəkət etməlidir, çünki cəbri hərəkət bəşəri hərəkət deyildir. Örnək olaraq əgər insanı müəyyən vasitə ilə bir yerdən götürüb başqa bir yerə qoysalar, bu, insanın hərəkəti deyil, mexaniki bir hərəkətdir. Bitkidə, heyvanlarda və insanda şərikli olan bədən inkişafı da nəbati (bitki ilə əlaqədar) bir hərəkətdir. İnsan hərəkəti elə bir hərəkətdir ki, onun iradə və ixtiyarında qaynaqlanır, hər cənd bu iradə və qüvvəni Allah ona vermişdir. İşə O, zəmin yaradır, O, həm maddəni yaradır, həm də insana əməl bacarığı verir və insan hər an onun yaradıcılığına və feyzinə möhtacdır, lakin buna baxmayaraq insanın gördüyü iş onu öz iradə və ixtiyarından qaynaqlanır. Bəli insan işi bucurdur. Bəs insanın ixtiyari əməlləri haqqında ilahi tədbir necə olur?

İlahi rübubiyyət tələb edir ki, iradə, ixtiyar və lazımi vəsaiti insana verdikdən əlavə düz yolu tanımağı da ona öyrədir, yaxşını və pisi tanıtdırır, fərdi və ictimai həyata qanun və düsturlar verir. Allahın təşrii rəhmət rübubiyyətinin mənası

budur. Deməkk təkvini rübubiyyətdəki tövhid tələb edir ki, insan, öz iradəsindən kənar olan dünya və bəşərin təkvini işlərini məhz Allah-Təaladan asılı olduğunu bilsin və təşrii rübubiyyətdəki tövhid tələb edir ki, insan yaşayış düsturlarını məhz Allahdan alsın, qanunvericilik hüququnu Allahınkı bilsin, heç kəsin müstəqilcəsinə belə bir hüquqa sahib olmamasını qəbul etməsin, yəni onun nəzərində elə bir qanun etibarlı olsun ki, Allahın şəriətinə əsaslansın, Allahın təşrii izni ilə olsun. Allah belə bir izni Peyğəmbərə və Məsum imamlara vermiş və Məsum imamların hökmü ilə ümumiyyətlə bu şəraitə malik olan fəqihlərə köçürülmüşdür və bu gün cəmiyyətimizdə ideoloji prinsiplərindən biri tanınır, yəni vilayəti-fəqih. Demək müvəhhidlərin nəzərində Allahın təşrii izninə (birbaşa ya dolayısı ilə) əsaslanan qanun etibarlıdır, yoxsa nəinki etibarı yoxdur, həm də bir növ şirk sayılır.

## TƏKFİNİ RÜBUBİYYƏT HAQQINDA QURAN AYƏLƏRİ

Təkfini rübubiyyət haqqında çox misallar çəkmək olar və çoxlu ayələr onun etibarlı olduğunu göstərir. Nümunə olaraq Quran-Kərimin hər yerində Rəbb sözünə rast gəlsək, həmin işarə edir. «Bəqərə» surəsinin 21-ci ayəsində deyilir:

يَا أَيُّهَا النَّاسُ اعْبُدُوا رَبَّكُمُ الَّذِي خَلَقَكُمْ وَالَّذِينَ مِنْ قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

***«(Ey insanlar!) sizi və sizdən əvvəlki yaratmış Rəbbinizə ibadət edin, bələkə müttəqi (pəhrizkar) olasınız».***

«Gafir» (Mömin) surəsinin 62-ci ayəsində isə deyir:

ذَٰلِكُمُ اللَّهُ رَبُّكُمْ خَالِقُ كُلِّ شَيْءٍ لَا إِلَٰهَ إِلَّا هُوَ ۖ فَأَنَّىٰ تُؤْفَكُونَ

***«Bu sizin Rəbbiniz, hər şeyin xaliqi olan Allahdır. Ondan başqa heç bir tanrı yoxdur! Siz necə dönürsünüz?»***

Sizin Rəbbiniz məhz Allahdır. Belədirsə sizi hara aparırlar? Hansı tərəfə yanıldırlar? Sizin istiqamətiniz Rəbbiniz olan Allaha doğru olmalıdır. Bütün müsəlmanların gündə ən azı on dəfə təkrar etməli olduğu «Həmd» surəsində Əlhəmdulillah rəbbil aləmin cümləsi bizi bu həqiqətə diqqət yetirməyi sövq etdirir ki, varlıq dünyasının rübubiyyəti, dünyanın ixtiyarı, idarə etməsi və tədbir tökməsi tamamilə və məhz Allah-Təalanın əlindədir.

## TƏŞRİİ RÜBUBİYYƏTİN YERİ

Bildiyiniz kimi islam baxımından və Qurani-Kərimin təlimlərinə əsasən təşrii rübubiyyət Şeytanın əməl və etiqadında meydana çıxan inhirafın qaynağı olmuşdur. Şeytan Həzrəti Adəmdən qabaq yaranmış və illər boyu Allahın ibadəti ilə məşğul olmişdur. Əmirəl-möminin Əli (ə) «Nəhcül-bələğə»də buyurur:

و قد عبد الله ستت آلاف سنة لا يدرى امن سنى الدنيا ام من سنى الآخرة

**«Şeytan altı min il Allaha pərəstiş etdi. Hələ məlum deyildir ki, bu illər 365 günlük olan dünya illərindəndir yoxsa, dünyanın min ilinə bərabər olan axirət ilindəndir».**[1]

Hər halda Həzrət Adəmdən əvvəl dəqiq təsəvvür edə bilmədiyimiz çox uzun müddət varmış və Allaha pərəstiş edirmiş. Mələklər onu mələk bilib öz cərgələrinə keçirmişdilər, bir haldaki onun iki mahiyyəti var idi (yəni insan kimi ixtiyar sahibi idi). Tövhid və mərifətinin dərəcəsi, lazımi tövhid

[1] «Nəhcül-bələğə» feyz, səh. 779.

həddinə çatıb çatmaması bəlli olmaq üçün sınaqdan keçməli idi. Şeytan Həzrət Adəmlə sınandı. Allah Həzrət Adəmin yaratdıqdan sonra Şeytana əmr etdi ki, ona səcdə etsin. O, isə Allahın əmrindən boyun qaçırdı. Bununla da həmişəlik olaraq Allahın yaxınlığından qovuldu və cəhənnəm əhlinin başçısı oldu, çünki cəhənnəm əhli onu rəhbər tutmaqla cəhənnəmə gedirlər.

Lakin söz burasındadır ki, nə üçün min illər boyu yeganə Alla ha pərəstiş edən bir fərd bir üsyan və günaha batmağla Allah dərgahından qovuşur və təsəvvüredilməz dərəcədə olan şəqavətə çatır? O qədər ibadətlərə göz tutmağın və məhz bir günahla bu dərəcədə süqut etməyin sirri nədir?

İslam dünyagörüşünə əsaslanaraq belə bir təhlil vermək olar ki, Şeytanın günahı onu tövhiddəki çatışmamazlığından irəli gəlir və Allahın əmrindən çıxmaqla təzahür etdi və onun süqutuna səbəb oldu. Çünki o əslində xalqın Allah əmrinə qeydsiz şərtsiz itaət etməli olduğuna inanmır, onu qəbul etmirdi. Şeytan deyirdi:

أَنَا خَيْرٌ مِنْهُ خَلَقْتَنِي مِنْ نَارٍ وَخَلَقْتَهُ مِنْ طِينٍ

***«Mən ondan daha yaxşıyam (üstünəm), çünki Sən məni oddan, onu isə palçıqdan yaratdın!»***[1]

Nə buyurursan, Adəmdən yaxşı olduğum halda necə ona səcdə edim? Əslində bu sözlər onun imansızlığından irəli gəlir və batinində gizlənmiş küfürünü göstərir. Quran həmin mövzuya işarə edərək deyir:

وَكَانَ مِنَ الْكَافِرِينَ

[1] «Əraf» surəsi, ayə 12.

***«Qabaqdan bu küfr onda var idi».***[1]

Lakin hələ üzə çıxmamışdı. Şeytan tövhidin müəyyən həddə olmasının zəruriliyinə, qeydsiz-şərtsiz əmr etmək hüququna və onun əmrinə itaət etməyin vacib olduğuna inanmırdı. O, yeganə Allaha inanır və onunla yanaşı başqa bir pərvərdigara pərəstiş etmir və Allahla danışırdı:

أَنَا خَيْرٌ مِنْهُ خَلَقْتَنِي مِنْ نَارٍ وَخَلَقْتَهُ مِنْ طِينٍ

***«Mən ondan daha yaxşıyam (üstünəm), çünki Sən məni oddan, onu isə palçıqdan yaratdın!»***[2]

O hətta Allahın təkvini rübubiyyətinə və qiyamət gününə inanırdı:

قَالَ أَنْظِرْنِي إِلَىٰ يَوْمِ يُبْعَثُونَ

***«Mənə qiyamətə qədər möhlət ver!»***[3]

Deməк Allahın xaliqiyyətinə, onun təkvini rübubiyyətinə və qiymət gününə imanında çatışmamazlıq yox idi. Buna baxmayaraq niyə indiyə qədər alçaqlığa endi? Çünki təşrii rübubiyyətə inanmadı, Allahın fərmanına qeydsiz-şərtsiz itaət etməyi vacib bilmədi. Allahın əmrinə öz istəyi ilə müvafiq olduğu təqdirdə itaət etməyi vacib bilirdi.

Bununla əlavə bir çox sənədlər göstərir ki, Allah-Təala özlərinə istiqlali-təşri hüququ verənlər müşrik hesab edir. O cümlədən öz alim və rahiblərini ərbab (rəbblər) bilən yəhudi və xristianları məzəmmət edir:

اتَّخَذُوا أَحْبَارَهُمْ وَرُهْبَانَهُمْ أَرْبَابًا مِنْ دُونِ اللَّهِ

---

[1] «Bəqərə» surəsi, ayə 34.
[2] «Əraf» surəsi, ayə 12.
[3] «Əraf» surəsi, ayə 14.

***«Onlar Allahı qoyub alimlərini və rahiblərini, Məryəm oğlu Məsihi özlərinə tanrılar (rəblər) qəbul etdilər».***[1]

Bu ayənin təfsirində deylir ki, onlar kilsə xadimlərinə itaət edirdilər yəni, kilsə şurasının fərmanlarını vacibül-itaə (itaət etməyi vacib olan) qanun hesab edirdilər. İndinin özündə də bəzi xristian tayfaları arasında belə vəziyyət vardır: Bəzən kilsə şurası qərara gəlir və din qanunu adlı müəyyən qanun verir, xristianlar isə bir ilahi qanun kimi ona riayət etməli olurlar. Əslində bu iş şəriət və təşrii rübubiyyətdə şirkdir. Müvəhhid qanunvericilik hüququnun məhz Allaha məxsus olduğuna inanmalı və məhz ilahi təşrii yolu, izni ilə verilən qanuna etibar etməlidir.

Demək islamda tövhidin lazım həddi yəni, islam baxımından insanın müvəhhid satılmasının birinci şərti budur ki, yaradanın birliyinə, Allahın təkvini və təşrii rübubiyyətinə inanmalıdır. Yəni həm yaradanı, həm dünyanın rəbbi və ixtiyar sahibi, həm də qanun verənin bir, vahid olduğuna inanmalıdır.

## ÜBUDİYYƏTDƏ TÖVHİD

Qeyd etdiyimiz mövzulara inam bəslədikdən sonra məbudun (ibadət edilənin) bir olduğuna inanmaq növbəsi catır. Yəni müvəhhid şəxs yuxarıdakılardan əlavə mütləq rəbb və qanunverici olan Allahdan başqasının pərəstişə layiq olmadığına inanmalıdır. Bu mövzuya (ilahiyyat və məbudiyyət tövhidə) inanmaq prinsipidir. Ona əməldə riayət etmək isə budaq sayılır. Buna görə də bir müvəhhid yaradanın, dünyanın rəbbi və idarə etməyin, qanun verməyin, pərəstiş olmağın Allaha məxsus olduğuna inanmalıdır, bütün bunların ixtisarı

[1] «Tövbə» surəsi, ayə 31.

pak olan «la ilahə illəllah» sözündə ifədə edilmişdir. Bu ibarə (ifadə) xaliqiyyətdə tövhid bir dəlil olduğuna əlavə tövhidin başqa cəhətlərinə də şamil olur ki, bunlar olmadan islam dünyagörüşünündəki tövhidin minimum həddinə çatmaq olmaz. Bunlardan sonra tövhidin kəmal mərtəbələri başlanır və insan mərifət baxımından tədriclə onlara çatmalı, əməl baxımından isə onları həyata keçirilməlidir.

Burada işarə etməyi lazım olan əhəmiyyətli bir incəlik vardır: Əgər bir nəfər rübubiyyətdə tövhidə inansa yəni, dünyanın idarəsinin məhz Allaha məxsus olduğunu bilsə, istər-istəməz öz həyatında onun təsirini görəcəkdir. Birinci təsiri budur ki, heç bir mövcudun qarşısında baş etməyəcəkdir. Çünki adam bütün varlığın ixtiyarının Allahın əlində olduğuna inansa başqasına baş əyməyə yer qalmır. İnsan o vaxt birinin qarşısında baş əyir ki, onun müəyyən bir işdə təsir edən və o işi dolandıran bilsin. Lakin bütün varlığın tədbirinin vahid Allah əlində olduğunu bildikdə heç kimin qarşısında baş əyməz. Sədri-islam müsəlmanları həmin həqiqəti başa düşüb, tövhidin belə bir ifadəyə malik olduğunu bilməklə yetişdilər və az bir müddətdə bu fəzilətlər onlarda görsəniz və yüksək rütbələrə çatdılar. Eşitdiyimiz kimi islam ordusu İrana çatanda iranlılar komandirlərdən birini göndərdilər ki, müsəlmanlara danışıb onların nə dediyini, pulmu, mənsəbmi, torpaqmı və ya başqa nə istədiklərini öyrənsin. Müsəlmanlar, yəni bir neçə il ərzində islam tərbiyəsi və Qurandan yararlanıb bu görüş və himmətə malik olan adamlar dedilər ki, biz sizdən pul ya torpaq almağa deyil, Allah bəndələrini sizin bəndəliyinizdən qurtarmağa gəlmişik. Məqsədimiz budur ki, yer üzündəki bütün insanlar özləri kimi adamların (ki, onlar da Allahın yaratmışlarıdırlar)

əsarətindən qurtarsınlar. [1] İnsan heç kimin qarşısında baş etməmək dərəcəsinə yüksəlməlidir.

## ÜBUDİYYƏT TÖVHİD TƏZAHÜRLƏRİ

Bu gün İslam respublikasında yayılan və ölkəmiz bununla tanınan «Allahu əkbər» şüarı həmin mənanı ifadə edir: Böyüklük Allaha məxsusdur və insan başqalarının deyil, məhz onun qarşısında əyilməli və əmr etdiyi şəxslərə hörmət etməlidir. Necə ki, «İsra» surəsinin 24-cü ayəsində ata-ananın hörməti haqqında buyurur:

وَاخْفِضْ لَهُمَا جَنَاحَ الذُّلِّ مِنَ الرَّحْمَةِ

***«Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına salıb».***[2]

Mərhəmət qanadını ata-ananın üzərinə aç və onların qarşısında baş əy, özünü kiçilt. Belə kiçilmək Allahın ibadət etmək və onu sonsuz əzəməti qarşısında kiçiltməkdir ki, müvəhhid bu işi məhz Allahın əmri ilə görür. Eləcə də Peyğəmbər (s) və Məhsum imamlara (ə) itaət etmək və onların hörmətini saxlamaq haqqında «Hücurat» sürəsinin 1-ci ayəsində buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تُقَدِّمُوا بَيْنَ يَدَيِ اللَّهِ وَرَسُولِهِ

***«Ey iman gətirənlər! (Sözləriniz, iş və hərəkətlərinizdə) Allahdan və Peyğəmbərindən önə keçməyin».***

Peyğəmbər (s) və İmam (ə) Allah-Təalaya bağlanmasa və Allah onların hörmətini vacib etməsəydi, bir müvəhhidin

[1] «Əl-Kamil fit-tarix» cild 2, səh. 462.
[2] «İsra» sürəsi, ayə 24.

nəzərincə öz-özünə müqəddəs və möhtərəm sayılmazdı. İmamın canişinlərinə və bu gün böyük inqilab rəhbərin əhalinin hörmət etməsi əslində Allaha ibadət etməkdir. Bu hörmətli inqilab rəhbəri ilə qohumluqdan ya tamahdan və qorxudan irəli gəlmir. Bu hissiyyat tövhiddən qaynaqlanır. Xalqımız Allaha aşiq olduğu üçün Allaha yaxın olan və onun hakimiyyətini həyata keçirmək uğrunda daha çox çalışan şəxsə daha çox hörmət bəsləyir onun qarşısında öz canını fəda edir.

Sünni qardaşlarından bəzisinin şiə və digər müsəlmanları şirkət ittiham etmələri həmin mövzudan irəli gələn tərs başa düşməkdəndir. Onlar belə xəyal edirlər ki, rübubiyyət və məbudiyyətdə tövhid tələb edir ki, insan Allahdan başqa heç bir şəxsə hörmət etməsin, yoxsa məsələn birinin qəbrini öpsə müşrik olacaqdır. Onlar bunu bilmirlər ki, bu kimi hörmət Allaha və onun şəninə hörmət etməkdir. Əgər Allahın əmri olmasaydı və əgər övliyalar ona mənsub olmasaydılar bu hörməti şirkin dərəcəsi hesab edə bilərdik. Lakin onun əmrinə itaət etməyə görə olduğu üçün nəinki şirk deyil, əksinə tövhidin özüdür. Allah əmr edir ki, onun peyğəmbərinə və övliyalarına hörmət edək. Allah əmr edir ki, günahların bağışlanmasını istəyən şəxs Peyğəmbərin (s) qapısına getməlidir:

وَلَوْ أَنَّهُمْ إِذْ ظَلَمُوا أَنْفُسَهُمْ جَاءُوكَ فَاسْتَغْفَرُوا اللَّهَ وَاسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُوا اللَّهَ تَوَّابًا رَحِيمًا

***«Onlar (münafiqlər) özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən, mərhəmətli olduğunu bilərdilər».***[1]

[1] «Nisa» sürəsi, ayə 64.

Allah buyurur ki, günahların bağışlanması üçün Peyğəmbəri (s) axtarın. O sizin üçün bağışlanmaq istəsin, özünüz də bağış dövlətin, beləliklə Allah günahlarınızı bağışlayacaqdır.

Münafiqlər o zaman da, «biz Allahın özündən bağış diləyirik, nə üçün Peyğəmbərin (s) yanına gedək?» - deyə Peyğəmbərin yanına gedib, ürəklərini mətləblərini ona açmaqdan və onu Allah dərgahına vasitə etməkdən çəkinirdilər. Bu iş onların münafiq olmasına səbəb olub, onları Allahın mərhəmətindən və Peyğəmbərin (s) bağış diləməsindən məhrum etdi. Onların həmin davranışına və ikiüzlülüyə görə Allah əmr etdi ki: Bunlara yetmiş dəfə istiğfar etsən qəbul olunmayacaqdır. Nə üçün? Çünki bunlar Allahın əmri qarşısında boynuyoğunluq edib, Peyğəmbəri-Əkrəmin (s) vacib olan hörmətinə riayət etmədilər. Onlar Allahın nəmətinə küfr düşdükləri üçün Peyğəmbərin (s) özü onlara istiğfar etsə belə, artıq bağışlanmağa layiq deyillər. «Tövbə» surəsinin 80-cı ayəsində bu haqda deyilir:

اسْتَغْفِرْ لَهُمْ أَوْ لَا تَسْتَغْفِرْ لَهُمْ إِنْ تَسْتَغْفِرْ لَهُمْ سَبْعِينَ مَرَّةً فَلَنْ يَغْفِرَ اللَّهُ لَهُمْ ۚ ذَٰلِكَ بِأَنَّهُمْ كَفَرُوا بِاللَّهِ وَرَسُولِهِ

***«(Ya Peyğəmbərim!) Onlar (o münafiqlər) üçün istər bağışlanma dilə, istər diləmə; onlar üçün yetmiş dəfə bağışlanma diləsən də, yenə Allah onları bağışlamayacaq».***

Demək Peyğəmbəri-Əkrəmə və Allahın övliyalarına hörmət etməyi və onların qarşısında boyun əyməyi ar bilənlər rəhmətə layiq olmayacaqlar. Belə adamlar nəinki müvəhhid deyillər, üstəlik itkin ən pis növünə qapılmışlar, Şeytanın qatıldığı şirkə. Halbuki, onlar xaliqiyyətdə şirkə düşsəydilər bu qədər alçaqlığa enməyəcəkdilər. Vahid Allahı tanıyıb, dünyanın bütün şeylərinin əlində olduğunu bilənlər ona itaət

etməyib üsyan etsələr onu tanımayanlardan pisdirlər. Buna görə də Şeytan bütpərəstlərdən pisdir, çünki Allahı tanıyıb, ona ibadət etmişdi. Demək Allahı tanıyıb, onu böyüklüyünü dərk edib fərmanından boyun qaçıran hələ Allahı tanımayıb mərifətə malik olmayan adamdan çox alçaqlığa enir və əzaba layiq olur. Bütün bunları nəzərə alaraq belə bir təsəvvür yaranmalıdır ki, rübubiyyətdə tövhid etiqad etmək şiələrin və müsəlmanların çoxunun peyğəmbərlər və imamlar haqqındakı inamlarına ziddir. Biz heç kəsi Allahla yanaşı dünyanın yaranışı və tədbirinə müstəqil olaraq təsir buraxmasını qəbul etmirik. Lakin buna inanırıq ki, Allah-Təala yaratdıqlarının bəzisinə müəyyən qüdrət vermiş və bir sıra işləri onların əli ilə yerinə yetirməyi iradə etmişdir. Peyğəmbərin (s) əli ilə möcüzə göstərməsi, hətta İsanın (ə) əli ilə ölünü diriltməsi. Belə diriltməkdə tövhidin xilafına deyildir. Əsl sürülən Allahdır, Məryəm oğlu İsaya (ə) və istədiyi hər hansı bir adama belə qüdrəti verən odur, necə ki, bizim İmamlarımıza (ə) da belə bir qüdrəti vermişdir. Bu etiqad nəinki tövhidə zidd deyil, üstəlik onun müxtəlif cəhətlərindən biridir. Allah, Şeytana Həzrət Adəmlə itaət etməyə əmr etməklə sınadığı kimi, ayrı bəndələrini də peyğəmbər və övliyalar itaət etməklə sınayır:

وَمَا أَرْسَلْنَا مِنْ رَسُولٍ إِلَّا لِيُطَاعَ بِإِذْنِ اللَّهِ

***«Biz hər bir peyğəmbəri, ancaq ona Allahın iznilə itaət olunsun deyə, göndərdik».***[1]

Demək Allahın əmrinə görə peyğəmbərlərə itaət etmək hamıya vacibdir, peyğəmbərlərə itaət etməyən Allaha itaət etməmiş kimidir.

---

[1] «Nisa» sürəsi, ayə 64.

Şeytan dedi: Nə qədər istəsən sənə ibadət edərəm, məni Adəmə səcdə etməkdən maaf et (Bu vəzifəni mənim üzərindən götür). Allah dedi: Mənə ibadət etmək istəsən, mənim istəyim kimi itaət ət, yoxsa sənin itaətin öz istəklərinə və həva-həvəsinə itaət etməkdir. Allahpərəstsənsə öz çatışmaz ağlının deyil, Allahın təyin etdiyi yolla get. Bəzi qəbilələr də Allaha ibadət etmək üçün müəyyən metodlar qondarmışdılar. Bu növ pərəstiş əslində Allaha deyil, özünə ibadət etməyə qayıtmaqdır. Demək övliyaların Allahın iznilə təkvini vilayətin müəyyən mərtəbələrində malik olub dünya işlərində təsir buraxmaları tövhidin özüdür və onlara sığınmaq, və şəfaət istəmək allahpərəstliyə əsla zidd deyil.

## TÖVHİD BİR HƏQİQƏTDİR

Bəhsin burasında bir sıra incəliklərə diqqət etməyimiz yerinə düşər. Birinci incəlik budur: Tövhid məhz dillə demək, Allahın birliyini və hisslərini təsdiq etmək deyil, (hərçənd şəhadəteyni[1] deməklə bu dünyada insana həqiqi kəmal və əbədi səadətində səbəb olur, lakin insanın həqiqi kəmal və əbədi səadətində səbəb olan tövhid dildə deməyə hədər olunmur) ürəkdə yaranan bir həqiqət, bir imandır. Şəhadəteyni deyib tövhidi ildə demək səbəb olur ki, o adamla islam əsnasında davranılsın, bədəni təmiz hesab edilsin, müsəlmanla evlənsin, malı və canına hörmət edilsin. Lakin bu, heç də nəfsin kəmalı və əbədi səadəti deyil. Ola bilsin ki, zahirdə islam iddiasında olanın canı və malı amanda qalsın, kəsdiyi heyvan halal olsun, eyni halda mənəviyyət və əbədi səadətdən yararlanmasın, hətta

---

[1] Şəhadəteyn aşağıdakı iki cümləni demək ibarətdir:
a) Əşhədu ən la ilahə illəllah.
b) Əşədu ənnə Muhəmmədən rəsulullah. – mürtəcim.

axirətdə cəhənnəmin ən aşağı təbəqəsində olsun, zahirdə islam iddia edən ürəyində inanmayan münafiqlər ki, Quran onlar haqqında deyir:

إِنَّ الْمُنَافِقِينَ فِي الدَّرْكِ الْأَسْفَلِ مِنَ النَّارِ

***«Əlbəttə, münafiqlərin yeri Cəhənnəmin ən aşağı təbəqəsindədir».***[1]

Demək əbədi səadətin amili ürəkdən iman gətirməkdir ki, bəsirət və biliklə ürəkdə yaranmalı və müvəhhid insan Allaha könül verməlidir.

## İNAMLA DEYİL DİLLƏ TÖVHİDİ İZHAR ETMƏK

Sədri-islamda elə şəxslər var idi ki, şüursuzcasına və cəmiyyətdə dəbdə olduğu üçün islamı qəbul edirdilər, belə ki, yuxarı təbəqələrin və tanınmış adamların müsəlman olduqlarını gördükdə şüursuzcasına və onları rəhbər tutaraq islamı qəbul edirdilər. Qurani-Kərim onların zahiri islamını qəbul edib, qovmamaqla eyni halda onlara xəbərdarlıq edirdi ki, həqiqi iman sahibi olduqlarını təsəvvür etməsinlər, onların qazandıqları zahiri islamdır, imanın ürəklərində yerləşməsinə çalışmalıdırlar:

قَالَتِ الْأَعْرَابُ آمَنَّا ۖ قُلْ لَمْ تُؤْمِنُوا وَلَٰكِنْ قُولُوا أَسْلَمْنَا

***«Bədəvi ərəblər: «Biz iman gətirdik!» – dedilər. (Ya Peyğəmbər! Onlara) de: «Siz (qəlbən) iman gətirmədiniz! Ancaq: «Biz islamı qəbul etdik!» – deyin».*** [2]

---

[1] «Nisa» sürəsi, ayə 145.
[2] «Hücurat» sürəsi, ayə 14.

Bədəvi ərəblər dedilər ki, başqa möminlər kimi biz də iman gətirmişik. Allah-Təala Peyğəmbəri-Əkrəmə (s) buyurur: Onlara də ki: Siz hələ iman gətirməmişsiniz, hələ iman ürəklərinizdə yerləşməlidir, lakin müsəlmansınız. Həqiqi mömin olmaq və imanın əbədi və mənəvi nəticələrindən istifadə etmək istəsəniz, imanın ürəklərinizdə yerləşməsinə, bəsirət və şüurlu olaraq yəqinə çatmaq və Allaha könül verməyə çalışın. Məhz bununla həqiqi möminlərin cərgəsinə keçə bilərsiniz.

Hər halda sədri-islam dövrünün ən mühüm və təhlükəli cərəyanlarından biri nifaq məsələsi idi: Bir çoxu dildə müsəlmançılıq göstərir, ürəkdə isə Allaha və Peyğəmbərə (s) inanmırdılar. Əlbəttə islam və iman kimi nifaq,[1] şirk[2] və küfr[3] də müxtəlif dərəcəlidir. Münafiqlərin bəzisi islamın və Peyğəmbərin (s) barışmaz düşmənləri idilər, bəzisi isə islam sistemini qəbul etməməklə eyni halda bir az yumşaq idilər. Quran onların bəziləri haqqında «Nisa» sürəsinin 142-ci ayəsində buyurur:

وَإِذَا قَامُوا إِلَى الصَّلَاةِ قَامُوا كُسَالَىٰ يُرَاءُونَ النَّاسَ وَلَا يَذْكُرُونَ اللَّهَ إِلَّا قَلِيلًا

***«Onlar namaza durduqları zaman tənbəlliklə qalxar, özlərini xalqa göstərər və Allahı olduqca az yad edərlər».***

Bu münafiqlər könülsüz olaraq və tənbəlliklə camaat namazında iştirak edir, məscidə gəlirlər ki, biz də namaz əhliyik deyə, özlərini camaata göstərsinlər. Onlar dini yığıncaqlarda da elə buna görə iştirak edirlər, ürəklərində çox az Allahı yad edirlər. Quranın gözəl metodlarından biri də budur ki, Allah, lap az zikr sahibi olanları ayırır.

---

[1] Nifaq ikiüzlülük, zahirdə müsəlman olmaq, batinində inanmamaq.
[2] Şirk Allaha şərik qərar vermək.
[3] Küfr isə Allah danmaq deməkdir.

Nə isə, məqsədimiz buna işarə etmək idi ki, zahiri islam batini küfr ilə uyğundur. Ola bilsin ki, zahirdə müsəlman olan və hətta müsəlmançılıq əməllərini yerinə yetirən adam ürəkdə iman gətirməsin, iman başqa bir kateroriyadır. Şəhadəteyni deyənin bədəni təmiz, özü amandadır, demək onun əbədi səadətə malik olması təsəvvürünü yaratmamalıdır, o biri şeydir, bu başqa bir şey. Bu, fiqh elmi ilə, o isə əqaid (etiqadlar) və kəlam elmləri ilə əlaqədardır.

## TÖVHİDƏ SADİQ QALMAQ

Diqqət mərkəzinə alınmalı başqa bir incəlik də budur ki, az-çox bütün cəmiyyətlərdə olan bəzi xam adamlar mütəşabeh ayə və rəvayətlərdə rastlaşdıqda onları öz xeyrlərinə yozur, həmin ayələri təfsir edən möhkəm ayə və rəvayətləri aparmırlar: Misal üçün rəvayətdə deyilir ki, «la ilahə illəllah» deyən behiştə gedəcəkdir, ya Həzrət İmam Rza (ə)-dan nəql olunan məhşur silsilətüz-zəhəb hədisi. Bu adamlar belə təsəvvür edirlər ki, «la ilahə illəllah» ibarəsini demək behiştə getməyə kifayət edər. Halbuki, bu sözlə demək işə yaramaz və məhz zahiri hökmlərin onun haqqında icra edilməsinə səbəb olar. Bir sözü demək ayə və rəvayət ifadəsində dillə demək deyil, ürəkdən inanmaqdır. Bu, başqa rəvayətlərdə təfsir olunmuşdur ki, onlara diqqət etməklə həmin mütəşabehlərin mənası başa düşməliyik. «Nisa» sürəsinin 48-ci ayəsinə diqət yetirək:

إِنَّ اللَّهَ لَا يَغْفِرُ أَنْ يُشْرَكَ بِهِ وَيَغْفِرُ مَا دُونَ ذَٰلِكَ لِمَنْ يَشَاءُ

***«Şübhə yoxdur ki, Allah Özünə şərik qoşanları əfv etməz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlar».***

Bəzilər bu kimi ayələrin zahirindən belə bir nəticə çıxarırlar ki, ayrı günahların əhəmiyyəti yoxdur. Adam, Allah ikidir dedimi iş qurtarır, behiştə gedir və Quranın dediyinə əsasən Allah qalan günahları bağışlar (və yəğfiru ma dunə zalikə limən yəşau). Bu çür anlayışlar ruh tənbəlliyi və cəhalətindən irəli gələn səthi bir baxışdır. Bu çür baxışlar bizim aldanmağımıza səbəb olmamalı, Şeytana bu yolla bizi aldatmamalıdır. Məsələ bu sadəlikdə də deyildir.

## TÖVHİD SÖZÜNÜN MƏNASI. QURANI TƏRİF ETMƏ SƏYİ

Mövzunu aydınlaşdırmaq üçün tövhid sözünün mənasını verməyimiz və müxtəlif ayə və rəvayətlərdən istifadə etməklə islam dininin əhəmiyyətli prinsipi yəni bütün inam və dəyərlərin əsası olan tövhidi təfsir etməyimiz yaxşı olardı.

Tövhid sözü bir bilmək deməkdir, islam maarifində isə hər şeyi deyil, məhz Allahı bir bilməkdir. Bəzi sol təmayüllü yanılmış qruplar həmin sözü öz məqsədlərinə uyğun təfsir etməyə çalışırdılar. Onlar deyirdilər: Tövhid bir etmək deməkdir. Allahı bir etmək olmaz, çünki o birdir. Buna görə tövhidin Allahın birliyinə dəxli yoxdur. Tövhiddən məqsəd cəmiyyəti bir etməkdir. Sinfi ixtilaflara aradan qaldırılmalı və yeni tipli tövhid cəmiyyət yaradılmalıdır. Bu fikirləri irəli sürənlər islami-marksist qruplar idi. Onlar marksizm ideologiyasının təsiri altında öz ideyalarının islam rəngi ilə boyamaq istəyirlər.

Bildiyiniz kimi marksizm tarix fəlsəfəsi və tarixi materializm təlimində belə bir fikiri irəli sürür ki, insan cəmiyyəti sinifsiz bir cəmiyyətə doğru hərəkət edir. Belə ki, cəmiyyətdə mövcud olan ziddiyyətlər gərginləşir və elə bir

həddə çatır ki, nəhayət sinfi ixtilaflar tamamilə aradan qaldırılır və bütün insanlar maddi həyatdan eyni səviyyədə yararlanacaqlar. Başqa sözlə desək, insanlar yəni tipli cəmiyyət yaradacaqlar. Sol təmayüllü dəstələr həmin ifadəni tövhid şəkilçisi ilə bəyan edərək «eyni tipli tövhid cəmiyyət» ifadəsi işlədirdilər. Onların bu ifadəni işlətməkdən məqsədi siniflərin birləşməsi ya sinifsiz cəmiyyət idi. Bu iddianı sübut etmək üçün o, əslində tövhid bir etməkdir, bunu Allaha dəxli yoxdur, - deyə istidlal edirdilər.

Bu «iltiqati»[1] düşüncələr, daha doğrusu ateist fikir biliksiz gənclərimizdə elə pis təsir buraxdı ki, islam və müsəlmanların qarşısında ən böyük təhlükələrdən birinə çevrildi.

Tövhidi sözünə gəldikdə isə, bu söz ərəb dili qramatikasının təfil babındandır, bəzən «bir etmək» bəzən isə «bir bilmək» mənasında işlənir. Bildiyimiz kimi təfil babına aparılan feillər həmişə təsirlik hal düzəltmək üçün işlənmir. Təfil başına getmiş bir çox sözlər vardır ki, hətta fars dilində də işlənir və təsirlik mənasını vermir. Məsələn tənzim[2], təkfir,[3] təmcid,[4] təsbih,[5] təqdis,[6] təkrim[7] və s. bu kimi sözlərin hamısı təfil babından olduqlarına baxmayaraq feilin təsirli halını göstərmir. Filan adamı təkfir etmişlər, sözünü çox eşitmişsiniz. Bu söz bir adam haqqında deyənlər onda küfr yaradır yoxsa onu kafir bilirlər? Yaxud bir şahidi məhkəmədə təfsiq edib, bu şahid fasiqdir şahidlik qəbul olunmaz, demək pozğunluğu onda

---

[1] İki ya neçə müxtəlif və zidd ideologiyanın tərkibindən meydana çıxan düşüncədir. Burada məqsəd marksizm və islam ideologiyalarının tərkibidir.

[2] Böyük saymaq, bilmək.

[3] Kafir hesab etmək, bilmək.

[4] Bax təzim.

[5] Bütün pislikdən arı bilmək.

[6] Müqəddəs bilmək.

[7] Hörmət etmək.

yaratmaqdır yoxsa onu pozğun hesab etmək, pozğun bilməkdir? Filan şəxsə təzim etdilər deməkdən məqsəd əzəməti onda yaratmaqdırmı? Hamınız imamın qarşısında tənzim edirsiniz. Siz, tənzim etməklə onda əzəməti yaradır yoxsa onun əzəmətini dərk edirsiniz? Hamınız Allahı təkbir edirik. Görəsən «Allahu əkbər» deməklə böyüklüyü onda yaradırıq ya onun böyüklüyünü yad edirik? Bunların hamısı təfil babındandır. Tövhid Allaha ya başqa şeyləri bir etmək deyil, Allahı bir bilməkdir. İslamda sinifsiz cəmiyyət olsa da, bu, yaxşı da olsa, islamın etiqad prinsipi olan tövhidə dəxli yoxdur. Maraqlıdır ki, Qurani-Kərimdə tövhid və onun ayrı formaları yoxdur. Bu prinsip Quranda başqa ifadələrlə bəyan edilmişdir.

وَإِلَٰهُكُمْ إِلَٰهٌ وَاحِدٌ لَّا إِلَٰهَ إِلَّا هُوَ

***«Sizin tanrının tək olan Allahdır, ondan başqa heç bir tanrı yoxdur».***[1]

Sizin Tanrının vahid olan Allahdır, nə öz zatında, nə də zatından kənar çoxluq yoxdur.

(Göründüyü kimi) bu mövzu cəmiyyətşünaslıq barəsində deyil, ilahiyyat haqqında bir bəsdir və siniflərin birləşdirilməsi ya ayrılığı ideyasını onda çıxarmaq olmaz.

Nə isə bu, islam ideologiyasının bu etiqadi prinsipində ən böyük mənəvi təhriflərdən biridir. Təhrif edənlər hətta deyirdilər ki, əslində İslam dinində tanrı əxlaqı bir anlayışdır. Real bir varlıq deyil. Bəzən də deyirdilər: Tanrı və axirət fəlsəfə bir anlayış deyil, tam yaxşılıq, mütləq kamal, dünyanın mənfəət və ləzzətlərinə göz yummaqdır və bir sözlə əxlaqi ideallıq tanrının özüdür və zehbdən kənarda yoxdur (nəuzu

[1] «Bəqərə» surəsi, ayə 163.

billah), biz isə həmin mütləq kamalı aramalı və kamil olmağa çalışmalıyıq, bu isə allahpərəstlik deməkdir.

## TÖVHİD ANLAYIŞINDA YANLIŞ İBHAMLAR

Bəzi şəxslər isə inanırdılar ki, tanrı dünyanı hərəkətə gətirdimi, necə deyərlər startı vurduğu onun bir daha tanrıya möhtac olmadan əbədilik dolanmasına kifayətdir. Belə bir təfəkkür tərzi hətta bəzi keçmiş filosoflarda da var idi. Bəlkə də qədim Yunanıstan filosoflarının tanrını ilk mühərrik adlandırmaları da həmin təfəkkür tərzindən irəli gəlirmiş. İslam mütəkəllimlərinin bəzi firqələrində də belə təmayüllər olub, çox təəssüf ki, bu yanlış tərz-təfəkkür vahid Allaha inananlarda da olub, hələ qalsın ki, kafirlər və müşriklər.

Belə təfəkkür tərzi yəni, bu təsəvvür ki, Allahın işi məhz bu dünyanı yaratmaq ya ilk zərbəni vurmaq ya qıcıqlandırmaqdır, islam ideologiyasında qəti rədd olunmuşdur.

İslam ideologiyasının təqdim etdiyi Allah daimi dünyaya tədbir tökməkdədir. Əgər bir anlıq belə dünyanı davam etdirmək əzmində olmasa, hər şey məhv olacaqdır. Bir bənnanın külünglə binanı uçutduğunun xilafına olaraq Allahın dünyanı uçurtmağa ehtiyacı yoxdur. Dünyanın məhv olması üçün təxribat lazım deyildir.

Bizim ağlımızın çatışmamazlığına görə Allahla dünyanın həqiqi əlaqəsini dərk edə bilməməyimizə baxmayaraq lakin zehnimizi bu dərkə yaxınlaşdırmaq üçün deyə bilərik ki, bir bağ prespektivi, döyüş meydanı və ya başqa surətlər zehnin yaratdığı təsəvvürlərdir onların zehndə var olduqlarına və bir

sıra nəticələrin mənşəyi olduqlarına [1] baxmayaraq onların davam etməsi insanın iradəsindən asılıdır, əgər insan onlardan zehni əlaqəsini kəssə, iradə etməsə, zehndə heç bir şey qalmayacaqdır. İslam ideologiyasının təqdim etdiyi Allah elədir ki, bütün varlıq dünyası onun iradəsindən asılıdır, bir şeyi istəsə yaranacaq, istəməsə tamamilə yox olacaqdır. Qurani-Kərim də birinci növbədə RƏBB anlayışına əsaslanır, yəni Allahı rəbb kimi tanımalıyıq. İslamın şüarı «la xaliqə illəllah» (Allahdan başqa yaradan yoxdur) deyilir. Demək belə bir təsəvvür ki, dünya yalnız yaranmağa möhtacdır, yarandımı özü özünə parçalanıb davam edə bilər, islami təfəkkür deyilir.

Bəziləri də təsəvvür edirlər ki, Allah dünyaya «tədbir tökür» ifadəsi o deməkdir ki, neçə yüz və neçə min illər əvvəl bir tədbir plana hazırlanmışdır, belə ki, misal üçün Allah bir plan hazırlamış, dünyanı o plana əsasən nizama salmış, sonra isə öz başına buraxmışdır. Yəhudilərdən bəzisi bu inamda idilər. Onlar deyirdilər ki, Allah dünyanı yaratmışdır və onun tədbirini tökməlidir, lakin bu tədbir ardıcıl və həmişə davam etmir, yaradılışın əvvəlində tədbir töküb, plan hazırlayıb, dünyanı yaratmış və öz başına buraxmışdır. Qurani-Kərim onların «Maidə» surəsinin 64-cü ayəsində deyir:

وَقَالَتِ الْيَهُودُ يَدُ اللَّهِ مَغْلُولَةٌ ۚ غُلَّتْ أَيْدِيهِمْ وَلُعِنُوا بِمَا قَالُوا ۘ بَلْ يَدَاهُ مَبْسُوطَتَانِ

***«Yəhudilər dedilər: «Allahın əli bağlıdır!» Bu dedikləri sözə görə onların öz əlləri bağlandı və lənətə gəldilər. (Və ya dedikləri sözə görə onların öz əlləri bağlansın və lənətə gəlsinlər!) Xeyr, Allahın əlləri açıqdır».***

---

[1] Bəzən zehni təsəvvürlərdən müəyyən əsərlər meydana çıxır. Misal üçün turş şeyi təsəvvür etdikdə ağız sulanır. Zehn bir sıra təsəvvürlərdən zövq alır və ya kədərlənir. Ümumiyyətlə xatırlamaq insanda təsir qoyur.

Onlar təsəvvür edirlər ki, Allah bir planı həyata keçirib, sonra isə əllərinə bağlanıb. Bir mühəndis kimi planı tikəndən sonra onu dəyişdirə bilməz. Allah da elədir (nəuzu billah) dünya üçün planı varmış, onu həyata keçirib, bu plan əbədi olaraq davam edəcək və dəyişdirmək olmaz. Yəhudilərin təkvini və təşrii sahəsindəki bu etiqadı səbəb olurdu ki, bir tərəfdən dünyanın dəyişilməz olmasına inandıqlarına görə dua eləməyi faydasız bilirdilər. Digər tərəfdən isə inanırdılar ki, Allahın aləmə hakim etdiyi təşrii sistem dəyişilməzdir» bu, Həzrət Musanın lövhə şəklində Allah-Təala tərəfindən gətirdiyi sistemdi və Allahın iradəsi bu əhkam üzərindədir və dəyişilməzdir. Buna görə bu əhkam ləğv olunmazdır.

İslam nəzərincə belə bir düşüncə qəbul olunmazdır. Quran «Ərrəhman» surəsinin 29-cu ayəsində buyurur:

كُلَّ يَوْمٍ هُوَ فِي شَأْنٍ

***«O, hər gün bir işdədir».***

Allah, hər gün və hər an aləmə tədbir tökməkdədir. Hər an istəsə, aləmin tədbirini dəyişər. Heç bir şey onun qüdrətindən kənara çıxmayıb və çıxmayacaqdır. Hər şey onun əlindədir. Heç bir qüdrət ona təsir buraxa bilməz heç bir amil onun əlini bağlaya bilməz. Əlbəttə bunu da deyək ki, mütləq qəza və mütləq qədər də vardır, lakin bu o demək deyildir ki, dünyanın intizamı cəbri intizamdır və insanın onda təsiri yoxdur, dua, raz-niyaz, təvəkkül etmək, çalışmaq və cihad etmək qəza-qədər dəyişdirə bilməz. Cihad və çalışmaqla dəyişilən qəza-qədər vardır.

# BİDA MƏSƏLƏSİ

Burada «bida» məsələsinə də işarə etməyimiz yaxşı olardı. Allahın, istədiyi anda dünyada cərəyan edən hadisələri dəyişdirib, onları vücuda gətirən səbəbləri aradan aparıb və onların qarşısında yeni qüvvəli amillər yaratmağın inanmaq islam maarifi sistemində «bida» adlanır. Rəvayətlərdə deyilir ki, «Bidaya inanmaqdan üstün ibadət yoxdur» [1], yəni yəhudilərin etiqadının qarşısında islamın irəli sürdüyü etiqad, Allahın istədiyi anda səbəb və tələbləri dəyişdirib yəni şərait yaratmasına inanmaq. Bu etiqad bir tərəfdən insanı gələcəyə ümidvar edir, zahiri əlverişli şərait yaranmasa da ümidini itirməsin, digər tərəfdən isə adamı gələcəyindən nigəran saxlayır. Bunu islamın dəyərləndirmə sistemi tələb edir. Yəni insan hələ ümidlə qorxu arasında yaşamalıdır ki, Allaha ehtiyacını tamamilə dərk etsin. Ona bir müsibət üz verdikdə onun daimi olmasını təsəvvür etməsin. Müsibətin aradan gedəcəyinə ümid bağlamalıdır, yəni özü çalışıb, Allahdan istəməlidir ki, problemini həll etsin. Əgər maddi nemətə yiyələnmişsə onun əbədi olacağını və əlindən getməyəcəyini təsəvvür edib məğrur olmasın. İnsan hətta mənəvi nemətləri saxlamaq üçün də daima Allaha yalvarmalıdır və onda istəməlidir ki, nemətləri onun əlindən almasın. Misal üçün bizim İslam respublikamızı götürək. Bu, Allahın bizə verdiyi ən böyük nemət və hədiyyələrdən biridir. Qədrini bilsək və şükrünü yerinə yetirsək bu nemət davam edərək, yoxsa onun davam etməsinə təminat yoxdur.

[1] «Üsuli-kafi» cild 1, səh. 146, hədis 1.

## MEXANİKİ VƏ DİNAMİK HƏRƏKƏTİN İZAHI

Qabaqkı səhifələrdə dedik ki, bəzi Qərb alimlərinin təsəvvürünə görə tanrı əvvəldə dünyaya hərəkət vermiş və özbaşına buraxmışdır. Sonra isə dünyanın özü həmin ilkin qüvvəni tanrıdan cəzb edərək maddi dünyada yeni hərəkət və dəyişikliklərə səbəb olmuş və tədricən müxtəlif hadisələri meydana çıxarmışdır.

Bəzi alimlər isə təbiətin dinamiki hərəkəta malik olduğunu təsəvvür etmişlər. Birinci inamda tanrı təbiətin hərəkətinə səbəb olan qüvvənin yaradanı kimi təsəvvür olunursa, ikinci inamda məhz təbiətin varlığı tanrıya mənsub olur və dünyada baş verən dəyişikliklər maddənin dinamikliyi ilə əsaslandırılır. İkinci inama malik olan adamlar əslində dialektik materialimzi qəbul edir və dünyadakı dəyişiklikləri dinamik dəyişiklik kimi qiymətləndirirlər. Onlar deyirlər: Maddəni əslində tanrı yaratmışdır, amma indi ona təsir buraxmır, maddədə baş verən dəyişikliklər, meydana çıxan müxtəlif yeniliklər təbiətin özünün dinamiki hərəkətindən irəli gəlir. Dünya öz zati (dinamiki) hərəkəti ilə tədriclə dəyişikliklər törədir və yeni hadisələr yaradır. Aləmdə tədriclə həyat görsənir və müxtəlif heyvanlar formasında mükəmməlləşərək insan səviyyəsinə çatır (necə deyərlər təkamül nəzəriyyəsinin bəyan etdiyi kimi).

Bu inamla islam baxışı arasında 180 dərəcə bir bucaq vardır. Qurani-Kərim bizə deyir ki: ***«Allah-Təala yaratmaqdadır və heç bir varlıq bir an belə Allaha ehtiyacsız deyildir».***

Biz yuxarıdakı nəzəriyyəni (dinamiki hərakəti) rədd etmək üçün ümumxalqın qəbul etdiyi ən sadə sübutlardan başlayır və dəqiq fəlsəfi prinsiplərə ehtiyacı olmayan adı dillə deyirik ki,

tutaq ki, təbiətin zatında dinamiki hərəkət vardır və müəyyən forması bəyan edilə bilir. Belə bir hərəkət yəni bir mövcudun yaranmasına səbəb ola bilməz. Çünki mexaniki hərəkət cinsi bir yerdən ayrı bir yerə getməsindən başqa bir şey olmadığı kimi dinamiki hərəkət də maddənin özünün daxili dəyişikliyindən başqa bir şey deyildir. Və maddə növündən olmayan və qabaqca maddədə mövcud olmayan yəni bir varlığı yarada bilməz. Yalnız cansız maddədə bir sıra dəyişikliyə səbəb ola bilər.

Dünyada ardıcıl olaraq canlı mövcudların yaranmağının şahidiyik. Bu mövcudlar şüur, dərk etmə, hissiyyat, insana gəldikdə isə maraqlanma, iradə, yaradıcılıq və maddə ilə əsla əlaqədar olmayan xüsusiyyətlərə malikdirlər. Materiastlərin özü belə şüur və iradənin maddi olmadığı və maddi xarakter daşımadığını etiraf edirlər. Onlar eyni halda onların yaranmasını belə əsaslandırırlar: Bu kimi xüsusiyyətlər öz-özünə və maddənin dəyişməsi nəticəsində meydana çıxır. Bu nəzəriyyədən belə çıxır ki, bir mövcud səbəbsiz və yaradanı olmadan yaranır.

Hər halda, aydındır ki, təbii hərəkət, istər mexaniki olsun (yəni xarici bir qüdrətin təsiri nəticəsində), istər dinamiki (yəni maddənin ayrılmaz hissəsi olsun, maddə zatən hərəkətdə olsun), ruh yarada bilməz, ondan həyat, şüur, iradə yarana bilməz.

Demək öləndə daimi olaraq heyvan və insandan ibarət canlı nümunələrin meydana gəlməsi bunu göstərir ki, bir yaradan daima bu varlıqlara can bəxş edir, onları yaradır (bir dəfə deyil müxtəlif mərhələlərdə). Misal üçün insan bir ruha malik olmasına baxmayaraq bir mərhələdə yaranmır. Quran bu haqda deyir:

يَخْلُقُكُمْ فِي بُطُونِ أُمَّهَاتِكُمْ خَلْقًا مِنْ بَعْدِ خَلْقٍ

***«O sizi analarınızın bətnində yaranışdan-yaranışa salaraq yaradır».***[1]

İnsan nütfəsi ana bətnində bağlandımı yaranış başlanır, ələqə şəklinə düşəndə isə qabaqca malik olmadığı yəni varlıq payı alır. Bu varlıq payını biri yaratmalıdır, çünki nütfədə ələqə kəmalatı yoxdur, ələqə yarada bilməz. Bu kəmalatı bir yaradan ona bəxş etmişdir.

ثُمَّ خَلَقْنَا النُّطْفَةَ عَلَقَةً فَخَلَقْنَا الْعَلَقَةَ مُضْغَةً فَخَلَقْنَا الْمُضْغَةَ عِظَامًا فَكَسَوْنَا الْعِظَامَ لَحْمًا ثُمَّ أَنْشَأْنَاهُ خَلْقًا آخَرَ

***«Sonra nütfəni laxtalanmış qana çevirdik, sonra laxtalanmış qanı bir parça ət etdik, sonra o bir parça əti sümüklərə döndərdik, sonra sümükləri ətlə örtdük və daha sonra onu bambaşqa (yeni) bir məxluqat olaraq yaratdıq».***[2]

Məruz qaldığı hər bir dəyişiklik və yararlandığı hər bir yeni varlıq payı Allahın mərhəmət etdiyi yeni yaranışıdır. Həmişə yeniləşməkdər olan bu kimi varlıq kamallarını yaratmaq üçün təkcə maddəni yaratmaq istər insanda olsun, istərsə heyvanda ya bitkidə kifayət etməz.

Bir bitki dənəsi torpağa düşdükdə su çəkir və bir sıra fiziki və kimyəvi xüsusiyyətlər büruzə verir. Dənə cücərməyə başlayanda isə yerə kök salır və budağı torpaqdan çıxır. Qabaqca malik olmadığı yəni həyat və varlıq payı əldə edir. Cansız dənədə belə xüsusiyyətlər yoxdur, dinamiki hərəkət də bu həyata yarada bilməz. Sonra yaşıllaşır, qol-budaq verir. Bunlar da varlığın yəni həyat payıdır. Eləcə də gül-çiçək, heyranedici boyaları, könül oxşayan qoxular və meyvə,

---

[1] «Zümər» surəsi, ayə 6.
[2] «Möminun» surəsi, ayə 14.

bunların hamısı yaradanın tərəfindən yaradılmış yeni yaranışdır. Hələ bu nədir ki, yəni dəyişiklik görsənməyən və yeknəsək bir varlıq təsəvvür olan bəzi varlıqlar belə hər an öz varlıqlarını yaradandan almalıdırlar.

Deməkümumiyyətlə mövcudlar bütün anlarda Allah-Təala tərəfindən varlıq payı almağa möhtacdırlar. Biz, buradakılar sabahkı həyatımızı hələ almamışıq. (Odur ki,) məhv olmağımız və sabahkı günə görə bilməyəcəyimiz mümkündür. Demək hal-hazırda sabahkı varlıq, bir yaradıcı onu sabah yaradacaqdır. Hələ sabahı deməyək, biz bir saat bundan sonranın varlığına malik deyilik, Allah o varlığı bir saat sonra bizə bəxş edəcəkdir. Bir saatı da yox, bir dəqiqəni götürək, bir dəqiqə bundan sonranın həyatına malik deyilik, o da Allahın əlindədir, istəsə, bu varlığı bizə bəxş edəcək, istəməzsə, həyatımız davam etməyəcəkdir.

Allah-Təala haqqında belə bir mərifət əldə edə bilsək, varlığın bütün sahələrində və bütün hallarda Allahın var olduğunu qəbul edəcəyik, inanacaq və iman gətirəcəyik. Lakin, maddəni Allah yaratmışdır, lakin artıq maddənin dinamik hərəkəti mövcudların yaranma mənşəyidir deyən görüş dediyimiz mərifətə malik olmayacaqdır. Belə bir adam özünü dünyada özbaşına buraxılmış görür. Allaha ehtiyac duymur; ondan yardım təvəqqəyi etmir. Onun nəzərincə Allah, öz-özünə hərəkətdə olan bir maddə yaratmışdır, mexaniki təsəvvürlə desək dünyaya ilkin hərəkəti vermiş, sonra isə öz başına buraxmışdır. Dahi bir saatsaz düzəltdiyi saat kimi sanki ona həmişəlik kök vermiş və bir daha kök verməyə ehtiyac qalmamışdır. Ümumiyyətlə kök vermiş saatın mexaniki energetikası istehlak olduqdan sonra yenidən kök verilməlidir. Lakin əgər elə bir saat olsa ki, bu energetika onun içində qalıb işlənməsə və saatın əqrəbləri həmişəlik hərəkət etsə nə saat

qayırana ehtiyac qalacaq nə kök verənə. Bəzi adamlar dünyanı da belə təsəvvür etmişlər, Allah ona kök verib əl çəkmişdir. Bəziləri deyir ki, dünyanın hətta birinci kökə də ehtiyacı olmayıb. Bu, təbiətin zati hərəkətidir, öz-özünə onda tapılır və səbəblər və şəraitin tələb etdiyi kimi irəliləyir. Bunlar islam baxışı deyil, modern bir şirkdir. İslam nöqteyi-nəzərində əsasən dünyanın həyatı hər an Allah əlindədir. Varlığın hər bir payına geyinən, onu Allahdan alır, ona möhtacdır, belə ki, əgər bir anlıq onun iradəsi olmasa bütün dünya heç olacaq. İslam dünyagörüşünə əsasən Allah-Təalanın qüdrətindən başqa heç bir qüdrət varlıq dünyasına hakim deyildir. Başqa qüdrətlər onun sonsuz qüdrətinin məhdud şüası və onun istilası altındadır və Allahın verdiyi təkvini izn qədər təsir buraxır:

وَالشَّمْسَ وَالْقَمَرَ وَالنُّجُومَ مُسَخَّرَاتٍ بِأَمْرِهِ ۗ أَلَا لَهُ الْخَلْقُ وَالْأَمْرُ ۗ تَبَارَكَ اللَّهُ رَبُّ الْعَالَمِينَ

***«Günəşi, Ayı və ulduzları əmrinə tabe edərək yaradan Allahdır. Bilin ki, yaratmaq da, əmr etmək də ona məxsusdur. Aləmlərin Rəbbi olan Allah nə qədər uca, nə qədər böyükdür».***[1]

Ay və ulduzların hərəkəti, günəşin parıltısı, bitkilərin cücərməsi, hətta bir dənənin partlaması və ya bir xəstənin sağalması, bütün bunların hamısı Allahın izni və iradəsindən asılıdır. O istəməzsə heç bir mövcudun əlindən heç bir iş gəlməz.

Bu görüş sahibləri heç bir qüdrəti hesaba gətirmir, islam düşmənlərinin hədə-qorxusundan nigəran olmurlar, ona görə ki, bütün qüdrətlərin Allah iradəsi qarşısında məğlub olduqlarını bilirlər.

---

[1] «Əraf» surəsi, ayə 54.

وَاللَّهُ غَالِبٌ عَلَىٰ أَمْرِهِ

***«Allah öz işində qalibidir (istədiyini edəndir».***[1]

Belə bir ruhiyyə müsəlman döyüşçünü müharibə meydanında heç bir şeydən qorxmayaraq dərəcədə gücləndirir. Çünki müsəlman bilir ki,

إِنْ يَنْصُرْكُمُ اللَّهُ فَلَا غَالِبَ لَكُمْ ۖ وَإِنْ يَخْذُلْكُمْ فَمَنْ ذَا الَّذِي يَنْصُرُكُمْ مِنْ بَعْدِهِ

***«Əgər Allah sizə yardım edərsə, heç kim sizə qalıb gələ bilməz. Yox, əgər sizi dəlil edərsə, ondan sonra kim sizə kömək edə bilər?»***[2]

Allah sizin köməyiniz olsa, heç kim sizi məğlub edə bilməz və öz başınıza buraxsa, heç kim sizə yardım edə bilməz. Belə bir mədəniyyətin yetirmələri heç bir qüdrət qarşısında boyun əyməzlər, onların gözündə heç şeyin dəyəri olmaz. Onların yanında dəyəri olan yeganə şey Allahın qüdrət, böyüklük və izzət mənbəyi ilə əlaqə olan şeydir. Çünki:

وَلِلَّهِ الْعِزَّةُ وَلِرَسُولِهِ وَلِلْمُؤْمِنِينَ

***«Halbuki şərəf-şan da, qüvvə və qələbə də yalnız Allaha, onun peyğəmbərinə və möminlərə məxsusdur».***[3]

Və başqa nə vardırsa, zəlil və kiçikdirlər. Kimsənin izzəti vardırsa, onu Allah bəxş etmişdir Allah isə birinci növbədə bu izzəti Rəsuli-Əkrəm Həzrət Mühəmməd Mustafa (s) vermişdir. Ondan sonra ona daha yaxın və onunla sıx əlaqədə olan qüdrətli iman sahibi olan izzətdən yararlanmışdır.

İslam görüşünə malik olmaq nəticəsində bir müsəlman bütün təbiət qüvvələrini Allahın sonsuz qüdrəti qarşısında heç

---

[1] «Yusif» surəsi, ayə 21.
[2] «Ali-İmran» surəsi, ayə 160.
[3] «Münafiqun» surəsi, ayə 8.

görür və özündə sarsılmaz şərəf-şan və qüdrət hiss edir. O, bilir ki Allahın yaratdığı maddi qüdrətdən əlavə metafiziki qüvvələr və qeybi yardımlar da vardır, Allahın qüdrəti maddi dünyaya məhdudlaşmır. İstəsə, Nil fironçuları boğar və səmada gələn bir bağırtı camaatı məhv edib aradan qaldıraraq. Beləliklə yaradılışda tövhid tələb edir ki, insan bütün mövcudların bütün şərait, məkan və zamanda Allaha möhtac olduğuna inansın.

## İLAHİ TƏDBİR

Sonrakı mərhələ rübubiyyətdir. Bu mərhələdə təkcə yaradılışın Allahdan olduğuna deyil, maddədə baş verən dəyişikliklər, varlıqların bir-birilə əlaqələri, onların qarşılıqlı təsiri də onun tədbir və fərmanındadır. Bu haqda iki təmayül, mübaliğə etmə və səhlənkarlığa yolvərmə meyli vardır. Bəziləri Quranın tövhid haqqındakı izahı lə rastlaşdıqda zənn edirlər ki, (güya) xaliqiyyət və rübubiyyətdə tövhid o deməkdir ki, Allahdan başqa heç bir mövcud təsiredici deyildir (Əşəri təriqətində olduğu kimi) və qarşılıqlı maddi təsirlər məhz zahiri bir əlaqədir. Başqa bir sözlə desək Allahın qəza-qədəri belədir ki, od ağacı yandıırır. Onların arasında isə heç bir əlaqə yoxdur.

Hərçənd onların bu fikri tövhidin son həddinə çatmaq məqsədi güdür, lakin onlar bunu bilməmişlər ki, Allah-Təala öz yaratdığına müəyyən qabiliyyət verməkdən aciz deyildir. Doğrudur, varlaq ondandır və hər bir mövcud hər an öz varlığını Allahdan alır, lakin bu, o demək deyildir ki, heç bir mövcud təsiretmə qabiliyyətinə malik deyildir. Belə olsa, təşrii sistemi əslində mənasız olacaqdır. Mənim danışdığım sözlər, sizin eşitdiyiniz səs və iş görmək qərarına gəlməyiniz, eşitdiyiniz ibadət və apardığınız cihad varlığımız təsiri deyilsə,

bizlərin bu işlərdə rolu yoxdursa, onda itaət edən adamla üsyankarın fərqi olmayacaqdır. Çünki Allah, birini itaət edən o birini isə üsyankar yaratmışdır. Belədirsə birini cəzalandırıb, o birinə mükafat verə bilərmi? Nəticələrin meydana çıxmasında səbəblərin rolu danılmazdır, amma söz burasındadır ki, bütün bunlar daha üstün bir qüdrətin hakimiyyəti altındadır. Həmin qüdrət daimi olaraq onlara varlıq feyzi bəxş edir və onlara təsir etmə icazəsi verir. Bu haqda Qurani-Kərrim ifadəsinə diqqət yetirin:

وَإِذْ تَخْلُقُ مِنَ الطِّينِ كَهَيْئَةِ الطَّيْرِ بِإِذْنِي

***«O zaman sən mənim iznilə palçıqdan quşa bənzər bir şey düzəltdin».***[1]

Allah-Təala bu ayədə Məryəm oğlu Həzrət İsaya xitabən buyurur: Sən yaradırsa amma mənim iznimlə. Sən sağaldırsan lakin mənim iznimlə, yəni ixtiyar Allahın əlindədir. Varlıq işığı İbrahim ya İsmail ya Məryəm oğlu İsa ya İmran oğlu Musa (onlara salam olsun) ya Allahın digər peyğəmbər və övliyalarının iradə və istəyi məcrasından saçır. Məsələn elə burasındadır. Əgər ümumiyyətlə səbəblərin təsiri inkar edilsə dünya məhz icbar aləminə çevrilər və vəzifəyə yer qalmaz, bütün biliklər aradan getməli olar, çünki (icbar dünyasında) heç şeyin başqa şeylər əlaqəsi olmayacaqdır, heç bir səbəb-nəticəyə təsir buraxmayacaqdır, heç bir mikrobun heç bir xəstəlik törətməkdə rolu olmayacaqdır, heç bir dərman heç bir xəstəliyi sağaltmayaqdır. Amma elə deyil, Allah dava-dərmana təsiredicilik qabiliyyəti vermişdir, dava-dərman xəstəliyə Allahın izni ilə təsir buraxır. Bu mövzu həm təbii həm də metafizik sahəsində eynidir. Xəstəni sağaldan peyğəmbər də bu

---

[1] «Maidə» sürəsi, ayə 110.

işi Allahın izni ilə görür. Bu mövzunu dərk etməyənlər təsəvvür edirlər ki, əgər peyğəmbər, imam ya Allah övliyalarından biri xəstəni sağaltmışdır, deməк şirkdir!

Hər halda Allah öz övliyasına elə qüdrət verə bilir ki, onun izni ilə ölünü diriltsin, xəstəyə şəfa versin ya başqa möcüzələr göstərsin. Xəbəri fikirlərə malik olan adamlar isə bütün əməlləri bilavasitə Allaha mənsub etməklə müstəmləkəçilər və zalımlara tamlı xörək sayılırlar. Necə ki, Bəni-Üməyyə və Bəni-Abbas dövrlərin tövhid ruhiyyəsini gücləndirmək bəhanəsi ilə cəbri fikirləri yaydılar və qeyrətsiz adamlar gətirdilər. Halbuki bu iki həqiqəti ayrı-ayrı yox, birlikdə qavramalı və onların verəcəyi böyük nəticələrə çatmalıyıq. Həm tövhid ruhiyyəsi gücləndirilməlidir (yəni Allah-Təaladan başqa heç bir müstəqil qüdrət yoxdur), həm də səbəblərin xüsusilə insanın ixtiyari işlərindən təsiri. Bunu da bilməliyik ki, dinin əsası ixtiyarı qəbul etməkdir. İxtiyar olmasaydı təlim, irşar, kitab nazil etmək, peyğəmbər göndərmək, qorxutmaq və məjdə verməyə yer qalmazdı. Peyğəmbərlər insanları, öz əməllərindən irəli gələcək Allahın əzabından qorxudurdular. Halbuki cəbirlik olsaydı qorxuya və əzaba yer qaımayacaqdır.

## İLAHİ VİLAYƏT

Yuxarıdakı sözlərdən belə nəticə alınır ki, nəinki ümumi bir sistem olaraq dünyanın tədbiri Allah əlindədir, həm də hər bir kiçik sistemin özünə məxsus tədbiri vardır ki, Allah iradəsi ilə həyata keçirilir. Bu arada insan üzərindəki tədbir onun müxtəlif və geniş qabiliyyət və kəmalatına görə özünə aiddir. İlahi tədbirin şüurlu mövcudat və o cümlədən insanla əlaqədar hissəsi Quran dilində vilayət adlandırılmışdır.

Quranda elə ayələr vardır ki, vəli, vali və mövla sözləri işlənmiş və bu sözlərlə Allahın ad və sifətləri bəyan edilmişdir. Bunların hamısının kökü «vilayət» sözüdür ki, ümumiyyətlə şüurlu mövcudların idarə etməsi məsuliyyətini daşıma mənasındadır. Bu o deməkdir ki, Allah-Təala insanı yaratdıqdan sonra onu özbaşına buraxmır, onun idarəsini öz üzərinə götürür (ona həyat tədbiri tökür) və onun qarşısına elə hadisələr çıxarır ki, insan kəmal və inkişaf istiqamətində irəliləyə bilsin. (İrəliləyə bilsin deməyimiz ona görədir ki, insan ixtiyar sahibi bir mövcud olduğu üçün bütün şərait və imkanlara baxmayaraq sui-istifadə edib, təkamül və inkişaf istiqamətini qoyub uçuruma və geriliyə doğru gedə bilər).

Allahın bu sahədəki işinə gəldikdə isə iki cəhətdə, iki mərhələdə həyata keçir: Biri bütün insanlara şamil olan vilayəti-ammə, o birisi vilayəti-xassədir. Allah-Təala tarixin bütün dövrlərində və dünyanın bütün yerlərində bütün insanlar üçün onların təkamülünə zəmin yaradan qanunlar və ənənələr vermişdir. Bu, bütün insanlara şamil olan ümumi vilayətdir. İstər bu vilayəti qəbul edib özlərini ilahi vilayətə təslim etsinlər, istər inad üstündə dayanıb kafir olsunlar. Nə isə, bu həqiqəti ilahi vilayət mömin və kafir, saleh və fasiq adamların üzərində mövcuddur və qiyamət günü aşkar olacaqdır:

هُنَالِكَ الْوَلَايَةُ لِلَّهِ الْحَقِّ

***«Belə bir vəziyyətdə vilayət ancaq haqq olan Allaha məxsusdur».***[1]

O gün ilahi vilayət aşkar olacaqdır və onun hikmətli tədbirini dünya üzərində hakim olduğu üzə çıxacaqdır.

---

[1] «Kəf» surəsi, ayə 44.

Qurani-Kərim bir çox hallarda xass bir vilayət də danışmışdır ki, məhz möminlərin və müvəhhidlərin, yəni Allahın yaratdığı əlverişli şəraitdən yaxşı istifadə edib, özlərini təkamül etdirmək qərarına gələnlərin üzərindədir. Bu növ vilayət artıq kafir, fasiq, inadkar və münafiqlərlə əlaqədar deyildir. Onlar bu vilayətdən kənardadırlar. Bir cəhətdən demək olar ki, özbaşına buraxılmış və ancaq ümumi vilayətin hakimiyyəti altındadırlar.

Vilayəti xassənin müxtəlif mərhələləri vardır. Misal üçün biri Allah yolunda kiçik bir addım götürüb, kiçik bir hərəkət etsə vilayətin aşağı bir mərhələsinə yiyələnəcək və ilahi inayət və vilayətdən məhdud şəkildə yararlanacaqdır. Əgər mömin adam Allahın bu məxsus nəmətindən düzgün istifadə edib qədrini bilsə, birinci mərhələdə ona şamil olan vilayət onu daha böyük qədəm götürməyə və daha da inkişaf etməyə hazırlayacaq, Allah da ona daha da çox mərhəmətli olacaqdır. Yox, əgər həmin həddə dayansa yalnız bu mərhələnin vilayətindən yararlanacaq və yüksək mərhələlərə çatmayacaqdır. Hər halda əgər mömin ilahi vilayətdən yaralanıb düzgün istifadə etsə və öz təkamül yolunu daha çox davam etdirsə, Allahın daha böyük inayət və mərhəmətlərinə şamil olacaq və insan növünün çata bildiyi ən yüksək rütbəyə çata biləcəkdir. Necə ki, vəliyüllah və Peyğəmbəri-Əkrəm Həzrət Mühəmməd ibn Abdullah (s) o müqəddəs dərəcəyə çatdı. Demək insan, Allaha təslim olub öz iradəsini onun iradəsinə tabe etdiyi və Allah nemətlərindən öz mənəvi təkamülü yolunda istifadə etdiyi qədər ilahi vilayətdən yaralanır.

İlahi vilayət qazanmaq uğrunda ilk addım Allaha iman gətirmək, xeyir əməl etmək və tağuta mübarizə aparmaqdır:

فَمَنْ يَكْفُرْ بِالطَّاغُوتِ وَيُؤْمِنْ بِاللَّهِ فَقَدِ اسْتَمْسَكَ بِالْعُرْوَةِ الْوُثْقَىٰ لَا انْفِصَامَ لَهَا ۗ وَاللَّهُ سَمِيعٌ عَلِيمٌ

***«...Hər kim tağutu inkar edib Allaha iman gətirərsə, o, artıq ən möhkəm ipdən yapışmış olur. Allah eşidən və biləndir».***[1]

Belə bir adam ən möhkəm və etimad edilməli bir dəstəkdən yapışmışdır və üzünü xətərdən qurtaracaqdır. Ayənin davamında deyilir:

اللَّهُ وَلِيُّ الَّذِينَ آمَنُوا يُخْرِجُهُمْ مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ

***«Allah (Ona) iman gətirənlərin dostudur, onları zülmətdən çıxarıb işığa tərəf yönəldər».***[2]

Kafir olanlara gəldikdə isə, onlar, artıq belə bir vilayətdən məhrumdurlar, onlara şeytanlar və tağutlar başçılıq edir:

وَالَّذِينَ كَفَرُوا أَوْلِيَاؤُهُمُ الطَّاغُوتُ

***«Kafirlərin dostu isə Taqutdur (şeytanlardır)».***[3]

İlahi vilayətə və Allahın məxsus inayətinə şamil olmağın şərti olan iman və xeyir əməlin müxtəlif cəhət və mərtəbələri vardır, və elə bir həddə çatır ki, Allah, insanın bütün məsləhətlərini nəzərə alır və onlara çatmağa vəsilələr yaradır. Hətta elə bir həddə çatır ki, sanki eşidə onun qulağı deyil, Allahdır, görən onun gözü deyil, Allahdır və hərəkət edən onun əli deyil, Allahdır.[4] Məlumdur ki, Allah belə adamları artıq özbaşına buraxmayacaqdır ki, yalnız göz, qulaq, fikir və düşüncələrindən istifadə etsinlər, onların zəhmətli təcrübə və düşünməklə əldə edəcəklərini onların könlündə ilham edəcək,

---

1 «Bəqərə» sürəsi, ayə 256.
2 «Bəqərə» sürəsi, ayə 257.
3 «Bəqərə» sürəsi, ayə 257.
4 «Üsuli-kafi» cild 2, səh. 352, hədis 7 və 8.

maddi qüvvələrlə kifayətlənməyib qeybi yardımlar göndərəcəkdir.

İlahi vilayətin bir yönü insan ictimaiyyətinə şamil olur. İlahi vilayət bəzən ayrı-ayrı insan fərdləri üçündür, bəzən də geniş səviyyədə ilahi cəmiyyət təşkil etmək üçündür və saysız bərəkəti vardır. Allah, bir qövmdə təkamül qabiliyyəti və xeyir gördükdə onların inkişafına zəmin yaradır. İnsan cəmiyyəti böyük İslam Peyğəmbərinin (s) zuhuruna qabiliyyətə malik olduqda Allah-Təala Ərəb yarmadasında islam və müvəhhid bir cəmiyyətin yaranmasına zəmin yaradır. Qabaqkı peyğəmbərlər sülaləsindən olan bir nəfəri yaradır və qırx yaşında peyğəmbərliyə çatdırmaq məqsədi ilə inkişaf etdirir. Camaat ona qoşulub, pak niyyətlə Allah yolunda addım atdıqda isə onların inkişaf etməsinə daha çox əlverişli zəmin yaradır və təkamülə doğru irəliləmələrinə zəmin yaradır. Bu yolda çətinliklər qarşıya çıxır, bəzən camaat narahat da olur, lakin bunların hamısı güclü və dünyada böyük dəyişiklik yarada bilən islam cəmiyyətinin təşkili üçündür.

İslam ingilabımız da belə idi. Əsrlər boyu islam cəmiyyətinin təşkilinə müxtəlif fürsətlər qarşıya çıxdı, müsəlmanların həyatında irəliləyiş baş verdi. Nəhayət İran adlı bir diyarda yaşayan xalq məxsus ilahi inayətə layiq göründü. Allah-Təala peyğəmbərin və məsum imamların sülaləsindən bir nəfər yaradıb inkişaf etdirdi. İslamın geniş bilik və lazımi məlumatını ona təlim verdi (söz yoxdur ki, səbəblər yolu ilə). Cəmiyyətdə hərəkət şəraiti yarandığı həmin adam tövhid harayını ucaltdı və xalqı hərəkət etməyə çağırdı. Nəhayət 1978-ci ildə üzündə böyük bir dirçəliş başlandı.

Allahın xas vilayət bir mərtəbə və bir məqama məhdud deyildir. Demək olar ki, saysız mərtəbələri vardır. Bu şərtlə ki, hər mərhələnin şərtlərinə düzgün riayət edək, Allah-Təalanın

bizə mərhəmət etdiyi imkanlardan olduqca çox istifadə edib nemətin şükrünü yerinə yetirək.

İnsanların, Allah inayətindən yararlanmaq üçün yerinə yetirməli olduğu bütün vəzifələr bir əsas vəzifədə Allahın bəndəçiliyində toplanmışdır:

وَأَنِ اعْبُدُونِي ۚ هَٰذَا صِرَاطٌ مُسْتَقِيمٌ

***«Və, Mənə ibadət edin, doğru yol budur?!»***[1]

Bəndəlik isə iki görkəmdə təzahür edir: Biri daha çox bilik əldə etmək, o biri yaxşı işlər görməkdir.

## HİDAYƏTDƏ TÖVHİD

Rübubiyyətdə tövhidin müxtəlif budaqları vardır. Onlardan biri hidayətdə tövhiddir. Quran tövhid mərifətini belə bəyan edir: Allah, bir mövcuda varlıq bəxş etdiyi kimi onların hər birinə özünə məxsus hidayət də vermişdir. Həzrət Musa və Harun öz dəvətlərini bildirdikdən sonra Firon, siz məni pərəstişinə çağırdığınız tanrı kimdir? - deyə soruşduqda Musa belə cavab verdi:

قَالَ رَبُّنَا الَّذِي أَعْطَىٰ كُلَّ شَيْءٍ خَلْقَهُ ثُمَّ هَدَىٰ

***«Rəbbimiz hər şeyə Öz surətini və şəklini, yaranışını verən, sonra da ona doğru yolu göstərəndir!»***[2]

Ayeyi-şərifədən belə çıxır ki, yaranmış ümumi və hər mövcuda şamil olduğu kimi ilahi hidayət də bütün varlıqlara şamil olan ümumi bir mərhəmətdir. Əlbəttə sonralar deyəcəyik

---

[1] «Yasin» surəsi, ayə 61.
[2] «Taha» sürəsi, ayə 50.

ki, bütün mövcudlara şamil olan ümumi hidayətdən əlavə vilayətdən olduğu kimi möminlərə məxsus hidayət də vardır.

Ümumi hidayət bir neçə hissədən ibarətdir: Bir hissəsi dünyada yaradılmış maddi varlıqlar kimi şüursuz mövcudlara şamil olur. Ayrı bir hissəsi bir yoldan artıq yolu olmayan və məhz həmin istiqamətdə fəaliyyət göstərən mələklər kimi şüurlu mövcudlarla əlaqədardır. Ümumi hidayətin üçüncü hissəsi heyvanlıq şüuruna malik olan mövcudlar və nəhayət dördüncü hissəsi insanla əlaqədardır. İnsan, qərizi şüurdan əlavə əqli şüura da malikdir və onun qarşısında birini seçmək olduğu iki yol vardır.

Bunları izah etmək üçün deməliyəm ki, bu dünya yaranmış və insana məlum olan ən kiçik zərrədən tutmuş kəhkaşanlara kimi bütün varlıqların hər birinin müəyyən istiqamətə yönəlmiş özünə məxsus hərəkət və təsirləri vardır.

Bəşərin indiyə kimi tanıdığı ən kiçik zərrə atomdur. Elektron adlı zərrəciklər nüvənin ətrafına fırlanırlar. Bu, müəyyən orbit və istiqamətdə olan xas hərəkətdir. Allah-Təala gözə görsənməyən bu kiçik zərrəni (atomu) elə yaratmışdır ki, ondakı elektronlar öz orbitində hərəkət edir, Allahın təyin etdiyi yollun xilafına getmir və səbəbsizcəsinə öz orbitlərindən çıxmırlar. Bu nizam-intizam onların zatında Allah tərəfindən yerləşmiş qanundan irəli gəlir. Buna görə də biz onu təkvin və təbii hidayət adlandırırıq. Yəni müəyyən cəhət və keyfiyyətlərə malik olan bu təsir və hərəkətlərin hamısı Allah-Təalanın bəxş etdiyi varlığa tabedir.

Addımlardan sovuşduqda onların təşkil etdiyi molekullara yetişirik. Molekulların yaranması - özünə məxsus tərkib, vəziyyət və keyfiyyətlə təşkil tapıb müəyyən xüsusiyyətlər büruzə verməsi də Allahın bir növ təkvini hidayətidir. Molekullar tədriclə və mürəkkəb şəkildə bir-birilə qarışır və

yeni maddələr verirlər. Kimya dünyasında atomların müəyyən vəziyyətdə bir-birinə qovuşub müxtəlif xasiyyətli məhsullar verməsinin özü qəribə bir hekayədir. Doğrudan onlara bu kimi xüsusiyyətləri verən kimdir?

Mineral və üzvü maddələrdən sonra bitki dünyasına giririk. Bir toxum torpağa düşür, torpağın rütubət və istisindən istifadə edir, tədriclə qabığı çırılır, kökü yerə soxulur, budağı isə torpaqdan çıxır və sonrakı macəraları baş verir. Bu, Allah-Təalanın bitkilərə təyin etdiyi qanun və hidayətdir. Onlar həmin qanuna əsasən torpaqdan qida cəzb edir, onların tərkib və təcziyəsizindən bəzi hissələr yarpaq, bəzi hissələr isə qol-budaq şəklinə düşür. Bitki dünyasına vardıqca ilahi hidayətin çox qəribə surətlərin görəcəyik.

İlahi hidayət heyvanlar dünyasında daha maraqlı şəkildə təzahür edir. Bitki dünyasında şüur yoxdur, (hərçənd bitkilər zəif şüura malikdirlər. Məsələn ağaclarda xurmanın zəif şüura malik olduğunu deyirlər. Yaxud bəzi bitkilər ət yeyirlər, yarpaqları ilə ovlayırlar, belə ki, bir heyvan yarpağın üstünə çıxdıqda yarpaq yumulur və o heyvanı həzm edir, qidalanır. Lakin biz ümüm bitkilərdə belə bir şüur olduğunu duymuruq. Olsa da biz seçə bilmirik.) Bitkilərdən başqa bir mövcudlarda şüur aydınca görsənir və hamı bu mövcudların özünə məxsus şüura malik olduğunu duya bilər. Cücə yumurtadan çıxmaq həmən üşüyəndə anasının qanadı altına sığınır, acdıqda isə dimdiyini yerə döyür. Heyvanların hər biri özünə məxsus şüura malikdir. Elə balıqlar var ki, toxum tökmək üçün necə yüz kilometr məsafə gedir və elə bir yerə çatır ki, toxum tökmək üçün əlverişli olsun, sonra birinci yerinə qayıdır. Toxumdan əmələ gələn balıqlar birinci dəfə olaraq dənizi görməklərinə baxmayaraq analarının getdiyi yolu gedir və nəhayət onlara qovuşurlar. Qurani-Kərimin xüsusilə, haqqında bəhs etdiyi

heyvanlardan biri bal arısıdır. Bu heyvanın heqzanoqal ev tikməkdə, müxtəlif gül-çiçəklərdən istifadə edib qida ehtiyatı yaratmaqda və həyatının digər mərhələlərində özünə məxsus şüuru bu iddianın qabarıq nümunəsidir. Elə quşlar vardı ki, qabaqca təcrübə etmədən və birinci dəfə olaraq özünə yuva tikir. Qaranquşları misal çəkmək olar, evlərin tavanında, əmin-amanlıq olan yerdə məxsus formada yuva tikir və orada yumurtalayır. Ev toyuğu yumurtaladıqdan sonra üstündə yatır və müəyyən vaxtlarda yumurtaları çevirir. Onun, niyə yumurta üstündə yatırsan? - deyə soruşsan, bəlkə də cavab tapa bilməyəcək. Bizim, toyuğun batinindən xəbərimiz yoxdur, lakin bu suala məntiqi cavab verə bilməyəcəyi ehtimal edilir. Məhz bunu demək olar ki, onun barəsində bu işə vadar edən bir təmayül törənir.

Bunlar ilahi təlim, ilahi həqiqətdir. Heç kim ona və minlərlə başqa heyvanlara bu xüsusiyyətləri öyrətməmişdir, Allah onlara vəhy etmişdir. Qurani-Kərim bu kimi qərizi hidayətləri bəyan edərkən vəhy ifadəsindən istifadə etmişdir:

وَأَوْحَىٰ رَبُّكَ إِلَى النَّحْلِ...

***«Rəbbinə bal arısına belə bəhs etdi».***[1]

Başqaların duya bilmədiyi və heyvanın batinində yaranan bir növ tanınmaz və sirli təlimdir.

Ayrı bir hidayət növü mələklər kimi bir yoldan artıq yolu olmadan şüurlu mövcudları əhatə edir. Onlar çox incə və şüurlu varlıqlardırlar və vəzifələrini məhz Allahın əmri ilə yerinə yetirirlər.

بَلْ عِبَادٌ مُكْرَمُونَ لَا يَسْبِقُونَهُ بِالْقَوْلِ وَهُمْ بِأَمْرِهِ يَعْمَلُونَ

---

[1] «Nəhl» sürəsi, ayə 68.

***«Yox, mələklər möhtərəm bəndələrdir, Allahdan qabaq söz danışma yalnız onun əmri ilə iş görərlər».***[1]

Bizim məhz Allahın və məhsulların verdiyi xəbərlər yolu ilə varlıqlarını öyrəndiyimiz bu mövcudlar xüsusi hidayət olunurlar, məhz Allahın təyin etdiyi və onlara təlim verdiyi işləri görürlər. Mələklərdən bir dəstənin işi insanın əməllərini yazmaqdır. Allah, onları məhz bu iş üçün yaratmış və vəzifələrini onlara öyrətmişdir. Onlar yaranışın başlanğıcından indiyə kimi həmin vəzifəni daşıyırlar. Ayrı bir dəstə ərzaq malların məsulu, üçüncü dəstə isə qalan işləri görürlər.

Qurani-Kərimdə adları çəkilən müxtəlif mələklərin hər biri müəyyən mərtəbə, iş və hidayət sahibidir və hamısı təsbih və təqdislə məşğuldurlar:

وَنَحْنُ نُسَبِّحُ بِحَمْدِكَ وَنُقَدِّسُ لَكَ

***«Biz sənə şükür edir, çəkinə təriflər deyir və səni müqəddəs tuturuq».***[2]

Hərçənd Qurani-Kərimdə bütün mövcudların bir növ təsbih və hətta ibadət və namaz qıldıqları sübuta yetişmişdir, lakin biz göyün quşlarının necə təsbih edib namaz qıldıqlarının həqiqətini duya bilmirik).

Quran «Nur» surəsinin 41-ci sayəsində deyir:

كُلٌّ قَدْ عَلِمَ صَلَاتَهُ وَتَسْبِيحَهُ

***«Allah onlardan hər birinin duasını şükr-sənasını bilir».***

«İsra» surəsinin 44-cü sayəsində isə belə deyir:

وَإِنْ مِنْ شَيْءٍ إِلَّا يُسَبِّحُ بِحَمْدِهِ وَلَٰكِنْ لَا تَفْقَهُونَ تَسْبِيحَهُمْ

---

[1] «Ənbiya» sürəsi, ayə 26-27.

[2] «Bəqərə» sürəsi, ayə 30.

***«Elə bir şey yoxdur ki, Allaha tərif deyib ona şükür etməsin, lakin siz onların təqdisini anlamazsınız».***

## İNSANA XAS HİDAYƏT

Bu arada insana şamil olan hidayət özünə məxsus üstünlüyə malikdir. İnsan yaradılmış sisteminin seçməsidir. Atom, molekul və üzvi maddələrdən tutmuş bitki və heyvan xüsusiyyətləri və qərizələnə kimi onun varlığında toplanmışdır. Bunların hamısından üstünü ona şamil olan və onun digər yaranmışlardan ayıran və hətta mələklərdən üstün edən hidayətdir. Bu hidayət Allah-Təalanın ona verdiyi ağıldır ki, onu həm nəzəri həm də əməli sahələrdə bir sıra həqiqətləri dərk etməyə qadir edir. İnsana gəldikdə yalnız heyvanlarda olan qərizi ilhamlara kifayət edilməmişdir. Əlbəttə körpənin bir sıra qərizi dərkləri vardır. Misal üçün o, qərizi olaraq ananın döşünün südünü əmməyi, ağrar yeri olduqda ağlamaqla bilindirməyi bacarır. Bu, heyvanlarda da mövcud olan qərizi dərkdir. Lakin yetginləşdikcə onda başqa bir dərk də görsənir ki, heyvanlarda bu səviyyədə yoxdur. İnsan belə bir xüsusiyyətlərə malik olmaqla əqli təhlillər verir və məntiqi fikirlər irəli sürür, görsənməyən həqiqətlərin ar olduğunu öyrənir. Bildiyiniz kimi alimlər obyektiv varlığından xəbər olmadıqları bir çox tezislər öncə zehnində tutmuş, sonra isə təcrübi dəlillərlə sübuta yetirmişlər. İnsan hətta elə bir qüdrət malikdir ki, fitri dərk və şüursuz «hüzuri elmə» malik olmaqdan əlavə ağıl yolu ilə Allah-Təala və onun sifəti və ismləri haqqında şüurlu və hüsuli dərkə malik ola bilir. Bu da çox böyük və şərafətli və insan təkamülü üçün qurucu və əhəmiyyətli bir qüvvədir. Əməl sahəsinə, praktikaya gəldikdə isə onun ağlı yaxşı pisdən, gözəli çirkindən seçmə

qabiliyyətinə malik edir. Allah bu bacarığı insana vermişdir ki, yaxşı yolu pis yoldan, təqva yolunu pozğunçuluqdan, ədalət və haqq yolu zülm və nahaq yoldan seçib, istədiyi hər bir yolu götürə bilsin.

Quran deyir:

إِنَّا هَدَيْنَاهُ السَّبِيلَ إِمَّا شَاكِرًا وَإِمَّا كَفُورًا

***«Biz ona haqq yolu göstərdik. İstər (nemətlərimizə) minnətdar olsun, istər nankor (bu onun öz işidir)».***[1]

Bununla da bir şey qəbul etdirilmədən və öz seçki ilə həqiqəti əldə edə bilər.

Ağıl qüvvəsi səbəb olur ki, insan, məsələləri ümumi şəklində haqq və batilin əsas xətlərini öyrənə bilsin. Təfərrüata gəldikdə isə başqa bir hidayət möhtacdır.[2]

İnsana ixtiyari təkamül üçün yaradan hikmət sahibi Allah belə bir hidayət verməyi də əsirgəməmiş və ağıl dərkinin çatışmamazlığını vəhy və nübüvvətlə cübran etmişdir. Buna görədir ki, Allah ilk insanı yaradanda ona ağıl verməkdən əlavə vəhy də edib, onu peyğəmbər qərar vermişdir. Sonra hökumətinin tələblərinə əsasən başqa peyğəmbərlər məbus etmişdi ki, nəzəri və əməli sahədə ağıl çatışmamazlığını cübran etsin.

Deməк əslində Allah-Təalanın insana verdiyi ən böyük nemət yuxarıda qeyd etdiyimiz hidayəti-xassədir. Bu hidayət iki hissədən ibarətdir: Əqli hidayət və vəhy hidayəti. Başqa sözlə desək, Allah-Təala insana iki höccət, iki bələdçi nəzərdə

---

[1] «Dəhr» sürəsi, ayə 3.

[2] Ağıl bütün məsələləri diqqətlə dərk etməyə qadir deyildir. Misal üçün bütün ağıllı insanlar ədalətin yaxşı olduğunu və zülmün pis olduğunu bilirlər. Lakin təfərrüatı gəldikdə isə ədalət və zülmü konkretləşdirə bilmirlər. Bəzən iş elə yerə yetişir ki, haqq və batil, ədalət və zülm bir-birinə oxşayır, haqq, nahaq sayılır və ədalət zülm.

tutmuşdur: Bir batini höccət, yəni ağıldır. Bu höccət kifayət etmədiyi üçün insanın vücüdundan kənarda ayrı bir höccət, peyğəmbər təyin etmişdir.

Bunlar hidayəti-ammələrdir. Yəni həm möminlər, həm kafirlər, həm təqvalılar, həm də təqvasızlar bu hidayət öyrənə bilərlər. Lakin ilahi hidayətin iki hissədən ibarət olduğu kimi (biri möminlərə və kafirlərə eyni səviyyədə şamil olan ümumi vilayətdir) ümumi hidayətdən əlavə möminlərə xass olan hidayət də vardır ki, sədaqətlə Allah bəndəliyi uğrunda çalışanlara şamil olur.

Vəhy hidayəti camaata çatdıqdan sonra camaat iki dəstəyə bölünür: Bir dəstə ilahi hidayətin qəbul edir vəhy və nübuvvətə iman gətirir və əməldə peyğəmbərin fərmanlarına tabe olurlar. O biri dəstə isə pis yolu seçməklə (ixtiyarı olaraq) bu hidayət göz yumur və yaşayışdan onun təsir qaynağı kimi istifadə etmirlər. Hərçənd bu iki dəstə axirət günü yaxşı işlərinin mükafatını və pis əməllərin cəzasını görəcəklər, bu dünyada da eyni olmayacaqlar. Hidayət nemətinin qədrini bilib şükür edənlərə Allah öz nemətini artıracaqdır.

وَالَّذِينَ اهْتَدَوْا زَادَهُمْ هُدًى

***«Doğru yolu tapanlara gəldikdə isə, (Allah) onların doğruluğunu daha da artırar».***[1]

Eyni halda Allah, naşükrlük edənlərin ürəyini haqdan döndərər.

فَلَمَّا زَاغُوا أَزَاغَ اللَّهُ قُلُوبَهُمْ

***«Onlar (haqdan) üz döndərdi. Allah (Özünə asi olan) fasiqləri doğru yola yönəltməz!»***[2]

---

[1] «Məhəmməd» surəsi, ayə 41.
[2] «Səff» sürəsi, ayə 5.

Quran isə belə bir həqiqi hidayətə çatmağı belə təsvir edir:

قَدْ جَاءَكُمْ مِنَ اللَّهِ نُورٌ وَكِتَابٌ مُبِينٌ يَهْدِي بِهِ اللَّهُ مَنِ اتَّبَعَ رِضْوَانَهُ سُبُلَ السَّلَامِ

***«Artıq Allah tərəfindən sizə bir nur və açıq-aydın bir Kitab (Quran) gəldi. Allah Öz lütfünə sığınanları onunla (Peyğəmbər və Quran vasitəsilə) əmin-amanlıq (sülh) yollarına yönəldər».***[1]

Bu psixiki və qəlbi şəraitə malik olanlar, yəni Allahın razılığını istəyənlər yuxarıda deyilən həqiqi hidayətdə çata bilərlər. Bu şərtlər isə məhz iman gətirmək və əməldə Allaha satılmaq və Allaha məhəbbət bəsləməklə yaranar. Bu mərhələlərdə sonra insan Allah razılığını qazanmaq qərarına gələr və Quranın mənəvi nurundan və Allahın xass hidayətində yararlanar. Bu hidayət məhz Allahın əlindədir, bu nuru ürəklərdə də o, yaradır.

Buna görə biz, Allahın xass hidayətindən istifadə edib, onu xass vilayətini qazanmaq üçün ürəklərimizi təmizləməli, Allahın nemətlərinin qədrini bilməliyik, xütpəsənliyi atıb, Allahpərəstliyi götürməliyik. Bu da məhz şüar vermək və yalnız namaz qalmaqla olmaz, Allah könül vermək lazımdır, işlər Allah üçün olmalıdır. Xüdbinlik və dəstəbazlıq həyatdan atılmalı özü və başqaları təkamülü məqsəd olmalıdır. Allahın hidayətini özünə və başqalarına istəməli və bu yolda Allahın razılığından başqa heç nə güdməməliyik. Bir sözlə özümüzü tamamilə Allaha təslim etməliyik.

وَمَنْ يُسْلِمْ وَجْهَهُ إِلَى اللَّهِ وَهُوَ مُحْسِنٌ فَقَدِ اسْتَمْسَكَ بِالْعُرْوَةِ الْوُثْقَىٰ

---

[1] «Maidə» sürəsi, ayə 15-16.

***«Kim yaxşı əməl sahibi olub özünü (səmimi-qəlbdən) Allaha təslim edərsə, o artıq ən möhkəm ipdən (dəstəkdən - Qurandan, imandan) yapışmış olur».***[1]

Belə bir adam Allahın hidayəti-xassəsini dərk etmə qabiliyyətinə çatır. Belə olmadıqda isə nemətə nankorluq etmək nəticəsində Allahın zəlalətinə düçar olacaqdır.

## RUZİ VERMƏK

Qurani-Kərimdə haqqında çoxlu təkid olunan rübubiyyətdə tövhidin bir qolu da bu inamdır ki, Allah-Təala bəndələrinə rüzi verən və onların tələbatını təmin edən yeganə kimsədir.

يَا أَيُّهَا النَّاسُ اذْكُرُوا نِعْمَتَ اللَّهِ عَلَيْكُمْ ۚ هَلْ مِنْ خَالِقٍ غَيْرُ اللَّهِ يَرْزُقُكُمْ مِنَ السَّمَاءِ وَالْأَرْضِ ۚ لَا إِلَٰهَ إِلَّا هُوَ ۖ فَأَنَّىٰ تُؤْفَكُونَ

***«Ey insanlar, Allahın sizə olan nemətini yada salın. Allahdan başqa sizə göydən və yerdən ruzi verən bir xalqı varmı? Ondan başqa heç bir tanrı yoxdur. Elədirsə, necə (aldanıb haqdan) döndərilirsiniz?!»***[2]

Göründüyü kimi bu ayəsi şərifədə xaliqiyyət (yaratma) və raziqiyyət (ruzi vermə) bir-birinə lazım bilinmişdir. Ayədə deyir: «Sizə ruzi verməyə Allahdan başqa bir xaliq varmı?» Bu cümlədə çox incə bir mövzu vardır. Adəm üzrə sual belə olmalıdır ki, «Sizə ruzi verməyə bir raziq (ruzi verən) varmı?» Lakin Quran raziq yerinə xaliq sözündən istifadə edir. Ayə, bununla bildirmək istəyir ki, ruzi vermək yaratmağın bir cəhətidir. Yəni dünyada qabaqca ruzi yaranmalıdır ki, bir

---

[1] «Loğman» surəsi, ayə 22.
[2] «Fatir» surəsi, ayə 3.

mövcud qidalanmaq istədikdə ona əli çatsın və ondan istifadə etməklə həyatını davam etirsin.

Demək doğrusu budur ki, ruzi yeyəni yaradan və qida maddələrini əldə etməyi ona mümkün edən kimsə əslində onun ruzisini verir. Daha doğrusu ruzi vermək qida maddəsini yaranmışın ixtiyarında qoymaqdan başqa bir şey deyildir. Əlbəttə rizq (ruzi) sözü bəzən qeyri-maddi ruziləri də ehtiva edən geniş mənada işlənilir. Misal üçün ruhun ruzisi elmdir. Məkənlərin ruzisi Allaha təsbih deməkdir, kimi ibarələr vardır. Lakin burda ruzidən məqsəd dünya həyatını və təkamülü davam etdirmək üçün lazım olan maddi ruzidir.

İnsanların pis sifətlərindən biri də budur ki, aclıq, susuzluq və s. maddi ehtiyac zamanı Allaha yönəlir, ona sığınırlar, lakin bu ehtiyaclar təmin olmaq həmin, xüsusilə öz fikri və elmi fəaliyyətlərin nəticəsində təmin olduqda Allahdan qafil olurlar. Quran bu barədə deyir ki:

فَإِذَا مَسَّ الْإِنْسَانَ ضُرٌّ دَعَانَا ثُمَّ إِذَا خَوَّلْنَاهُ نِعْمَةً مِنَّا قَالَ إِنَّمَا أُوتِيتُهُ عَلَىٰ عِلْمٍ ۚ بَلْ هِيَ فِتْنَةٌ وَلَٰكِنَّ أَكْثَرَهُمْ لَا يَعْلَمُونَ

***«İnsana bir zərər toxunduğu zaman Bizə dua edər. Sonra dərgahımızdan ona bir nemət əta etdikdə: «Bu mənə yalnız biliyimə görə verilmişdir!» – deyər. Xeyr, bu bir imtahandır, lakin onların əksəriyyəti bilməz!»***[1]

Allah-Təala bəzi bəndələrinə bol nemət verdi, lakin onlar güman edirlər ki, bu nemətlər onların səy, zəka və biliyi nəticəsində əldə edilmişdir!

Belə adamların qabarıq nümunəsi Qarundur. Qarunun sərvəti haqqında çoxlu hekayələr vardır. Qurani-Kərim onun sərvəti haqqında deyir:

---

[1] «Zümər» surəsi, ayə 49.

وَآتَيْنَاهُ مِنَ الْكُنُوزِ مَا إِنَّ مَفَاتِحَهُ لَتَنُوءُ بِالْعُصْبَةِ أُولِي الْقُوَّةِ

***«Biz ona açarlarını bir dəstə güclü adamın zorla daşıya biləcəyi xəzinələr vermişdik».***[1]

Dindar adamlar Qaruna öyüd verərək dedilər:

وَابْتَغِ فِيمَا آتَاكَ اللَّهُ الدَّارَ الْآخِرَةَ ۖ وَلَا تَنْسَ نَصِيبَكَ مِنَ الدُّنْيَا

***«Allahın sənə verdiyindən özünə axirət qazan (malını Allah yolunda sərf et). Dünyadakı nəsibini də unutma».***[2]

Bu var-dövlət sənə qürrələndirməsin. Bunlardan yer üzündə pozğunluq törətmək üçün istifadə etmə. Allahın sənə verdiyi bu nemətlərdən axirət üçün istifadə etməyə çalış. Qarun onların cavabında dedi:

وَأَصْبَحَ الَّذِينَ تَمَنَّوْا مَكَانَهُ بِالْأَمْسِ يَقُولُونَ وَيْكَأَنَّ اللَّهَ يَبْسُطُ الرِّزْقَ لِمَنْ يَشَاءُ مِنْ عِبَادِهِ وَيَقْدِرُ

***«Bu (var-dövlət) mənə yalnız məndə olan elm sayəsində verilmişdir».***[3]

Nə danışırsınız? Allah mənə hansı sərvəti vermişdir? Mən özüm çalışıb, bilik və texnika ilə onları qazanmışam. Heç kimin mənim sərvətimdə haqqı yoxdur. Yoxsullar özləri pul qazansınlar.

İnsanın fəaliyyəti nəticəsində əldə edilən məhsul insanın özündəndir - deyə əsaslanan görüş şirkdir. Müvəhhid insan bilməlidir ki, varlığı, çiskin qüdrəti, düşüncə qabiliyyəti və istifadə etdiyi maddələrin hamısı Allahdandır. Hələ onlardan istifadə etmək də onun tədbirindən asılıdır. Heç kim belə təsəvvür etməməlidir ki, qazandığı var-dövlət bu dünyada

[1] «Qəsas» sürəsi, ayə 76.
[2] «Qəsas» sürəsi, ayə 77.
[3] «Qəsas» sürəsi, ayə 78.

istədiyi kimi istifadə edəcəkdir. Çoxları var-dövlət yığıb (istər halal yolla olsun istərsə də haram yolla), lakin istifadə etməyə müvəffəq olmadılar. Qarun bu kimi şəxslərdən idi. O, da öz varından edə bilmədi, çünki Allahın əzabına düçar oldu və sərvəti ilə birlikdə yerə batdı. Qarun olmaq arzusunda olan adamlar isə bu məcaradan ibrət götürdülər və bildilər ki, səadət üçün təkcə sərvət kifayət etməz.

وَأَصْبَحَ الَّذِينَ تَمَنَّوْا مَكَانَهُ بِالْأَمْسِ يَقُولُونَ وَيْكَأَنَّ اللَّهَ يَبْسُطُ الرِّزْقَ لِمَنْ يَشَاءُ مِنْ عِبَادِهِ وَيَقْدِرُ ۖ لَوْلَا أَنْ مَنَّ اللَّهُ عَلَيْنَا لَخَسَفَ بِنَا ۖ وَيْكَأَنَّهُ لَا يُفْلِحُ الْكَافِرُونَ

***«Dünən (dünyada) onun (Qarunun) yerində olmaq istəyənlər ertəsi gün səhər belə deyirdilər: «Vay (biz heç bilməmişik)! Sən demə, Allah Öz bəndələrindən istədiyinin ruzisini artırarmış da, azaldarmış da!»***[1]

Gördülər ki, bu sərvətləri tamamilə yerə batdı Qaruna qismət olmadı, onun özü də belə, məhv oldu. Qəribədir, dedilər, Allah istədiyinin ruzisini artırar, istədiyininkini isə azaldarmış. Bu mövzu (ruzinin artması və azalması) Qurani-Kərimdə on dəfədən çox deyilmişdir. O cümlədən «Rəd» surəsinin 26-ci ayəsində buyrur:

اللَّهُ يَبْسُطُ الرِّزْقَ لِمَنْ يَشَاءُ وَيَقْدِرُ

***«Allah istədiyi bəndənin ruzisi bol da edər, azaldar da».***

## ALLAHIN İNSANLARA RUZİ TƏYİN ETMƏSİ

Allah, məsləhətsiz və hikmətsiz bir şəxsin ruzisini nə artırar nə azaldar. Birinin ruzisinin artıb, əskilməsi onun

---

[1] «Qəssas» sürəsi, ayə 82.

hikmətli prinsip və qanunların əsasındadır. Qurani-Kərim «Şura» surəsinin 27-ci sayəsində bu haqda deyilir:

وَلَوْ بَسَطَ اللَّهُ الرِّزْقَ لِعِبَادِهِ لَبَغَوْا فِي الْأَرْضِ وَلَٰكِن يُنَزِّلُ بِقَدَرٍ مَا يَشَاءُ ۚ إِنَّهُ بِعِبَادِهِ خَبِيرٌ بَصِيرٌ

***«Əgər Allah (bütün) bəndələrinə bol ruzi versəydi, onlar (günah etməkdə) yer üzündə həddi aşardılar. Lakin O istədiyi qədər ruzi göndərir. Allah öz bəndələrindən xəbərdardır, (onları) görəndir!»***

Bundan əlavə daha əhəmiyyətə malik olan bir incəlik də vardır: Ruzilərin fərqli olması, az-çox olması Allahın sınaqlarından biridir.[1] Daha doğrusu dünya həyatının bütün sahələri sınaq meydanıdır:

الَّذِي خَلَقَ الْمَوْتَ وَالْحَيَاةَ لِيَبْلُوَكُمْ أَيُّكُمْ أَحْسَنُ عَمَلًا

***«Hansınızı əməldə daha gözəl olduğunu sınamaq üçün ölümü və həyatı yaradan Odur».***[2]

Sınağın necəliyinə gəldikdə isə bildiyimiz kimi adamların hamısı cism qüdrəti baxımından bərabər deyillər və hamı eyni səviyyədə iqtisadi fəaliyyət göstərə bilməz, birinin gücü çox başqa birisinin isə azdır. Eləcə də fərdlərin fikri və idarə etmə bacarığı bərabər deyil. Bu arada fikir və cism cəhtindən gücsüz olan adamın maddi payı da az olur. Və məlumdur ki, cismi və fikri cəhətdən güclü olan adam daha çox məhsul əldə edir və istər-istəməz insanların ruzi haqqı bir-biri ilə fərqlənir. Allah-

---

[1] Bax «Ənfal» sürəsinin 165-ci ayəsinə:

وَرَفَعَ بَعْضَكُمْ فَوْقَ بَعْضٍ دَرَجَاتٍ لِيَبْلُوَكُمْ فِي مَا آتَاكُمْ

***«(Ey insanlar!) Verdiyiniz nemətlərlə sınamaq üçün sizi yer üzünün varisləri təyin edən, dərəcələrə görə birinizi digərinizdən üstün edən Odur».***

[2] «Mülk» sürəsi, ayə 2.

Təala ruzini fərqləndirməklə insanları sınaqdan keçirir. Məlum olsun ki, adamlar öz haqqına qənaət edirlər, yoxsa başqalarının hüququna təcavüz edirlər? Var-dövlət sahibləri (tutaq ki, bu sərvəti halal yolla qazanmışlar) öz vəzifələrini yerinə yetirirlər yoxsa Qarun kimi, «Bu var-dövlət mənə yalnız mənə olan elm sayəsində verilmişdir», deyirlər. Yaxud məhz sərvət sahibi olanda Allaha pərəstiş edir yoxsa, sərvətini itirdikdən sonra da Allahı yad edir? Yoxsula gəldikdə isə görəsən əli boş olduğu üçün Allaha sığınır, ondan ruzi diləyir yoxsa sərvət sahibi olanda da Allahı yad edir? Demək ruzilərin fərqliliyi camaatı sınaqdan keçirən ümumi bir hikmətdir.

## RUZİNİN DƏYİŞİLMƏSİNİN SƏBƏB VƏ AMİLİ

Bəzən də adamı özü rüzinin dəyişməsinə səbəb olur. Belə ki, əgər adam Allahın nemətlərinin qədrini bilib, ondan yaxşı istifadə etsə, Allah yolunda hərəkət etsə ruzisi çoxalacaqdır:

لَئِنْ شَكَرْتُمْ لَأَزِيدَنَّكُمْ

***«Əgər şükür etsəniz, sizə (olan nemətimi) artıracağam».***[1]

Eyni halda nemətin şükrünü yerinə yetirmək, nankor olmaq ruzinin azalmasına səbəb olub ilahi əzabla nəticələnəcəkdir.

وَلَئِنْ كَفَرْتُمْ إِنَّ عَذَابِي لَشَدِيدٌ

***«Yox, əgər nankorluq etsəniz, (unutmayın ki) Mənim əzabım, həqiqətən şiddətlidir».***[2]

---

[1] «İbrahim» surəsi, ayə 7.
[2] «İbrahim» surəsi, ayə 7.

Əlbəttə belə bir təsəvvür yaranmamalıdır ki, varlı adamlar Allahın əmrinə daha yaxşı itaət edirlər. Çoxları nəinki Allahın nemətlərinin qədrini bilmir, üstəlik o nemətdən sui-istifadə edərək haqq və haqpərəstlərə qarşı dururlar (indiki fövqalqüdrətlərin gördüyü işlər kimi), lakin eyni halda nəinki Allah onlardan nemətini kəsmir, bəzən artırır da. Bu da «imla və istidrac» adlı bir sünnədir, yəni əgər bir bəndə ixtiyari olaraq batil yolu seçib sürətlə davam etdirsə və doğru yola qayıtmasına ümid qalmasa, Allah onların maddi nemətlərini artırmaqla onların mənəvi uçuruma uçmasına zəmin yaradır, onların rahatlığı onlardan alınır və nəhayət onları güdən əbədi əzaba səbəb olur. Qurani-Kərim «Ali-İmran» surəsinin 178-ci ayəsində buyurur:

وَلَا يَحْسَبَنَّ الَّذِينَ كَفَرُوا أَنَّمَا نُمْلِي لَهُمْ خَيْرٌ لِأَنْفُسِهِمْ ۚ إِنَّمَا نُمْلِي لَهُمْ لِيَزْدَادُوا إِثْمًا

***«Küfr edənlər onlara verdiyimiz möhləti heç də özləri üçün xeyirli sanmasınlar! Bizim onlara verdiyimiz möhlət ancaq günahlarını daha da artırmaları üçündür».***

Onlar həm bu dünyada həm də axirətdə daha artıq əzaba düçar olacaqlar.

İnsanların müqəddəratı barəsində ilahi sünnələrdən bari də imdad sünnəsidir. Yəni əgər biri pis yolu seçsə, Allah, o yolda daha da irəliləməsinə kömək edər və hərgah yaxşı yolu seçsə, Allah, onun daha yaxşılaşmasına kömək edər: Quran deyir:

كُلًّا نُمِدُّ هَٰؤُلَاءِ وَهَٰؤُلَاءِ مِنْ عَطَاءِ رَبِّكَ ۚ وَمَا كَانَ عَطَاءُ رَبِّكَ مَحْظُورًا

***«Onların və bunların hər birinə Rəbbinin nemətindən verərik. Rəbbinin neməti (istər dünyada, istərsə də axirətdə heç kəsə) qadağan deyildir».***[1]

Biz, həm ləzzətlərə qapılıb dünyapərəst onlara həm də Allah və həqiqət aşiqlərinə, insan kəmaltına doğru gedənlərə kömək edərik. Dünyapərəstlərə yardım göstərmək onların dünyada boğulmasına və Allahdan qafil olmasına kömək etmək şəklində, mömin və haqpərəstlərə kömək etmək, isə onların bəsirət və mənəviyyətlərini artırmaq imamlarını küçləndirmək, mənəvi rütbə və axirət kəmalatlarını artırmaq üçün daha çox saleh əməl etməyə sövq etdirmək şəklində olur.

Deməк Allahın, bəndələrə ruzi verməsi və onun azaldıb çoxaltması müəyyən qayda-qanun və sünnə üzrədir ki, onların bəzilərinə işarə etdik, bəziləri isə bizə məlum deyildir. İxtisarı budur ki, Allah, hər kəsə öz məsləhət və hikmətinin tələbləri qədər ruzi verir, bəzilərin xeyri ruzinin çoxalmasında, bəzilərinki isə azalmasındadır.

Eyni halda Qurani-Kərimdə ruzinin azalmasının müəyyən səbəblər və himəti bəyan olunmuşdur. Bunlardan biri nankorluqdur. Qurani-Kərim «Nəhl» surəsinin 112-ci ayəsində deyilir:

وَضَرَبَ اللَّهُ مَثَلًا قَرْيَةً كَانَتْ آمِنَةً مُطْمَئِنَّةً يَأْتِيهَا رِزْقُهَا رَغَدًا مِنْ كُلِّ مَكَانٍ
فَكَفَرَتْ بِأَنْعُمِ اللَّهِ فَأَذَاقَهَا اللَّهُ لِبَاسَ الْجُوعِ وَالْخَوْفِ بِمَا كَانُوا يَصْنَعُونَ

***«Allah bir şəhəri (Məkkəni) misal gətirir. O şəhər əmin-amanlıq və arxayınlıq içində idi. Lakin (əhalisi) Allahın nemətini inkar etdi, Allah da həmin şəhərə (sakinlərinin) etdikləri əməllərə görə (yeddi il) aclıq və qorxu bəlası daddırdı».***

---

[1] «İsra» sürəsi, ayə 20.

Bu ayədə Allah hasıllı bir şəhər əhalisini misal gətirir ki, onlar firavan yaşayırdılar, bundan əlavə ayrı yerlərdən də onlara doğru nemət seli axırdı. Onlar son dərəcə bolluq və arxayınlıq içində yaşayırdılar. Bir zaman oldu ki, Allahın nemətlərinə nankorluq edib yanlış istiqamətə yönəldir, israf edib nemətləri korladılar, bir sözlə desək Allahın nemətləri qarşısındakı vəzifələrini yerinə yetirmədilər, buna görə onlara açmaq və əmin-amansızlıq paltarına geyindirildilər və yoxsulluğun və yazıqlığın açı tamını daddılar. Bu, onların etdikləri pis əməllərin cəzası idi.

Bu bəzən də imtahan üçün azalır. Bir nəfər həm möminləri. Həm də Allahın ehkamlarına əməl edir, həm də nankorluq etmir, lakin təkamülə çatmaq üçün sınaqdan keçməlidir. Həzrət Əyyib (əla nəbiyyina və alihi və əleyhissəlam) yüksək şəni olan böyük peyğəmbərdən biridir. Allah onun rütbəsini çoxaltmaq üçün ağır imtahanlarla sınadı və maddi nemətləri ondan aldı. Lakin bu layiq bəndə bütün çətinliklərə dözüb şikayət etmədi və elə bir mərtəbəyə çatdı ki, Allah-Təala çox az peyğəmbərə dediyi tərifi onun şəninə dedi:

إِنَّا وَجَدْنَاهُ صَابِرًا ۚ نِعْمَ الْعَبْدُ

***«Biz onu (müsibətlərə) səbr edən gördük. Nə gözəl bəndə!»***[1]

Ruzinin azalma səbəblərindən biri də budur ki, camaat yoxsullara nisbət vəzifələrini bilsinlər. Quran bu haqda buyurur:

فَأَمَّا الْإِنْسَانُ إِذَا مَا ابْتَلَاهُ رَبُّهُ فَأَكْرَمَهُ وَنَعَّمَهُ فَيَقُولُ رَبِّي أَكْرَمَنِ وَأَمَّا إِذَا مَا ابْتَلَاهُ فَقَدَرَ عَلَيْهِ رِزْقَهُ فَيَقُولُ رَبِّي أَهَانَنِ

[1] «Sad» sürəsi, ayə 44.

***«İnsana gəldikdə, nə zaman Rəbbin onu imtahana çəkib ehtiram etsə, ona bir nemət versə, o: «Rəbbim mənə ehtiram göstərdi!» –deyər. Amma nə zaman (Rəbbin) onu imtahana çəkib ruzisini əskiltsə: «Rəbbim məni alçaltdı (mənə xor baxdı)!» – söyləyər».***[1]

Bu ayədən aydıncasına məlum olur ki, hər iki halda öncə ibtila (düçar etmə) sözünə təkid olunur ki, bəzən ruzinin çoxalması bəzən isə azalması mənasındadır. Yuxarıdakı ayədə deyili: Əgər Allah insana nemət və izzət mərhəmət edib, cəmiyyət içində başını ucaltmasa; «Mən Allahın əziziyəm, mənə bollu nemət vermişdir!» - deyəcək. Ruzisi azalsa isə, «Allah mənə xar baxır!» - deyəcək. Halbuki belə deyil, çünki həm ruzinin çoxalması həm də azalması imtahandır. Ruzinin azalması və kiçilməyə gəldikdə is özümüz gördüyümüz işlərin cəzasıdır:

كَلَّا ۖ بَلْ لَا تُكْرِمُونَ الْيَتِيمَ وَلَا تَحَاضُّونَ عَلَىٰ طَعَامِ الْمِسْكِينِ وَتَأْكُلُونَ التُّرَاثَ أَكْلًا لَمًّا وَتُحِبُّونَ الْمَالَ حُبًّا جَمًّا

***«Xeyr! (Belə deməyin). Doğrusu, siz özünüz yetimə hörmət etmirsiniz (yetimin haqqını vermirsiniz). Bir-birinizi yoxsulu yedirtməyə rəğbətləndirmirsiniz. Mirası (halal-haramına) varmadan yeyirsiniz (qadınların, uşaqların paylarını vermirsiniz). Mal-dövləti isə lap çox sevirsiniz».***[2]

Yetimlərə hörmət etmədiniz, onlarla öz uşaqlarınızın arasında ayrıseçkiliyə yol verdiniz, yoxsulları bir-birinizə tapşırmadınız («vəla tütimunəl-miskiynə», demir. Yalnız deyir ki, qadir olan yoxsullara yetişməlidir. Bundan da əhəmiyyətlisi budur ki, onları bir-birinizə tapşırın ki, əməkdaşlı və həmrəylik

---

[1] «Fəcr» sürəsi, ayə 15-16.
[2] «Fəcr» sürəsi, ayə 17-20.

nəticəsində sosial yoxsulluğa çıxış rolu tapılsın), Siz atalarınız və qohumlarınızdan sizə çatan mirası son dərəcə etirasla uddunuz, o mirasın bir hissəsini belə yoxsullara, qonşulara və qohumlara vermədiniz. Bunlar səbəb oldu k, imtahan formanız dəyişsin və ruzunuz azalsın.

## QEYRİ-TƏBİİ YOLLARLA RUZİ VERMƏK

Burada bir incəliyə də işarə etməliyik ki: Allah, adi və təbii yol və vasilələrlə ruzi verməkdən əlavə qeyri-təbii yollarla və müstəsna şəkildə öz məxluqatına ruzi verməyə qadirdir. Necə ki, Həzrət Məryəmə verirdi. Quranda bu haqda «Ali-İmran» sürəsinin 37-ci ayəsində deyir:

فَتَقَبَّلَهَا رَبُّهَا بِقَبُولٍ حَسَنٍ وَأَنْبَتَهَا نَبَاتًا حَسَنًا وَكَفَّلَهَا زَكَرِيَّا ۖ كُلَّمَا دَخَلَ عَلَيْهَا زَكَرِيَّا الْمِحْرَابَ وَجَدَ عِنْدَهَا رِزْقًا ۖ قَالَ يَا مَرْيَمُ أَنَّىٰ لَكِ هَٰذَا ۖ قَالَتْ هُوَ مِنْ عِنْدِ اللَّهِ ۖ إِنَّ اللَّهَ يَرْزُقُ مَنْ يَشَاءُ بِغَيْرِ حِسَابٍ

***«Belə olduqda, Rəbbi (Məryəmi) yaxşı qəbul etdi, onu gözəl bir fidan kimi böyütdü və Zəkəriyyaya tapşırdı. Zəkəriyya hər dəfə (Məryəmin) ibadət etdiyi mehraba girdikdə, onun yanında bir ruzi olduğunu görərdi. (Zəkəriyya:) «Ya Məryəm, bunlar sənin üçün haradandır?» - dedikdə, o: «Allah tərəfindəndir!» - deyə cavab verərdi. Həqiqətən, Allah istədiyi şəxsə hədsiz ruzi verər!»***

İslam ümmətinin salehləri və alimləri arasında da belə kəramətə malik olan şəxslər çoxdur. Bu haqdakı hekayələr toplanılsa böyük bir ensiklopediya lazım gələcəkdir. Lakin Allahın hikməti tələb edir ki, insan daima sınansın, təkamül yolunu öz ixtiyarı ilə seçsin.

Əgər adam hər gün səhərçağılar göydən gəlmiş hazır xörəkləri görsəydi, onda ehtiyac hissi keçirməz və tam möhtac

bir mövcud olduğunu başa düşməzdi. Əgər insan ruzi toplamaq üçün çalışmaq məcburiyyətində qalsaydı, bu dərəcədə inkişaf etmiş elm və texnika olmayacaq və Allahın yaradılışdakı hikməti və sirləri öyrənilməyəcəkdi. Və məlumdur ki, insan nə maddi tərəqqiyə nə mənəvi təkamül çatacaqdır. Əgər hamıya zəhmətsiz ruzi yetişsəydi, işləmək və səy etmək lazım gəlməsəydi, kəsbdə halal-haram məsələsi olmayacaq və kimin başqalarının malına təcavüz edib-etməməsini bilinməyəcəkdi. Belə bir vəziyyətdə alverdə düz ya əyri olması bəllənərdimi? Allahın nemətlərindən yararlansa başqalarının hüququ ödərmi? Yoxsullar, qohumlara, müstəhəqlərə yardım edər yoxsa etməz? Və bir çox suallar vardır ki, məhz sınaqla cavabı aydınlaşar bilər. Deməkfəaliyyəti və sınaqda hikmətlər var. Sınaq olmasaydı bu kəmalatın yolları insan üzünə bağlı qalacaqdır.

Bu hissənin, ideoloji sistemdə tövhid hissəsinin sonunda bunu izah etməliyik ki, əlbəttə bu haqda böyük ilahiyyatçı filosoflar bütün təfərrüatı ilə bəhs etmiş və kitablar yazmışlar. Biz isə sadə bir mövzunu bəyan etməklə kifayətlənirik.

Biz, Allahı tanıdıqdan sonra inanırıq ki, əvvəla: Allah hər şeyi bilir, onun sonsuz elmi keçmiş, indiki və gələcək hadisələrin hamısını əhatə edir. İkincisi: Allah hər mövcudu istədiyi kimi yarada bilər. Üçüncü: Allah xeyir və kəmal sevəndir, xeyir və kəmal onun varlığının şüası, istəyi və sevgilisi olduğu üçün bəndələrini xeyir və kəmal sahibi yaradır. Dördüncüsü: Allah, yaratdığının paxıllığını çəkmir. Başqa sözlə desək Allahın elə qüdrət, xeyir sahibi olduğuna və paxıl olmadığına iman gətiririk. Bu etiqaddan belə bir nəticə çıxır ki, dünya xeyir, kəmil və məsləhət əsasında və ən yaxşı şəkildə idarə olunur. Quran da bu mövzuya açıqca işarə edir:

الَّذِي أَحْسَنَ كُلَّ شَيْءٍ خَلَقَهُ

***«Allah hər şeyi gözəl yaratdı».***[1]

Ayrı yerdə deyir:

صُنْعَ اللَّهِ الَّذِي أَتْقَنَ كُلَّ شَيْءٍ ۚ إِنَّهُ خَبِيرٌ بِمَا تَفْعَلُونَ

***«Bu, hər şeyi bacarıqla (yerli-yerində) edən Allahın gördüyü işdir. Həqiqətən, O, etdiyiniz (bütün) əməllərdən xəbərdardır!»***[2]

Allahın sənəti belədir, hər şeyi möhkəm, yerli-yerində, ən yaxşı şəkildə və mükəmməl yaratmışdır. Hökumətinin bütün tələbləri mövcudatlara vermiş, paxıllıq etməmişdir, əsirgəməmişdir.

Bu ümumi prinsip barəsində yəni dünya və insanın tədbirinin ən gözəl şəkildə olduğu halda belə bir sual qarşıya çıxa bilər ki, hər müəyyən bir işin hikməti nədir? Bu sual olduğuna yersiz baxmayaraq insan bütün hikmət və sirləri öyrənməyə qadir deyildir, çünki:

وَمَا أُوتِيتُمْ مِنَ الْعِلْمِ إِلَّا قَلِيلًا

***«Sizə (bu barədə) yalnız cüzi bir bilik verilmişdi»***[3], lakin eyni halda Allah Quranda ümumiyyətlə bir sıra normalar vermişdi ki, onlara əsasən və vəhyin göstərişləri ilə hadisələri təhvil edir və öz qabiliyyətimiz qədər onların hikmətini kəşf edə bilirik. Mömin şəxs isə həm əqli dəlil həm də Quran ayələrinə əsasən əmin olmalıdır ki, hər yerdə və hər şəkildə bir hadisə baş versə, yaradılış hikmətinin səbəbləri əsasındadır, yoxsa hikmətə zidd olacaqdır.

---

[1] «Səcdə» sürəsi, ayə 7.
[2] «Nəml» sürəsi, ayə 88.
[3] «İsra» sürəsi, ayə 85.

## ÇƏTİNLİKLƏRƏ DÖZMƏYİN HİKMƏTİ

Çətinlik və müsibətlərə səbr etməyin ən mühüm hikmətlərindən biri qabiliyyətlərin çiçəklənməsi və gizli bacarıqlarını qüvvəyə minməsi və bununla da layiq kəmalata çatmaqdır. Cismin və cismi qüdrətin inkişafı ağır məşqlərdən asılı olduğu kimi ruhi kəmalatın inkişafı da çətinliklərə düşməklə əldə edilir və bu yolla insanın Allah əta edən qabiliyyətləri üzə çıxır. Bu kimi ruhi məşğələlərə zəmin yaratmaq Quran dilində «SINAQ» adlandırılmışdır. Quranın işarə etdiyi «İbtila», «İmtahan» və «Fitnə» sözləri «ilahi tədbir» və «təqdir» nəticəsində insanın qarşısına çıxan hadisələr göstərir.

Əslində Quran dilində imtahan adlanan şey həm də bir növ tərbiyədir. Biz isə bu baxımdan dünyanı sınaq meydanından əlavə tərbiyə ocağı da adlandırmaq bilərik, çünki insanın qabiliyyətləri dünyada yetişir və bacarıq potensialları qüvvəyə minir. Rəvayətlərdə deyilir ki, Allah-Təala mömini çətinliklərlə tərbiyə edir, necə ki, ana öz uşağını süd və qida ilə böyüdür. Lakin bununla yanaşı Qurani-Kərim bu sınaqlarda olan bir incəliyə də işarə etmişdir: Hər kim sınaqdan keçib, düzgün tərbiyə və yaxşı qiymət alarsa, mənəvi inkişaf və müəyyən məlumat dərəcəsinə çatacağından əlavə başqalarına meyar olaraq insanların rəhbərliyinə yetişə bilər. Deməк bu sınaqların çatacağı hədəflərdən biri insanlar arasında başqalarına meyar olan fərdlər meydana çıxsın.

Bəndələrin çətinliklərlə sınamağından güdülən ilahi məqsəd üç şəkildə təsəvvür edilə bilər: Biri bu ki, cəmiyyət içindən nümunə bir insan inkişaf edərək başqalarını meyar götürəcəyi dərəcəyə yüksəlsin. Bu inkişafın müxtəlif

mərtəbələri vardır. Ən yüksək mərtəbəsi peyğəmbərlər və məsum ilahi şəxsiyyətlər Allah-Təalanın Həzrət İbrahim mərhəmət etdiyi rütbə. Dəfələrlə bu ayədə, eşidibsiniz

وَإِذِ ابْتَلَىٰ إِبْرَاهِيمَ رَبُّهُ بِكَلِمَاتٍ فَأَتَمَّهُنَّ ۖ قَالَ إِنِّي جَاعِلُكَ لِلنَّاسِ إِمَامًا

***«(Ya Rəsulum!) Yadına sal ki, İbrahimi öz Rəbbi bir neçə sözlə (bəzi əmrləri ilə) imtahana çəkdiyi zaman o, (Allahın əmrlərini) tamamilə yerinə yetirdi. (Belə olduqda Allah ona:) «Səni insanlara imam (dini rəhbər, başçı) təyin edəcəyəm», - dedi».***[1]

Allah peyğəmbər risalət və xəlillik rütbərlərindən əlavə (ki, Allah-Təala bunların hamısını Həzrət İbrahim mərhəmət etmişdi) daha yüksək və rütbə vermək istəyir, Onu sınayır. Buna görə əvvəl nəmrudçular tərəfindən oda atılır. Bu imtahanın bir mərhələsidir. Bu imtahandan baş ucalıqla keçdikdən sonra imamlıq rütbəsinə çatmağa layiq olur.

Rəvayətlərdə deyilir ki, Həzrət İbrahim oda atdıqdan sonra Həzrət Cəbrayıl o Həzrətin qulluğuna gəlib, hacətin-(mətləbin) varmı? - deyə soruşdu. İbrahim cavab verdi: Varım, tamamilə möhtacam, yaranmış hər bir mövcud möhtacdır, lakin sənə yox. Həzrətin birinci imtahanı bu idi ki, çətin şəraitdə möhtac əlini hətta Cəbrailə uzadır yoxsa uzatmır?

Sınağın ayrı bir mərhələsində Həzrət İbrahim əmr olunur ki, ailəsini və ürəyinin bəndi olan oğlu otsuz-susuz bir yerə, Hicaz səhrasına aparıb Məkkədə məskunlaşsın. Həzrət Allahın əmrinə itaət edib bu diyara köçür və Allahın razılığı naminə hicran dərdinə dözür.

Üçüncü imtahan, imtahanların ən çətini Həzrətin qocalıq çağına təsadüf etdi (Onun qocalığına baxmayaraq Allah-Təala

---

[1] «Bəqərə» sürəsi, ayə 124.

ona İsmail adlı bir oğlu verdi və təbiidir ki, Həzrət oğluna baxıb, onun ünsiyyətindən həzz alırdı. Ona əmr olundu ki, artıq böyüyüb və layiq bir igid olan oğlunun başını kəssin. Çox çətin və ağır bir sınaq idi. Buna baxmayaraq Həzrət neyniyim-necələyim etmədən Allahın əmrini oğluna bəyan etdi. Həzrət İsmayil; əziz atam, - dedi, Allahın əmrini yerinə yetirir, mən də onun yardımı ilə dözərəm.

يَا أَبَتِ افْعَلْ مَا تُؤْمَرُ ۖ سَتَجِدُنِي إِنْ شَاءَ اللَّهُ مِنَ الصَّابِرِينَ

***«Atacan! Sənə nə əmr olunursa, onu da et. İnşallah, mənim səbrlilərdən olduğumu görəcəksən!»***[1]

Bütün çətinliklərə dözən, bütün varını Allah yolunda verən bu kimi şəxs başqalarına imam və meyar olmalıdır. Eləcə də peyğəmbərlərdən bəziləri bir sıra çətinliklərə dözdükdən sonra imamlığa (ümumiyyətlə imam, rəhbər deməkdir, burada isə dini rəhbər mənasını ifadə edir - *tərcüməçi*) çatdılar. Aşağıdakı ayədə ixtisarla bu mövzuya işarə olunmuşdur:

وَجَعَلْنَا مِنْهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا لَمَّا صَبَرُوا ۖ وَكَانُوا بِآيَاتِنَا يُوقِنُونَ

***«Səbr etdikləri və ayələrimizə ürəkdən inandıqları üçün Biz onlardan (İsrail oğullarından) əmrimizlə (insanlara) haqq yolu göstərən rəhbərlər təyin etmişdik».***[2]

Bəzən də cəmiyyətin bir təbəqəsi başqa təbəqələrə ülgü olur. Əgər bir dəstə saleh və pəhrizkar olsalar, çətinliklərə can-dil ilə dözsələr, rahatlığa, dincliyə və rifaha göz yumalar, öz güclərini Allah bəndələrinin qulluğunda işlətsələr başqalara rəhbər, örnək və ülgü olmaq rütbəsini qazanırlar.

---

[1] «Saffat» sürəsi, ayə 102.
[2] «Səcdə» sürəsi, ayə 24.

Bunlardan da üstünü bir ümmətin başqa ümmətlərə meyar olmasıdır. Bir ümmət bütövlükdə sınaqdan keçsə digər ümmətlərə ülgü olur. Allahın iradəsilə hər ümmətdən bir ya neçə fərd yaxud bir təbəqə başqaların rəhbərliyini üzərinə götürdüyü kimi insan cəmiyyətləri arasında bir cəmiyyət nümunə olmaq səlahiyyətini qazanmışdır. Hazırkı əsrdə Allahın iradəsi belədir ki, bizim müsəlman ümmətimiz qiyam etsin, bir-biri sınaqlardan keçsin, 15 Xordad, 22 Bəhmən, müharibə, iqtisadi blokada və digər sarsıdıcı problemlər və müsibətlərdən başı uca çıxsın və misilsiz müqavimət və fədakarlıqlar göstərməklə digər ümmət və millətlərə ülgü və örnək və rəhbər olmaq səlahiyyətini qazansın.[1]

Qarşıya çıxan çətinliklərin ayrı bir hikməti də insanların diqqətini buna cəlb etməkdir ki, dünya həyatı ideal həyat deyil və insanın fitri istəyi, əbədilik səadət və kəmal bu dünyada mümkün olmaz. İnsan, xüsusilə ənbiya və övliyalarının tərbiyəsindən qabaq, həyatın ilkin mərhələlərindən mərifətin zəifliyi nəticəsində dünya xoşluqlarına və maddi nemətlərə göz tikir. Birinci dərk etdiyi və tanıdığı başqa şey deyil dünya ləzətləridir. Elə yaşayış məhz xoşluq və rahatlıq olsaydı insanın azmasına səbəb olardı. Təsəvvür edərdi ki, ona qalan bu dünyanın həyatıdır. Elə buna görədir ki, Allahın hikməti əsasında bu dünyada çətinliklər olmalıdır ki, ona belə xəbərdarlıq etsin: Sənin sevdiyin və fitrətinin tələbi yəni, əbədi səadət bu dünyada mümkün olmaz, bura həmişəlik sevilməyə layiq deyildir. Demək dünyadakı problemlər və müsibətlər insanın ibrət götürməsi üçün, ona aşiq olmaması, onun cah-

---

[1] İslam ölkəmizin kiçik şəhərlərindən birinə iki yüz raket atılır və şəhər xarabaya dönür. Buna baxmayaraq şəhər əhalisi deyirlər ki: Kaş başqa şəhərə atılan raket və bombalar da bizim şəhərimizə dəyərdi ki, onların əhalisi salim qalaydılar. Bu fədakarlıq tarixdə tapmaq olarmı?

cəlalına və ləzzətlərinə uymaması üçün həm də imtahan vəsiləsidir. Bura bir körpüdür, ondan keçməli və əbədi səadətə doğru yollanmalıdır.

Qurani-Kərimin işarə etdiyi ruzi azlığının ayrı bir hikməti də budur ki, insan xoşluqda və rahatlıqda yaşasa və istədiyi hazır olsa özünün zəif və möhtac olduğunu unudar və ruhunda üsyan toxumu cücərər, xudbinliyə və xudpətəstliyə doğru yönələr və tədriclə Allahı unudar:

كَلَّا إِنَّ الْإِنْسَانَ لَيَطْغَىٰ أَنْ رَآهُ اسْتَغْنَىٰ

***«Xeyr, insan azğınlıq edər, Özünün dövlətli olduğunu gördüyü üçün!»***[1]

Buna görə Allah öz hokməti-baliğəsinə əsasən müxtəlif yollar və şəraitlərlə insanın ehtiyacın başa salsın və tamamilə möhtac bir mövcud olduqlarını göstərsək ki, bəlkə bununla qəlbləri Allaha yönəldi. Allah bu ümumi qanunun Qurani-Kərimdə belə bəyan edir:

وَلَقَدْ أَرْسَلْنَا إِلَىٰ أُمَمٍ مِنْ قَبْلِكَ فَأَخَذْنَاهُمْ بِالْبَأْسَاءِ وَالضَّرَّاءِ لَعَلَّهُمْ يَتَضَرَّعُونَ

***«Səndən əvvəl də ümmətləri (peyğəmbərləri yalançı hesab etdikləri üçün) müsibət və fəlakətə düçar etdik ki, (Allaha) yalvarsınlar».***[2]

«Əraf» surəsinin 94-cü ayəsində isə daha açıq və daha kəskinliklə deyir:

وَمَا أَرْسَلْنَا فِي قَرْيَةٍ مِنْ نَبِيٍّ إِلَّا أَخَذْنَا أَهْلَهَا بِالْبَأْسَاءِ وَالضَّرَّاءِ لَعَلَّهُمْ يَضَّرَّعُونَ

---

[1] «Ələq» sürəsi, ayə 6-7.
[2] «Ənam» sürəsi, ayə 42.

***«Biz hansı bir məmləkətə peyğəmbər göndərdiksə, onun əhalisini müsibətə və bəlaya saldıq ki, bəlkə, Allaha yalvarıb-yaxarsınlar!».***

Deməkmüsibət və çətinliklərin hikməti budur ki, insan yalvarmaq, məğlubiyyət və ehtiyac hissi keçirsin və Allahın ona verdiyi nemətlərdən məğrur olub təsəvvür etməsin ki, bu nemətlər onun özününküdür istədiyi vaxt və öz zəhməti ilə onu əldə edə bilər. Bilsin ki, heç də belə deyil, Allahın tədbiri bu tədbirlərdən üstündür və bəzən nə qədər çalışsan da, yenə çətinliyə düşə bilərsən.

Bu hikmətlərdən biri də nemətlərin əhəmiyyətini dərk etməkdir ona görə ki, əgər bütün nemətlər hazır olsa, insanın bütün ehtiyacları təmin olsa, qafil olar və onların əhəmiyyətini dərk etməz. Sadə bir misalla mövzunu aydınlaşdırırıq: Hamımız havadan istifadə edir və hər bir canlı mövcud üçün suyun və havanın həyati bir amil olduğunu bilirik, əgər oksigen çatmasa neçə dəqiqədə canımızı itirəcəyik. İndi görərk ki, ömrümüzdə neçə dəfə, «İlahi! Havanı yaratdığın üçün sənə şükr edirik» - demişik? Çox az adam havanın böyük bir nemət olduğuna fikir vermişdir, çünki hava həmişə ixtiyarımızda olub. Camaat, nemətinin qədrini bilsin, şükr etsin, bununla təkamül tapsın, əbədi nemətlərdən istifadə etməyə zəmin yaratsın, - deyə Allah, bəzən təkvini [1] və təşrii [2] şəkildə nemətlərdə azalıb-çoxalma yaradır ki, camaatın yoxsulluq çağlarında nemətin qədrini bilsin. Bəzən bilməyən adamların zehninə belə bir sual gələ bilər ki: Nə olardı ki, Allah insanların yaşayışını bir tədbir təkəydi və dünyada heç bir yoxsul və müstəzəf tapılmayaydı və camaat zəhmət çəkmədən eyş-işrətlə

---

[1] Təkvini yəni yoxsulluq, çətinlik və müsibət kimi.
[2] Təşrii isə oruc tutmaq kimi.

məşğul olaydılar? Deməliyik ki, bu da Allahın hikmətlərindən biridir ki, camaat bununla müxtəlif nemətlərin əhəmiyyətini bilsinlər. Bir hədisdə deyilir ki, Cəbrail Peyğəmbəri-Əkrəmin (s) qulluğuna yetişib Allahın salamını yetirdikdən sonra dedi: «Ey Allahın peyğəmbəri, Allah-Təala deyir ki, istəsən dünyanın bütün xəzinələrini sənin ixtiyarında qoyar. Həzrət buyurdu: Mən Allahdan bunu istəyirəm, bir gün məni doydursun ki, onun nemətlərinin şükrünü yerinə yetirim, bir gün isə ac saxlasın ki, yoxsulluğumu və Allaha möhtac olduğumu yaxşı dərk edim».[1] Bu da böyük bir tövhid və hikmət dərəsidir ki, insanın çətinliklərlə qarşılaşmalı olduğunu göstərir.

Çox mühüm hikmətlərdən biri də budur ki, insan çətinliklər və sıxıntılara dözməklə qeybi yardımlardan yararlanma ləyaqəti qazanır. Biz təbiətdə bir sıra səbəb və vəsilələri tanıyırıq. Məsələn bunu bilirik ki, bədən hansı şəraitdə xorək yeməyə və qidanı cəzb etməyə hazırdır. Əgər insan çox olduğu halda xörək yesə, bunun nəinki ona xeyri olmayacaq üstəlik müxtəlif xəstəliklərə düçar edəcək, çünki bədən cəzb etməyə hazır deyil. Qarın boşaldıqda və insan ac olduqda isə yediyi xörəyi bədən cəzb edir, ondan istifadə edir. İnsanın ruhu da belədir, ruhi ehtiyac və ruhi boşluq yaranıb onun əlaqəsini addi vəsilələrdən qırmayınca qeybi yardım və metafizika mərhələlərindən yaralanma qabiliyyətinə malik olmaz. Nə qədər insan təbii və maddi vəsilələrlə əlaqəsini qırmayıbsa Allahın qeybi mərhəmətinə şamil olmaz. Bu çox əhəmiyyətli bir mövzudur və bir çox ayələrdə ona təkid olunmuşdur. Gündəlik həyatımızda da müxtəlif hadisələri (istər fərdi həyat olsun istər ictimai) təhlil etmək və ilahi hikmətə

---

[1] «Cameüs-səadət» cild 2, səh. 59.

inamımızı möhkəmləndirmək üçün ona diqqət yetirməyimiz lazımdır. Sədri-islam döyüşlərində bəzən müsəlmanlar imanın və mərifətin zəifliyi nəticəsində diqqətlər tamamilə zahiri vasilələrə yönəlir və deyirdilər: Allaha çox şükür ki, hər şeyimiz var və artıq məğlub olmayacağıq. Lakin büt adı vəsilə və şəraitin mövcud olmasına rəğmən məğlub olurdular və ilahi yardım onlara yetişmirdi.

وَيَوْمَ حُنَيْنٍ ۙ إِذْ أَعْجَبَتْكُمْ كَثْرَتُكُمْ فَلَمْ تُغْنِ عَنْكُمْ شَيْئًا

***«Hüneyn (vuruşu) günündə kömək etdi. O gün çox olmağınız xoşunuza gəlsə də, bir faydası olmadı».***[1]

Bu döyüşlərdən biri Hüneyn müharibəsi idi. Başlanğıcda müsəlmanlar çox olduqlarını və hərbi təchizatlarını nəzərə alaraq; «Biz qətən müharibədə qələbə çalacağıq» - dedilər. Lakin diqqətləri zahiri vasilələrə olduğu və onlara əmin olduqlarından məğlub oldular. Bədr döyüşündə isə zəif olduqlarını duyub dua etdiklərinə əsasən müharibəyə hazırlıq görmədiklərinə əsasən müharibəyə hazırlıq görmədiklərinə baxmayaraq Allah onlara yardım göstərdi (və qələbə çaldılar).

وَلَقَدْ نَصَرَكُمُ اللَّهُ بِبَدْرٍ وَأَنْتُمْ أَذِلَّةٌ

***«Həqiqətən, siz Bədrdə (düşmənə nisbətən az və) zəif olduğunuz halda, Allah sizə yardım etdi».***[2]

Demək bu, ümumi bir qaydadır ki, nə qədər mömin insanlar təbii vasilələrə diqqət yetirirlər Allahın mərhəmətləri onlara şamil olmaz. Məhz Allah üçün hər şeydən əlaqəni qırdıqda, maddi amillərdən əl çəkdikdə Allahın mərhəməti

---

[1] «Tövbə» surəsi, ayə 25.
[2] «Ali-İmran» surəsi, ayə 123.

şamil olar. Çətinliklər və müsibətlər Allahdan başqası ilə əlaqələrimizi qırmağa ən yaxşı zəmin yaradır.

## İLAHİ QƏZA-QƏDƏR

Xalqın müəyyən qədər başa düşdüyü ümumi ilahi tədbirlərdən əlavə cüzi tədbirlər də Allahdan müstəqil deyildir. Qurani-Kərimdə deyilir ki, dünyadakı bütün hadisələr o cümlədən ölüm Allahın izni ilə baş verir:

وَمَا كَانَ لِنَفْسٍ أَنْ تَمُوتَ إِلَّا بِإِذْنِ اللَّهِ كِتَابًا مُؤَجَّلًا

***«Allahın izni olmayınca heç kəsə ölüm yoxdur. O, (lövhi-məhfuzda) vaxtı müəyyən edilmiş bir yazıdır»***[1]

Hər insanın Allah-Təalanın təyin etdiyi müqəddəratı vardır. Allahın hikmətli təqdiri tələb etdikdə onun ölümü yetişir. Başqa sözlə desək heç bir insan, Allahın izni olmadan və Allahın təyin etdiyi müəyyən vaxtı qurtarmadan ölməz, istər təbii ölüm olsun, istər qeyri-təbii, istər haq yolunda olsun istər batil. Bu isə insanın həyatında böyük quruculuq rolu oynayır. Əlbəttə bu, elə bir şəraitdə olur ki, islam maarifləri düzgün öyrədilsin. Bu sahədə yanıldan fikirlər söylənilsə isə ən yaxşı və ən üstün maarifdən yanlış və istənilməz nəticələr çıxar. Cinn və ins şeytanları həmişə bu işlə məşğuldurlar.

Yanlış təfsir edilən məsələlərdən biri təqdir və insanın müqəddəratı məsələsidir. Bəziləri təsəvvür edirlər ki, Allah-Təalanın hər insanın müqəddəratını qabaqcadan təyin etməsi onun öz müqəddəratı qarşısındakı ixtiyarını alır. Və insanın qarşısına çıxan hadisələr onun ixtiyar və iradəsindən kənardır, özü heç bir rol oynamır. (Bu, cəbri təfəkkürdü ki, bəzi islam

[1] «Ali-İmran» sürəsi, ayə 145.

təriqətlərində yayılmışdı və onun çöküntüləri az-çox indi də bir çox müsəlman ölkələrdə və müsəlmanlar arasında qalır). Halbuki təqdir insanın ixtiyari, məsuliyyət və vəzifəsini almaq deyildir. (İslam fəlsəfəsi) varlıq sistemində bəhs edərkən iki mövzu haqda bəhs edir: Biri dünyanın həqiqi cərəyanları və təkvinidir ki, dünyada nə olub, nə olur və nə olacaq məsələsidir. Başqa bəhs təşrii və insanların vəzifəsi haqqındadır. Onlar nə etməlidirlər və məsuliyyətləri nədir, onların ixtiyarı davranışları onların dünya və axirət həyatına nə kimi təsir buraxacaqdır?

## İLAHİ QƏZA VƏ QƏDƏRİN DÜZGÜN MƏNASI

Təsüflüdür ki, bu iki mövzunun bir-biri ilə qatışdırılması istənilməz nəticələr vermişdir. Bu nəticələr bəzi şəxslərdə nəinki müsbət və qurucu rol oynamamışdır üstəlik mənfi təsirlərdə buraxmışdır. Burada fəlsəfə bəndlərə girişib, fənni şübhələri aradan qaldırmağa, yaxud da tarix baxımından məsələni araşdırmağa (ki, bu yanlış fikirlər haçan və hansı amillərin vəsiləsilə yayılmış və nə kimi nəticələr vermişdir) fürsət yoxdur. Lakin ixtisarla deyə bilərik ki, islam ruhu və islam hədəflərini qəribliyə salan qəsbkar hökumətlər dövründə bu kimi bir sıra yanlış əqidələr o cümlədən cəbrə təmayül siyasi məqsədlər üçün yayıldı. Bəni-Üməyyə hökumətləri xalqı özlərinə tabe olmağa vadar etmə üçün müəyyən adamları xalq arasında bu fikirləri yaymağa təşviq etdilər ki, baş verən nə varsa Allahın istədiyi olduğu üçün hamı qəbul etməli və onun qarşısında müqavimət göstərməməlidir. Bu barədə çoxlu nümunələr vardır. İbn Abbas deyir: İkinçi xəlifə ilə birlikdə müharibəyə gedirdik. Xəlifə məni çağırtdırıb dedi: Bilmirsən niyə əmioğlu müharibədə iştirak etmədi. (Məqsədi Əli ibn Əbu

Talib idi.) Bilmirəm - dedim. Dedi o Mədinədə qaldı ki, məndən sonra xəlifə olmağına zəmin yaratsın. Dedim: Əmiloğlunun fikrincə bu işə ehtiyac yoxdur, çünki Allahın Peyğəmbəri onu xəlifə təyin etmişdi. İkinci xəlifə dedi: doğrudur, Peyğəmbər (s) bu işi etmək istəyirdi, lakin Allahın istəmədi.[1] Bu sözləri nə cür təfsir etsən də islam maarifi haqqında fikir çatışmazlığını göstərir. Aydındır ki, dünyada baş verən hər nə varsa Allahın təkvini iradəsindən də asılıdır. Allah-Təala öz təkvini iradəsilə bütün hadisələrə elə nəzarət edir ki, onun təkvini iradəsi olmadan heç hadisə baş vermir. Seyyiduş-şühədanın qiyamı və şəhid edilməsi Allahın təkvini iradəsi əsasındadır, lakin bu, o demək deyildir ki, o Həzrətin ölüm icazəsi verilmiş və qatillərdən məsuliyyət götürülmüşdür. Eləcə də Peyğəmbəri-Əkrəmin (s) vəfatından sonra isə islam xilafətini Əməvi və Abbasi hökuməti şəklinə salanlar Allahın təkvini iradəsinə müvafiq əməl etmişdilər, lakin onun təşrii iradəsi baxımından, yəni qanunən bu işi görməyə, islam və müsəlmanları öz qəti hüquqlarından məhrum ayə haqları yox idi. Buna görə də bu incəliyə diqqət yetirməliyik ki, insanlar, Allahın təkvini iradəsi əsasında istər fərdi, istərsə də sosial sahələrində baş verən hər şeyin qarşısında məsuldurlar və onun dünya və axirət nəticələri görəcəklər.

Yuxarıda dediklərimiz elmi dairələrdə izlənilməli olan dəqiq bir bəhsdir. Lakin insan, ixtiyar sahibi olması və işlərini öz iradə və ixtiyarı ilə görməsi ilə eyni halda necə Allahın tədbiri altında olur? Sadə bir misal gətiririk. İki nəfəri nəzərə alın ki, səhər çağı evlərindən çıxırlar, biri çörək almaq üçün çörəkciyə gedir, o biri isə avtobusa minib işə getmək istəyir. Bunlar dördyolda bir-birinə rastlaşır və nəsə bir iş görmək

[1] «Şərhi Nəhcül-bəlağə» İnb Əbil Hədid

qərarına gəlirlər, məsələn cəbhəyə getməyə, seldən didərgin düşmənlərə yardım göstərməyə ya başqa bir xeyir iş görməyə ya da Allah eləməsin günah iş görməyə. Məlumdur ki, bu iki nəfər ixtiyar olaraq evdən çıxmış və ixtiyar olaraq bir iş görmək qərarına gəlmişlər. Lakin bu iki nəfərdən biri evdən çıxanda o biri avtobusa minib getmiş olsaydı bir-birinə rastlaşmayacaq və cəbhəyə getmək qərarına gəlməyəkdilər. Bu təqdirin bir nümunəsidir. Göründüyü kimi Allah hadisələri elə nizamlayır ki, hikmətli nəticələr versin, onların kəmala çatmasına səbəb olub səadətə doğru getmələrinə doğru yol açsın.

İkinci nümunə Həzrət Musa (ə) haqqındadır. Bu nümunəni Qurandan nəql edirik. Musa (ə) Fironun qoynunda yetginləşib Qibtilini öldürdükdən sonra bir nəfər ona yol göstərdi ki: «Buradan çıxmalısan, çünki fironçular canına qəsd etmək əzmindədirlər». Musa (ə) onun göstərişini (təklifini) qəbul etdi, Misirdən çıxıb Mədyənə doğru getdi. Çox getdikdən sonra Mədyənin yaxınlığına yetişdi. Yorğun və ac halında bir yerdə əyləşmişdi. Köç, qoyunlarının yanında duran iki nəcib qıza sataşdı. Qalxıb onlara doğru getdi və «Siz niyə qoyunlarınızı suvarmırsınız?» - deyə soruşdu. Dedilər: «Artıq atamız qocalıb, çobanlıq edə bilmir, evdə qalır. Biz özümüz qoyunları buraya gətiririk, ya bir nəfər bizə kömək edib quyudan su çəkməlidir ya getməliyik ki, hamı suvardıqdan sonra biz suvaraq. Musa (ə) irəlilədi, quyudan su cəkib suvardı... Macəranın qalanını hamı bilir. İş o yerə çatır ki, Həzrət Şüeyb qızının birini Musaya verdi, Musa (ə) isə Mədyəndə on il çobanlıq etdi. Müxtəlif hadisələrdən ibarət bir sistemi təşkil edən bu macərada insanlar ixtiyari olaraq və hər biri müəyyən hədəf üçün müəyyən işlər gördülər. Həzrət Musa (ə) Həzrət Şüeybin (ə) qulluğuna getmək məqsədi ilə Misirdən çıxmamışdı. O, fironçuların

şərrindən qurtarmaq istəyirdi. Bəlkə də Şüeyb adlı bir adamı, onun bir qızı olduğunu, o şəhərdə peyğəmbər olduğunu bilmirdi. Lakin Allah müqəddər etmişdi ki, bir tərəfdən Musa (ə) artıq qocalıb gözü görməyən Həzrət Şüheyb (ə) peyğəmbərin qulluğuna yetişib ona işləsin digər tərəfdən isə Şüheybin (ə) qızı Musa (ə) ilə evlənsin və on ildən sonra Musa (ə) peyğəmbərliyə yetirdikdən sonra Misirə qayıdıb Forunu allahpərəstliyə dəvət etsin. Bunların hamısı Allahın təqdri idi. Amma bu təqdirin bir yerində Musa (ə) Şüheyb (ə) ya onun qızı məcburiyyətdə qaldılarmı? Yox. Bütün işlər ixtiyaridir, amma bütün bu tədbirlərdən üstün hikmətli bir plan vardır, o da Allahın tədbiridir. Beləliklə Allah buyurur: Ey Musa (ə) sən çox dəqiq bir plan üzrə buraya gəldin. Bu hadisələr beş verməli idi ki, sən bu vadiyi-iməndə (əmin-amanlıq yerində) ilahi risaləti alıb Firona doğru gedəsən.

Onlar bu işin başlanğıcı idi və heç mərhələdə Musaya (ə) ya başqaların məcburiyyətinə səbəb olmadı.

Hər kəs öz başına gələn gündəlik hadisələrə diqqət yetirsə, görər ki, Allah-Təala hər hadisəyə bizim bilmədiyimiz minlərlə şərait tədbiri tökmüşdür. Böyüklərdən biri rizvanüllahi əleyh deyir: Hər kəs öz həyatının sirlərini düşünsə və bəsirət gözü olsa görəcək ki, güya bütün dünya onun üçün yaranmışdır və bunların hamısı onun işlərini cərəyan etdirmək üçündür.

Hər kəs belə düşünsə, həmin nəticəyə çatacaqdır. Qüdsi hədislərin birində Allah-Təala buyurur: «Mən Adəm övladının hər biri ilə elə mehribanlıqla rəftar edirəm sanki həmin bir əndəm var, bəndələrini isə mənimlə elə rəftar etdilər; sanki məndən başqa hamı onların tanrısıdır». Bu, Allahın dilindən bir bir gilayədir. Odur ki, hər bir bəndə daima Allahın tədbiri və nəzarəti altında olduğunu, Allahın ona təyin etdiyi müqəddəratını, verdiyi vəzifə və məsuliyyətin xeyir olduğunu

bilməlidir. Bilməliyik ki, Allahın bizə təyin etdiyi müqəddərat zahirdə bizim ziyanımıza olan çətinlik və müsibət olsa belə bizim xeyirimizədir. Bir uşaq xəstələndikdə anası ona bəzi xörəkləri yeməyi yasaq etsə və hətta tez sağalması üçün acı dərman yeyib, ampol vurdurmaq məcburiyyətində qoysa onun xeyrini istəyir və bu iş ona mehribanlığıdır. Hərcənd uşaq narahat olub anasınından ürəyibərklik töhməti vursa da. Deməksel, zəlzələ və s. acı və narahatedici hadisələr boş yerə və məqsədsiz deyil, Allahın hikməti və tədbiri altındadır. Qurani-Məcid deyir:

مَا أَصَابَ مِنْ مُصِيبَةٍ فِي الْأَرْضِ وَلَا فِي أَنْفُسِكُمْ إِلَّا فِي كِتَابٍ مِنْ قَبْلِ أَنْ نَبْرَأَهَا ۚ إِنَّ ذَٰلِكَ عَلَى اللَّهِ يَسِيرٌ لِكَيْلَا تَأْسَوْا عَلَىٰ مَا فَاتَكُمْ وَلَا تَفْرَحُوا بِمَا آتَاكُمْ ۗ وَاللَّهُ لَا يُحِبُّ كُلَّ مُخْتَالٍ فَخُورٍ

***«Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, bir kitabda (lövhi-məhfuzda) yazılmamış olsun. Bu, Allah üçün çox asandır! Bu sizin əlinizdən çıxana kədərlənməməyiniz və sizə də verilənə sevinib qürrələnməməyiniz üçündür. Allah özünü bəyənən, (özü ilə) fəxr edən heç bir kəsi sevməz!»***[1]

Aydındır ki, birinci hissəsində deyilir: «Birinin başına gələn elə bir müsibət yoxdur ki, qabaqca bir kitabda yazılmamış olsun, bu, Allah üçün asan bir işdir». Sonra Allah bu işin səbəbini bəyan edir: «Bu, ona görədir ki, Allahın hikmətli təqdirinə inanasınız. Bir şey itirdinizsə varınız əlinizdən çıxdı, evin uçdu, əziziniz şəhid oldu nigaran olmayıb biləsiniz ki, bu, Allahın təqdiridir. Digər tərəfdən isə bir şey tapdıqda sevinib qürrələnməyəsiniz. Hikmətlə fikrinizdə olsun ki, hər bir hadisə qarşısında istər xoşa gələn istərsə də xoşa

[1] «Hədid» sürəsi, ayə 22-23.

gəlməz olsun məsuliyyət və vəzifə daşıyırsınız, məhz vəzifənizi yerinə yetirməyə düşünərsiniz».

İmam-əyyədəhüllahi təala – 1962 və 1963-cü illərdən indiyə kimi bu sözü dəfələrlə təkrar etmişdir ki: «Biz vəzifəmizi yerinə yetiririk və nə olacağı ilə işimiz yoxudr, düşmənlə döyüşürüksə yüz faiz qalib gələcəyimiz üçün deyil. Vəzifəmiz döyüşməkdirsə, zahirdə məğlub olsaq da döyüşəcəyik». Sədri-İslam dövrünün bəzi Ühüd kimi döyüşlərdə də müsəlmanlar məğlubiyyətə uğradılar, lakin tövhid sözünün dünyada yayılması uğrunda döyüşdükləri üçün həmişə razı idilər və Peyğəmbərin (s) rəhbərliyinə imamları zərəcə əskilmədi. Onların məntiqi belə idi:

قُلْ لَنْ يُصِيبَنَا إِلَّا مَا كَتَبَ اللَّهُ لَنَا هُوَ مَوْلَانَا ۚ وَعَلَى اللَّهِ فَلْيَتَوَكَّلِ الْمُؤْمِنُونَ

***«De: «Allahın bizim üçün (lövhi-məhfuzda) yazdığından başqa bizə heç bir şey üz verməz. O bizim ixtiyar sahibimizdir. Buna görə də möminlər yalnız Allaha təvəkkül etsinlər»***[1]

Allahın bizə təyin etdiyi müqəddərat qətən olacaq biz onun təqdirinə xoşa gəlməz olsa da razıyıq. Bir çox hadisələr bizim üçün xoşa gəlməzdir, hissiyyatımıza dəyir, lakin bilməliyik ki, Allahın hikmətli tədbiri bunlardan üstündür və ümumiyyətdə bu hadisələr islamın inkişafı və islam hərəkatının nəticəyə çatması faydalı olacaqdır. Deməl biz öz vəzifəmizi yerinə yetirməli və məhz şəri vəzifəyə əməl etmək nəticəsində əldə ediləcək həqiqi xeyirli aramalıyıq. Nə olacağın isə bizə dəxli yoxdur. Dünyanın yaradanın və tədbir tökəni vardır və heç kimi öz başına buraxmamışdır. O bilir ki, nə olmalıdır, məsləhət nədədir. Dünya hadisələri bir baxımından xeyir-şərr, xoşagələr-xoşagəlməzin tərkibidir. Bəzən sağlamlıq var bəzən

---

[1] «Tövbə» sürəsi, ayə 51.

xəstəlik, bir il əmin-amanlıq və dinclik ili olur, o biri il əzab-əziyyət və təhlükəli, lakin bunların heç biri mütləq xeyir və mütləq şər deyildir. Həqiqi xeyir və şər insanın o hadisələrlə necə yanaşılmasındadır. Hamımız sağlamlığı xeyir bilirik, lakin insan bu sağlamlıqda sui-istifadə edib günaha batsa necə? Yenə də sağlamlıq onun xeyrinədirmi? Görəsən xəstələnib günaha bata bilməsəydi xeyrinə daha yaxın olmazdımı? Var-dövlət və rifah həmişə adamın xeyrinə deyil, insanın onlardan necə istifadə etməsindən asılıdır. Əlbəttə Allahın yaratmışı olduğu üçün hər şey xeyirdir, bizim üçün xeyir və şər olması ilə bizim necə yanaşdığımızdan asılıdır. Allah-Təala dünyanı elə dolandırır ki, insanlar bu iki cəhəti hadisələrdən cürbəcür yararlansınlar və Allahla bağladıqları peymana əsasən qanlarının son adamların kimi onun dininə kömək etsinlər. Davam etsinlər ki, həm bu dünyanın zəfər və şərəfi, həm o dünyanın əbədilik səadət və rəhmətinə çatsınlar.

# İKİNCİ FƏSİL

# İSLAM DƏYƏRLƏNDİRMƏ SİSTEMİNDƏ TÖVHİD

İkinci hissə islamın dəyərləndirmə sistemində tövhidin mövqeyi ilə əlaqədardır. Bu gün dəyər, dəyərləndirmə sistemi və s. bu kimi sözlər dillərə düşmüşdür, mənimsənilmişdir. Lakin bu söz xarici dillərdən tərcümə olunduğu üçün islam mədəniyyətində olan və rəvayətlərdə deyilən ifadələrə məfhum və məzmun baxımından müvafiq deyildir. Buna görə bu sözün günümüzdə geniş yayılmış ifadəsi haqqında izahat verib, islam mədəniyyətindəki sinonimi nə olduğunu öyrənmək lazımdır.

## DƏYƏR ANLAYIŞI

Dəyər əslində iqtisadi bir məfhumdur. İnsanın bir şeyi əldə etmək istədiyi bir şey ilə onun qarşılığında verməli olduğu bir əmtəə ya göstərilir olduğu qulluq arasındakı əlaqə dəyər anlayışını yaradır. Lakin dəyərini və dəyərləndirmə sisteminin mənası iqtisadi məfhum tamamilə yad olmasa da ondan fərqlidir. Ola bilsin ki, əməldə iqtisadi məfhumdan alınmışdır. Məsələ burasındadır ki, biz bir əmtəə ya qulluğun qarşılığında bizim istəyimizə, tələbimizə uyğun olmaq şərti ilə pul ya başqa bir əmtəə verməyə hazır oluruq. Ac şəxs yemək istəyir, xörək onun üçün istənilən şeydir. Onun tələbatını təmin edən bu xörəyin qarşılığında pul verməyə hazırdır. Deməli iqtisadi dəyərin meyarı da əslində istəmək və rəğbət bəsləməkdir. Buna görə də bu ifadənin iqtisadi məfhumundan ayırıb deyə bilərik ki: Hər şey insan rəğbət və tələbinə uyğun olsa və onun tələbatının müəyyən hissəsini ya istəklərindən birini təmin etsə,

o şey dəyərlidir. Dəyər sözü bu cür - geniş mənada həm əşya haqqında həm də insanlar və onların davranışı haqqında işlənilir. Lakin sözümüz insan və onun davranışı haqqında olduğu üçün bəhsimizi bu sahədə davam etdiririk. İndi isə islam baxımından hansı insanın daha dəyərli olduğu məsələsinə keçirik.

## İNSAN ŞƏRƏFİ

Dünyanın bu günkü mədəni anlayışından və humanistlərin fikrincə hər insan, insan olduğu üçün təbii bir dəyər sahibidir. Başqa sözlə insan nə qədər cinayətkar olsa da şərəf sahibidir. İslam isə insan üçün isə iki növ şərəf qəbul edir. Birinci növ ümumi şərəfdir. Belə ki, hər bir insan, insan olduğuna görə (davranış bə mövqelərinə baxmayaraq) o şərəf malikdir. Bu təkvini bir şərəf və dəyərdir ki, Allah-Təala başqa mövcudlara deyil, məhz insana mərhəmət etmişdir. Bəlkə bu nemətlərin oxu insanın ağlıdır. Qurani-Kərim bəzi ayələrində həmin təkvini şərəfə işarə olunmuşdur:

وَلَقَدْ كَرَّمْنَا بَنِي آدَمَ وَحَمَلْنَاهُمْ فِي الْبَرِّ وَالْبَحْرِ وَرَزَقْنَاهُمْ مِنَ الطَّيِّبَاتِ وَفَضَّلْنَاهُمْ عَلَىٰ كَثِيرٍ مِمَّنْ خَلَقْنَا تَفْضِيلًا

***«Biz, Adəm övladını şərəfli və hörmətli elədik, onları suda və quruda (gəmilərə və heyvanlara) mindirib sahib etdik, özlərinə təmiz ruzi verdik və onları yaratdığımız məxluqatın çoxundan xeyli üstün etdik».***[1]

Ayədə qeyd edilən şərəf bütün insanlara şamil olur. Yəni bütün insanlar qadın, kişi, kiçik, böyük insanın təkvini xüsusiyyətlərinə malikdirlər, Allah onlara göz, qulaq və digər

---

[1] «İsra» sürəsi, ayə 70.

üzvlər vermiş, düşüncə, ağıl, zəka, qabiliyyət və hər bir insanın yararlandığı psixi və cismi xüsusiyyətləri bəxş etmişdir. Lakin diqqət yetirdikdə məlum olur ki, bütün bu şərəf və dəyərlər əslində Allahındır. O, bu nemətləri havayı olaraq insanlara əta etmişdir və insanların onları qazanmaqda rolu yoxdur.

Şərəfin digər növünü adamın özü Allah-Təalanın mərhəmət etdiyi ixtiyar bacarığı ilə qazanır. Bu növ şərəfə malik olmaqda hamı bərabər deyillər, məhz təqva sahibləri bu şərəfə malik ola bilir. Təqvasızlara gəldikdə isə belə bir şərəf sahibi olmazlar, üstəlik özləri dəyər ziddinə çevirilib bütün heyvanlardan alçaq olanlar Qurani-Kərim şərəf qazanmayan bu cür adamlar haqqında buyurulur:

أُولَٰئِكَ كَالْأَنْعَامِ بَلْ هُمْ أَضَلُّ ۚ أُولَٰئِكَ هُمُ الْغَافِلُونَ

***«Onlar heyvan kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!»***[1]

Buna görə də təkvini şərəf insanın əbədilik şərəfli olmasına kifayət etməz, çünki Allahın verdiyi şərəfi itirib, onun ziddini yeni alçaqlığı almaq imkanı vardır. Quran bu haqda deyir:

لَقَدْ خَلَقْنَا الْإِنْسَانَ فِي أَحْسَنِ تَقْوِيمٍ ثُمَّ رَدَدْنَاهُ أَسْفَلَ سَافِلِينَ

***«Biz insanı ən gözəl biçimdə yaratdıq! Sonra da onu qaytarıb rəzillərin rəzili edərik!»***[2]

Biz insanı ən gözəl təkvini şərəflə yaratmışıq. Lakin elə insanlar tapılır ki, özlərini bu ilahi şərəfdən məhrum edir, insana mümkün olan ən qaşağı səviyyəyə, ən alçaq rütbəyə endirirlər. Demək Allah verən təkvini şərəfdə bütün insanlar

---

[1] «Əraf» sürəsi, ayə 179.
[2] «Tin» sürəsi, ayə 4-5.

şəriklidirlər, lakin ixtiyari cəhətə gəldikdə isə bərabər deyillər, təqvalarından asılı olaraq müxtəlif dəyər və şərəf sahibi olurlar. Bəzən elə olur ki, bəzi adamlar şərəfini tamamilə itirir və pis xassəli bir şey kimi cəmiyyətdən atılmalı olurlar.

## ƏXLAQİ DƏYƏR

Qarşımızda duran ayrı bir mövzu insanların davranışıdır ki, bəhsimizin əsas oxunu təşkil edir. Bu sahədə hüquq və əxlaq filosofları və müxtəlif alimlər meydan oxumuş və əsrlər boyu bu haqda bəhs etdiklərinə baxmayaraq qəti nəticəyə çata bilməmişlər. Bəhsimizi yol açmaq və məqsədə çata bilmək üçün qısa bir müqəddiməyə diqqət yetirməyimiz lazımdır.

Ümumiyyətlə görülən hər bir ixtiyarı iş o işdən çıxacaq nəticəyə çatmaq üçündür. Məqsədə çatmaq məqsədi ilə olmazsa iş görülməz. Buna görə hər hansı bir ixtiyari iş müəyyən məqsəd üçün görülür və heç bir iş öz-özündə mətlubi bizzat (işi iş üçün görmə) deyildir. Beləliklə hər işin dəyəri ondan çıxacaq nəticənin dəyərindən asılıdır. Səfərə çıxmaq istəyən bir sıra hazırlıqlar (iş) görür, məsələn bilet alır, səfər tədarükü görür, avtobusa ya təyyarəyə minməyə hazırlaşır. Onun gördüyü bütün bu işlərdən məqsədi bu işlərin özü deyil, istədiyi yerə yetişməkdir.

Burada çox incə bir cəhət vardır ki, çoxları ondan qafildirlər: Bəzən insanın işindən onun bilmədiyi ya zehninə gəlmədiyi nəticələr çıxır, yaxud əslində o işi bu nəticə üçün götürmüş. Məsələn bir nəfər öz dostunun görüşünə ya məktəbə getmək ya nasə bir iş görmək üçün evdən çıxır. Yol boyu nəzərində olmayan ya qərara gəlmədiyi başqa bir nəticələrə çatsa demək olmaz ki, o, bu məqsədlə evdən çıxmışdı. Demək insanın işinin dəyəri əvvəldə nəzərə aldığı nəticədən asılıdır.

Başqa bir misal bu mövzu daha da aydınlaşdırır: Bir nəfər özünü göstərmək məqsədi ilə və camaat onu tərifləsin deyə bir xəstəxana tikdirir. Pul xərcləyib vaxt itirməkdən yeganə məqsədi isə camaat arasında şöhrət qazanmaqdır. Əgər bir xəstəxanada minlərlə insan o cümlədən əziz və Allah yolunun mücahidləri olan döyüşçülərimiz orada müalicə olunsalar və xəstəxana faydalı nəticə versə, demək olar ki, xəstəxananı tikdirən bu nəticədən yararlanacaq? Qətən yox! Çünki onun məqsədi bu nəticələr yox, şöhrət qazanmaq üçün olmuşdur. Əksinə tutaq ki, bir nəfər Allah bəndələrinin, yaralıların və müstəzəflərin istifadəsi üçün bir xəstəxana tikdirir. Təsadüfən bir bomba deyir və onu üçurdur və iş nəticəsiz qalır. Bununla onun xeyirxah işi əsla öz dəyərini itirmir. Çünki o, doğrudan da xəstəxananı dəyərli bir məqsəd üçün tikdirmişdi. Əlbəttə xəstəxana uçmasaydı, onu tikdirən öz hədəfinə çatsaydı daha çox faydalı olacaqdı.

## ƏXLAQİ DƏYƏRİN MEYARI

Yuxarıdakı müqəddimədən aydın olur ki, insanların fəaliyyətinin dəyərləndirilməsində nəticəni nəzərdə tutmaqla əlavə niyyət və məqsəd də rol oynayır. Burada belə bir sual qarşıya çıxır ki, insanlar, öz işi və davranışlarının dəyərli olması üçün hansı məqsədi nəzərdə tutmalıdırlar? Bu məsələyə getməzdən əvvəl islam baxımından dəyər meyar və həqiqətinin nə olduğunu öyrənməliyik.

Ümumiyyətlə islamın və islam ideologiyasının dəyərləndirmə sistemi baxımından dəyərin meyarı və mahiyyəti insanın ruhunda yaranan və onu allahpərəstliyə və haqq yaxınlığına aparan kəmalatdır. Bu kəmalat şərti məfhum deyil, cinsi qüdrət kimi bir həqiqətdir. Əlbəttə bu kəmalat

əxlaqi dəyər qazanıb insanı həqiqi şərəflə çatdırmaq üçün ixtiyari əməllər nəticəsində saxlanılmalıdır.

Beləliklə məlum olur ki, islam baxışında yalnız sonra nəfsani qazanılmış nəfsani kəmalat müsbət və üstün bəşəri dəyərlərin qaynağı ola bilər, cismani kəmalat isə əsas dəyərə malik deyildir, hətta allahverən ruhi qüvvələr belə təklikdə dəyər qaynağı ola bilməz. Fövqaladə zəka və qüdrətli yaddaş təklikdə ruhi kəmalatıns mənşəyi ola bilməz, çünki çox dahi zəkalılar olmuşlar ki, insanlığın ən aşağı dərəcəsinə enmiş yaxud da öz zəkalarından satqınlıqda istifadə etmişlər. Demək təklikdə zəka və yaddaşlı olmaq mütləq dəyər deyir, həqiqi dəyərləri qazanmağa alət hesab olunurlar.

Camaat dəyərlərinin bəzisini öz ağıl və fitri bacarıqları ilə az-çox tanıyırlar. Səadət, doğruluq, əhdə vəfa etmək bu dəyərlərdəndir. Bəzən isə iş elə gətirir ki, dəyərini həqiqətini hamı dərk edə bilir, böyüklər dərk edib, başqalarını öyrətməli olurlar. Elə dəyərlər də vardır ki, adi insan düşüncəsilə öyrəniləsi deyildir. Belə bir vəziyyətdə vəhy insanın köməyinə gəlir, onları dərk etdirir. İslamın dəyərləndirmə sistemində bir çox etik və hüquqi məsələlər məhz vəhyə əsaslanaraq verilir və onu hüdud və şəraitinə aid təfərrüatı şəriət yolu ilə müəyyənləşdirilir. Məsələn bunu bilirik ki, təqsirsiz bir adamı zalımın əlindən qurtarmaq üçün deyilən yalan başqa yalanların xilafına olaraq deyildir, lakin belə bir məsləhətli yalan harada və hansı şəraitdə deyilə bilər? Artıq bu kimi məsələləri şəriət müəyyənləşdirilməlidir. Demək dəyərlərin əsasını insan ruhunu mükəmməlləşdirib yüksəldən xüsusiyyət və sifətlərdir. Müxtəlif ictimaiyyətin dəyər problemlərindən eləsi vardır ki, ümumxalq az-çox qəbul etmişdir, lakin onu başa düşməkdən acizdirlər. Ədalətin yaxşı olduğunu hamı bilir, qəbul edir, lakin yaxşılığın meyarı nədir? Doğruluq və sədaqətin yaxşı olduğunu

hamı bilir, lakin hansı doğruluq və hansı sədaqətin? Fədakarlıq ruhiyyəsinin gözəl olduğu hamı bilir, lakin meyarını necə? Bu meyarları düzgün öyrənə bilsək, şübhəli məsələlərdə düzgün hökm çıxara bilərik. Misal olaraq bu gün dünyanın bütün ictimaiyyətində azadlıq böyük bir dəyər kimi qiymətləndirilir və azadlığa ziddəm demək günəşin işığına ziddəm demək kimidir, lakin görəsən bu dəyərini meyarı hamı bilirmi?

## AZADLIĞIN DƏYƏRİ

Azadlığın çeşidli mənalı və geniş anlayışa malik olan bir sözdür. Məlumdur ki, hər tərəfli olduğuna görə dəyərin meyarı ola bilməz. Bu kimi anlayışlardan səhvə düşməkdə onda irəli gəlmişdir ki, belə dəyərlərin meyarını aydınlaşdırmadan təbliğ etməzlər. Camaat isə öz nəfsini istəklərinə əsasən onu qəbul etmişlər.

Nə isə azadlığın istənilməsi mütləq deyil, şəxsin azad iradə və seçməsi ilə əldə ediləcək ruhi kəmalata çatmaq üçün vəsiləsilə. Tutaq ki, bir uşaq yanan və zəhərli maddələrlə dolu olan bir evdə sərbəst buraxılmışdır, o, bu maddələrin yanında kibrit yandıra bilir və ya zəhərli maddələri yeyə bilir. Görəsən bu azadlıq həmin uşağın kəmalına səbəb ola bilər yoxsa ölümünə? Görəsən ağıl və məntiq baxımından uşağa belə bir azadlığın verilməsi düzgündürmü? Bəlkə düz iş özünə və başqalarına ziyan gətirməmək dərəcədə azad qoymaqdı? Məlumdur ki, onun əl-ayağını bağlamaq ya bir qəfəsdə dustaq etmək onun bəşəri inkişafına mane olacaqdır. Uşağa azadlıq vermək lazımdır, lakin mütləq sərbəst buraxmaq deyil, müəyyən çərçivə və dairə hüdudunda. Yetkinləşib yaxşını pisdən seçməyə qadir olduqdan sonra isə sərbəst buraxılmalıdır. Müxtəlif cəmiyyətlərin insan fərdləri də

müxtəlif mərifət, kəmal və seçmə mərhələlərindədirlər. Ümumxalq mükəmməl bilik sahibi olmazsa, onların istədikləri hər hansı bir iş görmək məqsədi ilə zəmin yaradılılsa, o camaatın korlanmasından başqa nəticə verməyəcəkdir. Azadlıq mütləq bir dərədir deyə bütün fərdləri istədiyi işləri görməyə azad qoymaq olmaz. Bu, yanlış bir məntiqdir ki, cəmiyyətimizdə yayılmış Qərbin çirkin mədəniyyətinin sövqatıdır. Biz bu kimi dəyərlərə zidd xüsusiyyətləri həqiqi dəyərlərdən ayırmalı və cəmiyyətimizi islam dəyərləri əsasında inkişaf etdirilməliyik və elə bir kəmala çatdırmalıyıq ki, onu heç bir şey əvəz edə bilməsin.

## MƏSULİYYƏT VƏ VƏZİFƏ

Dediyimiz kimi bəzən dəyər insanın ixtiyarı davranışına deyilir ki, misal üçün filan iş dəyərlidir. Bəzən də işlərin güddüyü məqsəd nəzərdə tutularaq, bu iş filan dəyərlər üçündür, deyilir. Başqa sözlə desək, dəyərləndirmə bir sistemdə əvvəla işlərin güddüyü son məqsədi nəzərdə tutmalıyıq, bu şərtlə ki, o məqsədin özü dəyərli olsun. İkincisi, həmin ümumi dəyərlərə müvafiq davranmalıyıq. Bütün dəyərləndirmə sistemlərində mövcud olan ümumi bir davranış (istər o sistemin təməlini qoyanlar bu ümumi dəyəri nəzərə almış olsunlar olsunlar istər olmasınlar) vəzifəni yerinə yetirmək məsuliyyətinə bağlı olmaqdır. Əxlaq tərəfdarı olan Avropa Filosofu Kant buna diqqət yetirir və deyir: «Yaxşı iş vəzifənin yerinə yetirilməsi naminə görülən işdir». O, bu sözü deməkdə haqlıdır, lakin bir şey onun nəzərindən yayınmış bu sözü naqis qoymuşdur. O, buna diqqət yetirməmişdir ki, vəzifəni yerinə yetirməyin özü son hədəf deyildir. Bu dəyər Allaha yaxınlaşmağın nəticəsində insanın əldə etdiyi kəmal

adlı zati və əsil bir dəyərdən irəli gəlir. Bu gün ümumxalqın işlətdiyi məsul sözü də öz vəzifəsini bilən və onu yerinə yetirən adama deyilir. İslamda isə bu ifadəni geniş şəkildə daşıyan və məsulluq sözündən zəngin və dolğun olan «təqva» adlı gözəl bir söz vardır. Təqva, digər etik sistemlərindən olan məsulluq sözündən əlavə islam mədəniyyətindən qaynaqlanan xas xüsusiyyətlərə də şamil olur. Təqva haqqında çox sözlər deyilir və cümə namazının bütün xütbələrində ona təkid olunmalıdır, lakin yeri gəlmişkən mövzu-bəhs ilə əlaqədar neçə nöktəni ixtisarla bəyan edirik.

## TƏQVA

Təqva sözü qorumaq mənasını ifadə edən «viqayə» sözündən yaranmışdır. Viqayə sözü birini ya bir şeyi təhlükə və pozulmaqdan qorumaq ifadəsini bəyan etmək üçün işlənir. «Təqva» sözü isə «itntiqa»-dan alınmış məsdərdir və həmin mənanı daşıyır. Lakin etik bir termin olduğu üçün bu sözdə məxsus incəlik vardır; o da budur ki, insan bəzi əməllər nəticəsində təhlükəyə düşən ruhunun kəmal və saflığını habelə varlıq dəyərini qorumalı olduğunu hiss edir.

Burada təqvanın etik cəhətini digər cəhətlərindən ayıran iki əsas nöqtə vardır. Birinci bu ki, təhlükəyə düşən insanın cismi deyil, ruhudur. İkincisi bu ki, insanın ruhunu təbii hadisələr ya başqaların əməli deyil, öz əməlidir. Buna görə də insan, öz nəfsi bulaşıb dəyərdən düşməsin, geriliyə qapılmasın, əbədi əzaba giriftar olmasın deyə müəyyən işləri görməyinə dəyər. Bu kimi şəraitdə insan bulaşmaqdan ya təhlükədən qorxur, çünki qorxmasaydı özünü qorumaq qərarına gəlməzdi. Odur ki, təqvada xövf (qorxu) ifadəsi də vardır. Qurani-Kərim və rəvayətlər tavanın xövf ifadəsini daşıdığını sübut edir:

وَاتَّقُوا يَوْمًا لَا تَجْزِي نَفْسٌ عَنْ نَفْسٍ شَيْئًا

***«Qorxun o gündən ki, (Allahın izni və köməyi olmayınca) heç kəs heç kəsin karına gələ bilməsin».***[1]

Və qorxduğunuz üçün özünüzü bu təhlükədən qoruyun (həm qorumaq həm də qorxmaq mənasını ifadə edir).

Tövhid görüşünə əsaslanan islam ideologiyasında Allah-Təala bütün təsirlərin qaynağıdır. Hərçənd təsir buraxmaq üçün amillər və səbəblər vardır, lakin son təhlildə varlıq aləmini hərəkət etdirən, bütün səbəbləri və vəsilələri yaradan Allahdır. Buna görə də (əfali tövhid prinsipinə əsasən) birini hədələyən hər hansı bir təhlükə Allahın ixtiyarındadır. Buna görə bir kimsə gələcəkdə varlığının, həyat və kəmal və saflığının, şərəf və heysiyyətinin təhlükəyə düşməsindən qorxuda, tövhid dünyagörüşü baxımından o deməkdir ki, əslində onun geriliyə uçmasına Allah-Təalanın istər maddi istər mənəvi vəsilələr Allahdan qorxmaqdır. Biz süqut etməkdən qorxuruqsa, Allahdan qorxmalıyıq. Yaxud nəfsimizin bulaşmasından, əbədi əzaba giriftar olub Allahın rəhmətindən uzaqlaşmaq ehtimalından nigaranıqsa, onda qorxmalı və onun səbəblərin səbəbi bilməliyik. Belə bir görüş islam mədəniyyətində təqvanın Allah-Təalaya aid olmasına səbəb olmuşdur.

Quran ayələrində o cümlədən «Həşr» surəsinin 18-ci ayəsində deyilir:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ

***«Ey iman gətirənlər! Allahdan qorxun!»***

Və onun tərəfindən işlərinizin cəzalı olaraq sizi hədələyən təhlükədən özünüzü qoruyun.

---

[1] «Bəqərə» sürəsi, ayə 48 və 123.

Deməm məlum olur ki, təqva. Vəzifəni yerinə yetirmək məsuliyyətini daşımaqdan daha zəngin və daha dolğundur.Yəni təqva həm onun psixi ifadəsini yəni, təhlükədən qorxmağı və bu təhlükələrin meydana çıxmasının Allah əlində olduğu ifadəsini daşıyır. O, insanı təhlükəyə sala bilər, əzabı ona nazil edə bilər yaxud onu təhlükədən amanda saxlaya bilər. Axirətdə insanın süqut etməsinin vəsiləsi Cəhənnəm əzab-əziyyəti olduğu üçün bəzən təqva sözü od və əzaba aid olur:

فَإِنْ لَمْ تَفْعَلُوا وَلَنْ تَفْعَلُوا فَاتَّقُوا النَّارَ الَّتِي وَقُودُهَا النَّاسُ وَالْحِجَارَةُ ۖ أُعِدَّتْ لِلْكَافِرِينَ

***«Yanacağı (günahkar) insanlardan və kibrit daşlarından ibarət olan oddan (Cəhənnəmdən) həzər edin!»***[1]

Yaxud:

قُوا أَنْفُسَكُمْ وَأَهْلِيكُمْ نَارًا

***«Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun»***[2]

«Qu», «iftial babı»na getmiş vaqiyə kökündəndir. Görünür ki, təqvanın bəzən od, əzab Cəhənnəmlə əlaqədar işlənməsi ona görədir ki, onlar insanın süqutunun vəsiləsidirlər. Bəzən təqva zamanla əlaqədar işlənir:

وَاتَّقُوا يَوْمًا لَا تَجْزِي نَفْسٌ عَنْ نَفْسٍ شَيْئًا

***«Qorxun o gündən ki, heç kəs heç kəsin karına gələ bilməsin»***[3]

Və heç kim öz işindən başqa işlə məşğul ola bilməz. O gün qiyamət günüdür.

---

[1] «Bəqərə» sürəsi, ayə 24.
[2] «Təhrim» sürəsi, ayə 6.
[3] «Bəqərə» sürəsi, ayə 48 və 146.

Təqva məsələsində buna diqqət yetirməliyik ki, bu ifadə felin özünü vəsf edir, misal üçün namaz qılın, günah işi tərk edin, bəzən də yalnız günahı tərk etməyi ifadə edir. «Üsuli-Kafi»nin 2-ci cildinin 75-ci səhifəsində deyilir: «Təqvalılıqda olan heç bir əməl yüngül deyil». Bu cümlədə işin böyüklüyü təqva ilə ölçülür. Yəni, xeyir iş görün, günah etməyin. Demək cümlədəki təqvadan məqsəd bir ehtimala görə bu ola bilər ki; «Xeyir işlərinizin faydalı olmağını istəyirsinizsə, pis işlərinizi tərk etməlisiniz, çünki pis iş yaxşı işlərinizin faydalarını aradan aparmağa səbəb olar». Bu, o deməkdir ki, siz çırıq bir qovluğa pul yığırsınız. Sizin zəhmət çəkib pul yığmağınıza baxmayaraq qovluq yartıq olduğu üçün pulu saxlaya bilməmişsiniz. Bir rəvayətə əsasən Peyğəmbəri-Əkrəm (s) səhabələrə buyurdu: Hər kim təsbihati-ərbəə zikrini desə, Allah hər bir təsbihin qarşılığında Behiştdə onun üçün bir ağac bitirəcək. Səhabələr dedilər: Ya Rəsulullah, deməli bizim Behiştdə çox ağacımız vardır. Həzrət buyurdu: Bu şərtlə ki, od göndərməklə ağacllarınızı yandırmayasınız. Xeyir əməl onda nəticə verər ki, təqva ilə, yəni günahı tərk etməklə birgə olsun.

Beləliklə təqva bir günahı tərk etmə və bir də elə bir psixi vəziyyətin yaranmasına deyilir ki, vəzifələrin yerinə yetirilməsinin və günahların tərk edilməsinin mənşəyi olsun. Bəzən də bu əməlin səbəbi olan xövfə (qorxuya) deyilir. Nəhayət təqva bir də insanın nəfsində yaranan nəfsini mələkəni ifadə edir. Mələkeyi-Rasixə adı ilə tanınan bu sabit nəfsini sifət insan nəfsini boyayan və tezliklə silinməyən sabit bir ruhi boyadır. İllər boyu vəzifələrini yerinə yetirməyə alışan adamlara elə bir Mələkə (xüsusiyyət) yaranar ki, qarşılarına çıxan hər bir vəzifəni dərhal yerinə yetirməyə başlayır.

Daha çox izah etmək məqsədi ilə deməliyik ki, insanın ruhi və psixiki xüsusiyyətləri iki yerə bölünür: Bir dəstə keçici

və dəyişkəndir və fəlsəfə dilində «Hal» tərmini ilə izah edilir, o biri dəstə sabit, dəyişməz və nəfəs hək olunmuş sifətlərdir ki, «Mələkə» termini ilə bəyan edilir. Bu sifətlər insanın bütün dəyərləndirmə davranışlarında vardır. İffətli olmaq, fədakarlıq göstərmək, igidlik və s. bu kimi səciyyələr bəzən seçici və dəyişkəndir, bəzən isə sabitdir, necə deyərlər Mələkə olmuş, mənimsənilmişdir.

Klassik və ənənəvi etikanın mövzu-bəhsi Mələkələr yəni fərdlərin ruhunun mənimsədiyi sifətlərdir. Dəyərləndirmə anlayışlarının ümumi sahəsinə gəldikdə isə keçici və dəyişkən olan fərdi davranışlar da bəhs edilməlidir. Yəni müəyyən ideologiyanın dəyərləndirmə sistemini bəyan etmək üçün təkcə Mələklərdən danışmaq kifayət etməz yoxsa ən azı belə bir sual cavabsız qalacaq ki, hələ mələkə həddinə çatmamış, mənimsənilmiş sifətlər bu ideologiya baxımından nə kimi dəyərə malikdir? Ümumiyyətlə dəyərsizdirmi? Heç də belə deyil. Demək davranış haqqında da Mələkə olub olmamasına baxmayaraq bəhs olunmalıdır. Mükəlləfiyyətə çatmış bir gənc ilahi maraqla işini görsə, onun əməli hələ mələkə olmasa da təqvadır. Qurani-Kərim və məhsumların sözləri də daha çox davranışı nəzərə alır. Bu o demək deyildir ki, davranış artıq mələkə olmuşdur. Ona görə ki, günü bu gündən mükəlləfiyyətə çatan adam təqvalı olmalıdır. Bunlardan əlavə əslində mələklərin özləri əməl və davranışla iki cəhətdə sıx və birbaşa əlaqədardır. Biri bu ki, mələkənin özü davranışlardan doğur, yəni məşq etməkdən və ardıcıllıqdan irəli gəlir. O biri bu ki, məsələnin özü sonrakı əməllərə səbəb olur. Bununla da demək olar ki, təqva əxlaqiyyata mövzu-bəhs olan nəfsini sifətlər və mələkə deyil, əməllərə müvafiq təcrid bir addır.

Təqva haqqında digər bir məsələni də gözdən yayındırmamalıyıq: İslamın dəyərləndirmə sistemində

təqvadan kənar yararlı iş yoxdur, dedikdə belə təsəvvür yaranmamalıdır ki, məqsəd yalnız fiziki işdir, yox, məqsəd fəlsəfi işdir, yəni insanın ruhundan irəli gələn istər ürəkdə və zehndə olsun istər bədəndən kənarda istər fiziki iş olsun istər fikri fəaliyyət. Nəzərdə tutun ki, sakin əyləşmişsiniz və heç bir maddəni dəyişdirməklə məşğul deyilsiniz, siz həmin halda və düşünməklə dəyərli və savab iş ya əksinə, kəbirə günahlara səbəb olan işlər görə bilirsiniz. Məsələn yersiz olaraq, dəlilsiz və sübutsuz mömin qardaş sui-zənn etmək.

Bəzən belə, bir işi tərk etmək təqvalılığı göstərir: Bir gənc adamı nəzərdə alaq ki, bir günah işi görmək şəraitində olduğuna baxmayaraq günahdan çəkinir və o işi görmür. Burada zahirdə heç bir iş görülməmişdir, əslində isə böyük iş görülmüşdür. Bu iş günahı tərk etmək qərarıdır və fəqihlərin dilincə desək kəffi-nəfsdir (özünü günahdan saxlamaq). İnsan özünü günahdan saxlamaq üçün enerji məsrəf etməlidir. Buna görə də təqva həm fiziki işlərə, həm fikri işlərə və hətta şüurlu olaraq bir işi görməyə şamil olur. Lakin işi görmək qəsdən və şüurlu olmaması (misal üçün yatmış şəxs günah iş görə bilməz) günah iş görməyi təqva deyildir. Bu səlbi-məhzdir (iş görmək qabiliyyəti olmamaq - *tərcüməçi*) və onda heç bir fikri fəaliyyət yoxdur, çünki nə enerji işlədib, nə müəyyən qərara gəlib. Beləliklə məlum olur ki, təqvanı yalnız günahı iş görməmək dsnanlar və bununla da səhv və günahdan uzaq qalmaq üçün cəmiyyətdən yzaq qalanlar, təcriddə yaşayanlar [1] ikidlik göstərməmişlər və pəhriz deyillər. Təqvalı olmaq fikri fəaliyyət tələb edir. Başqa bir misal gətirək: Nəzərdə tutun ki, iki nəfər güləşir və tamaşaçılar onlara baxırlar. Onlar bir müddət

---

[1] Hətta nəql olunmuşdur ki, keçmişdə, harama baxa bilməsinlər, deyə gözlərinin kor edən adamlar da olur.

mübarizə apardıqdan sonra, biri o birini yıxır və necə deyərlər udur. Bəs tamaşaçılar necə? Onların arxası yerə dəyməyib, öz yerlərindəndirlər, ya əyləşmişlər yaxud da ayaq üstündə durmuşlar, görəsən onlara da udan demək olar? Cavabı aydındır. Meydana görməyən nə udar nə uduzar. Təqva da elədir. Adam şeytanla güləşməli və özünü günahdan qorunmalıdır. Təqva (istər ruhda olsun yəni fikri fəaliyyət, istər cisimdə olsun yəni fiziki fəaliyyət) səbəbkar bir iş və müsbət bir fəaliyyətdir. Əlbəttə cismi fəaliyyətdə son təhlildə fikirdən, iradə və qərardan qaynaqlanır.

## TƏQVANIN MƏRTƏBƏLƏRİ

Təqva haqqında ayrı bir incəlik də onun zülməratib (çox mərhələli) olmasıdır. Təqva mərhələləri sayşızdır, müəyyən hüdudu yoxdur. Quranın

إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللَّهِ أَتْقَاكُمْ

***«Allah yanında şərəflinizi təqvalınızdı»*** [1] ayəsindəki «Ətqa» sözü əfəli-təfzil ifadəsi daşıyır. Bu ifadə az-çox, şiddətli-zəif mərhələləri yetirmək üçün işlənir. Misal Allahın əzabından amanda qalıb cəhənnəmə getməmək üçün namaz qılan təqva və Allahla əlaqədə olmağın bir mərtəbəsinə, zəif və aşağı dərəcəsinə üstün dərəcə və əlaqə o şəxsə aiddir ki, təkcə ilahi əzabdan amanda qalmaq üçün, həm də ilahi rəhmətə çatmaq və əbədi nemətlərdən yararlanmaq üçün namaz qılır. Belə bir adam nəinki namaz vaciblərini yerinə yetirir, üstəlik daha çox müstəhəb əməlləri yerinə yetirməyə çalışır. Ən üstün dərəcə və ən yüksək mərtəbə övliyaların dərəcə və

[1] «Hucurat» sürəsi, ayə 13.

mərtəbəsidir. Onlar, vacib əməlləri yerinə yetirməyin Allahı razı salacağını bilməklə (Allah onları cəhənnəmə atsa da, yaxud cəhənnəm və behişt olmasa da) namaz qılarlar. Əimmeyi-Əthar (pak imamlar) (ə) bəzi münacatlarında Allaha deyirlər ki, «İlahi, məni cəhənnəmə aparsan və min illərlə yandırsan da məhəbbətin ürəyimdən çıxmaz. Əbədilik olaraq cəhənnəm odunda yazmağım sənin razılığına səbəb olarsa, belə bir ad mənim üçün arzusu dönəcəkdir». Əlbəttə bu vəziyyət həqiqətə uyğun deyil və belə bir ehtimala yer yoxdur, lakin övliyaların nəfsani hallarını göstərir. Övliya behişt və cəhənnəm fikrində deyil. Allahın yaxınlığına çatmaq və razılığını əldə etməkdir.[1] Əmirəl-möminin (ə)-ın məşhur bir sözü vardır: «İlahi, mən cəhənnəmin qorxusundan ya behiştin tamahından deyil, səni sevdiyim və layiq bildiyim üçün ibadət edirəm».

Nə isə təqvanın müxtəlif mərhələləri vardır və təbiidir ki, təqva nəticəsində əldə edilən ilahi yaxınlığın da müxtəlif dərəcələri olacaqdır. Təqva nümunələri bizim öz vaxtımıza da döyüşçü qardaşlarımızın vəsiyyətnamələrində görsənir. Bəzən yazırlar və bəzən də dillərində deyirlər ki: «İlahi, biz döyüş cəbhəsinə ona görə gəlməmişik ki, hüruleynə çataq ya cəhənnəm odundan qurtaraq. Yox, biz, səni sevdiyimiz, sənin yaxınlığını və razılığını arzu etdiyimiz üçün nəqabil (bir şeyə dəyməyən) canımızı fəda edirik». Yuxarıdakılardan təqvanın müxtəlif anlayışları haqqında idi. Bu söz təklikdə bütün yuxarıdakı incəliklərə şamil olur. Bu da islam mədəniyyətində təqvaya olduqca çox təkid olunmasının səbəbini göstərir.

---

[1] Kümeyl duasında Əmirəl-möminin Allaha belə yalvarır: «İlahi, tutalım ki, oduna dözüm, ayrılığına necə dözərəm? » - *tərcüməci.*

إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللَّهِ أَتْقَاكُمْ ayəsi tam aydınlaşdırır ki, əxlaqi mələkələrin və davranışın ümumi dəyər meyarı təqvadır və qalan hər hansı bir dəyər varsa təqva təzahürlərindən biridir. Ədalət və haqtələbliyi dəyər sayılması təqvanın bir təzahürü olduğu üçündür. Elm öyrənməyin və fədakarlıq kimi başqa xüsusiyyətlərin dəyər sayılması onların islam mədəniyyətində təqva nümunəsi hesab olunduğundandır.

## TƏQVA TÖVHİDLƏ ƏLAQƏSİ

Təqvanın tövhidlə əlaqəsinə gəldikdə isə əhəmiyyətli və diqqət yetirməli cəhəti budur ki, islamın dəyərləndirmə sistemində Allahla əlaqədar olmayan təqva dəyərsizdir. Təqva, bilavasitə ya dolayısı ilə Allahla əlaqədardır. Ona görə فاتّقوا النار (oddan qorxun) deyilir ki, cəhənnəmin ödu Allahın əzabıdır yaxud «Vəttəqu yövmən...» (qorxun o gündən ki...) ona görə deyilir ki, qiyamət günü Allahın qəzavət etdiyi gün, mükafatlandırdığı ya cəzalandırdığı gündür. Başqa sözlə desək, təqva qorxuya şamil olur, islam nəzərincə düzgün qorxu isə Allah qorxusudur. Buna görə bu anlayış Allahla əlaqədardır, Allahı tanımayıb, ona bütün kəmalat və qüdrətlərin sahibi bilməyincə təqvada danışmaq olmaz.

Tövhidin təqva ilə daha mühüm əlaqəsi təqva qazanmaq baxımındandır. Belə ki, biz təqvanın ümumi bir dəyəri olduğunu və təqva mələkəsi insanın mənimsədiyi ən üstün mələkələrdən olduğunu başa düşdükdə bu mələkənin necə mənimsəməsini də öyrənməliyik. Mələkələrə malik olmaq üçün məşq adlı ümumi bir yol vardır, yəni hər kim sabit bir nəfsini hala malik olmaq istəsə onunla əlaqədar işləri məşq etməlidir. Təqva mələkəsində isə (mömin şəxslərin canında sabit bir mələkəyə çevrilib, onları ən yüksək dəyərlərə

çatdırmaq üçün) əsas şərt Allaha yönəlmək, ona diqqət yetirməkdi. Çünki insan Allaha daha çox diqqət yetirməklə vəzifəsini daha yaxşı yerinə yetirir və təqva məcəlləsinin mənimsənilməsinə zəmin yaradır. Hərçənd bir çox adamlar Allaha diqqət yetirmədən bir sıra xeyir işlər görür və bir sıra pis işləri tərk edir, lakin bucur əməllər islamda deyilən təqva dəyərinin mənşəyi ola bilməz. Bunlar təkamülə zəmin yaradırsa da naqis səbəbiyyətdirlər. Bu kimi səbəblər o zaman həqiqi təsir buraxar və tam səbəbiyyətə çevrilə bilər ki, Allah əlaqədar olsun, insanın son kəmalata yaxınlaşmasına vəsilə olsun və məhz bir vəsilə kimi istifadə olunsun.

Bir nəfəri götürək ki, oğurluğu pis iş bilir və cəmiyyət içində qədirdən düşməmək və abrımı itirməmək üçün oğurluq etmir. Belə bir adam günahı tərk etmişsə də islamda deyilən təqva dəyərinə çatmamışdır, çünki ixtiyarı əməl məhz son hədəfə, qayə üçün olduqda dəyərə minir. Günahı tərk etmək Allah üçün olsa həqiqi dəyər qazanır yox, xalqdan və qanundan qorxmaq üçün olsa, onda bu əməl dəyərsiz olacaqdır. Deməli bizim bütün dəyər qazanan əməllərimiz Allahla əlaqədar olmalıdır, ona yaxınlaşıb rəhmətini dərk etmək və əzabından amanda qalmaq üçün olmalıdır.

Aşağıdakı ayəyə diqqət yetirək:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَلْتَنْظُرْ نَفْسٌ مَا قَدَّمَتْ لِغَدٍ ۖ وَاتَّقُوا اللَّهَ ۚ إِنَّ اللَّهَ خَبِيرٌ بِمَا تَعْمَلُونَ وَلَا تَكُونُوا كَالَّذِينَ نَسُوا اللَّهَ فَأَنْسَاهُمْ أَنْفُسَهُمْ ۚ أُولَٰئِكَ هُمُ الْفَاسِقُونَ

***«Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs sabah üçün nə etdiyinə (axirət üçün özünə nə hazırladığına) nəzər salsın. Allahdan qorxun. Həqiqətən, Allah etdiklərinizdən xəbərdardır! Allahın da onları özlərinə unutdurduğu***

***(xeyirlərini başa düşməyən) kimsələrə bənzəməyin! Onlar (Allahın itaətindən çıxmış) fasiqlərdir!»***[1]

Bu ayədə təqva qazanmaq üçün iki əsas incəlik zikr olunmuşdur: Biri bu ki, Allah-Təala həmişə hazir və xəbərdardır, biz isə onun biliyi dairəsindəyik. O biri bu ki, Allah-Təala heç bir əməli cəzasız və mükafatsız qoymaz və öz əməllərimizin nəticəsini özümüzə qaytarar. İnsanın bu mövzulara diqqət yetirməsi vəzifələrinə əməl edib ilahi təqvaya çatmasına səbəb olar.

Təqvanın nöqtə müqabili yeni dəyərə zidd sifətlər fisqü-fücur (mənəvi əxlaqsılıq və pozğunluq)-dur. Fasiq (fisq işini sahibi) və facir (pozğun) heç bir təhlükədən çəkinməz (nə maddi təhlükələrdən, nə də onun insanlığına zərər vuran mənəvi təhlükədən) və yaşayışda heç bir hüdudu, sərhəddi qəbul etməz. Öz başına buraxılmış və laqeydcəsinə istədiyi istiqamətdə hərəkət edir. Qurani-Kərimdə təqva sözünün bəzən fücur və bəzən fist sözlərini qarşılığında işlənməsinə baxmayaraq bir şeyi göstərir:

وَنَفْسٍ وَمَا سَوَّاهَا فَأَلْهَمَهَا فُجُورَهَا وَتَقْوَاهَا

***«And olsun nəfsə və onu yaradana (ona biçim verənə); Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə».***[2]

Və ya:

أَمْ نَجْعَلُ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ كَالْمُفْسِدِينَ فِي الْأَرْضِ أَمْ نَجْعَلُ الْمُتَّقِينَ كَالْفُجَّارِ

---

[1] «Həşr» surəsi, ayə 18-19.

[2] «Şəms» surəsi, ayə 7-8.

***«Yoxsa Biz iman gətirib yaxşı işlər görənləri yer üzündə fitnə-fəsad törədənlərlə eyni tutacağıq?! Yaxud Allahdan qorxub pis əməllərdən çəkinənləri günahkarlara tay edəcəyik?!»***[1]

Yuxarıdakı ayələrdə təqva ümumi bir dəyər və fücur ümumi bir dəyərə zidd kimi verilmişdir. Yaxud yuxarıda qeyd etdiyimiz «Həşr» surəsinin 18-ci ayəsi:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ...

deməklə öncə təqvalı olmağa təkid edir, sonra isə onun nöqtə-müqabilini yəni fisqi zikr edir:

أُولَٰئِكَ هُمُ الْفَاسِقُونَ

Fücurun hərfi mənası yırtılmaqlıq və özbaşına buraxılmaqlıqdır, fisq isə o deməkdir ki, bir şey öz qabığından çıxsın. Məsələn fisq sözünü xurmanın qabıqdan çıxmasını ifadə etmək üçün işlədilir. İnsan da varlığını bəndəçilik adlanan təbii bir sərhəddi əhatə etmişdir. Əgər insan öz qabığından çıxsa, Allahın təyin etdiyi həddi açsa tüğyan (Allaha qarşı üsyan etmək) etmiş olur, fisqə batır, təqva isə fitri və ilahi sərhəddə riayət etmək deməkdir. Hər halda müsbət dəyərə malik olan ən ümumi dəyər anlayışı təqvadır, bunun qarşılığında isə mənfi dəyərə malik olan ən ümumi dəyər ziddi anlayışı fisqü-fücurdur.

## İBADƏT

Tövhidi və ilahi cəmiyyətlərə və mədəniyyətlərə məxsus olan islamın dəyərləndirmə anlayışlarından biri də

[1] «Sad» sürəsi, ayə 28.

allahpərəstlik və ibarətdir. Dünyanın bütün ictimaiyyətləri təqvanın az-çox qəbul edir, lakin onu doğruldan şeylərin nə olduğu haqdakı görüşləri bizimki ilə fərqlidir. Tövhidi mədəniyyətlərə məxsus olan bu anlayışı daha çox izah etmək üçün bir müqəddimə veririk: Qabaqca dedik ki, vəzifəni yerinə yetirmək, məsuliyyətə sadiq qalmaq ümumi bir dəyərdir. İndi isə bu məsuliyyətlərin nə olduğunu və onların görülməsi haqqında kimin sual edəcəyini öyrənməliyik.

Adət üzrə məsuliyyətlər üç dəstəyə bölünür. Onlardan ikincisini dünya qəbul edir, biri isə dindar və allahpərəst cəmiyyətlərə aiddir. Bütün insan cəmiyyətlərinin qəbul etdiyi məsuliyyətlərin biri fərdin cəmiyyət qarşısında məsuliyyətli olmasıdır və bu məsuliyyəti yerinə yetirməyən adam (qanun tərəfindən) istintaqa çəkilir. O birisi isə fərdin öz vicdanı qarşısında məsuliyyətli olmasıdır. Bu, o deməkdir ki, hər bir fərd öz vicdanı qarşısında (cəmiyyət onu istintaqa çəkməsə də) yerinə yetirməli olduğu bir müəyyən vəzifələri vardır. Məhz ilahi cəmiyyətlərdə qəbul olunan məsuliyyət isə Allah qarşısında məsul olmaqdır. Məlumdur ki, belə bir məsuliyyəti məhz Allaha inanan adam üzərinə götürür. Lakin əgər biz məsələyə hər tərəfli və daha açıq gözlə baxsaq görəcəyik ki, (ilahi görüşə əsaslanaraq) məhz bir növ məsuliyyət vardır, o da Allah qarşısındakı məsuliyyətdir. Bu fərqlə ki, bu məsuliyyətin müxtəlif sahələri var, müstəntiq isə birdir.

(Bu müstəntiq) Allahdır ki, insanları yaratmış, onlara nemət vermiş və ictimai həyat, ağıl, vicdan bəxş etmişdir.

Demək əsas müstəntiq Allahdır və bütün məsuliyyət onun qarşısındadır, amma sahələri fərq edir. Bəzən Allah ibadət adı ilə təyin etdiyi vəzifələr haqqında soruşar: Niyə namaz qalmadın ya filan ibadəti yerinə yetirmədin? Bəzən də bəndələrinin qarşısında insana təyin etdiyi vəzifələrdən soruşar:

Niyə yoxsullara kömək etmək haqqındakı əmr ilə riayət etmədin? Lakin buna baxmayaraq yoxsullar ya cəmiyyət əslində və Allah icazə verməyincə başqalarından sual etməyə haqqı yoxdur.

Bir qism məsuliyyət vardır ki, şəxsin özü qarşısındadır. Şəxsin özü yox, Allah soruşar ki, niyə özünə zülm etdin? Bir kimsə intihar etsə ya öz nəfsinə başqa hər hansı şəkildə bir zülm etsə, Allah onu istintaqa çəkər. Görürük ki, soruşan və müstəntiq Allahdır. Bununla da demək olar ki, tövhid dünyagörüşünə əsasən məsuliyyətləri əslində Allah qarşısındadır.

## MƏSULİYYƏTİN ƏSASI

Yuxarıda dediklərimiz diqqət yetirdikdə qarşıya belə bir sual çıxır ki, məsuliyyətin əsası nədir? Niyə Allah məsuliyyət haqqında bizdən soruşacaq? Bu, əxlaq və hüquq fəlsəfələrində müzakirə olunmalı ixtisaslı bir bəhsdir. Biz isə burada yalnız məsələnin həllinin açarın işarə edirik.

Əslində bir şeyin sahibi o şey haqqında sual edə bilər. Əgər bir şəxs başqasının evinə görsə ev yiyəsi evin sahibi olduğuna görə o adamdan evə girməsinin səbəbini soruşa bilər. Cəmiyyətin ümumi əmlakı da elədir, hamının onda haqqı olduğu üçün soruşmaq haqqı vardır. İnsanın özünə gəldikdə də məsələ belədir. Yəni bizdən soruşan, bizi istintaq edən bizim və ixtiyarmızda olan əşyaların maliki olmalıdır. Niyə mənim sənə verdiyim varlıq, sağlam bədənə zülm etdin? Mənim sənə verdiyim düşüncə və ağıl qüdrətini niyə düzgün yolda işlətmədin? Bunları malik soruşa bilər, malik olmasa, soruşmaq haqqı yoxdur. Demək həqiqi mülkiyyət Allaha aiddir. O, soruşmaq və vəzifə təyin etmək hüququna malikdir. Biz isə

onun həqiqi mülkiyyətindəyik. Ev, maşın ya paltar kimi etibari, alınan və başqasının mülkiyyətinə keçən mülkiyyətin (satıldımı mülkiyyət yiyəsindən səlb olunur) xilafına olaraq bu mülkiyyət səlb olunmazdır. Etibarlı mülkiyyət həm aradan gedəndir həm başqasına köçürülə bilər, həqiqi mülkiyyət isə dəyişməz və köçürülməzdir. Allah-Təalanın görə bilmədiyi işlərdən biri də budur ki, öz bəndələrini bəndəlikdən azad edə bilməz, çünki, bu, olmayan bir işdir. Allah heç bir mövcudu öz məxluqiyyətindən çıxarıb artıq sən mənim mülkiyyətində və yaratdığım deyilsən, deyə bilməz. Dünyada nə qədər bir şey vardırsa, varlığı Allahın yaratması və mülkiyyəti ilə eynidir. Onun mülkiyyətində çıxmaq yox olmaq deməkdir.

## TƏKVİNİ VƏ TƏŞRİİ İBADƏT

Tövhidlə əsaslanan bu görüş aydınlaşdırır ki, mövcudlardan görsənən hər bir iz və nişanə Allah bəndəçiliyinin təzahürüdür, çünki varlığı Allahın mülkiyyəti ilə eynidir. Günəşdən saçan isti və işıq, külək və əsinti, yağan yağış, cücərən bitki, ağacın çiçəyi və meyvəsi bu varlıqlarını Allah mülkiyyətində olmalarının nişanəsidir və onların necə yaranmasını və necə idarə olunmasını göstərir. Buna görə mövcudların bütün hərəkətlərini təkvini ibadət saymaq olar. Yəni hər bir mövcud göstərdiyi hər bir iz istəsə də istəməsə də Allah-Təalanın bəndəçiliyi və onun mülkiyyətində olduğunu nümayiş etdirir. Qurani-Kərimdə deyilir ki, bütün mövcudat Allahın təsbih edir. Hətta necə surə o cümlədən «Cümə» və «Təğabut» surələri bu ayə ilə başlanır:

يُسَبِّحُ لِلَّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ الْمَلِكِ الْقُدُّوسِ الْعَزِيزِ الْحَكِيمِ

***«Göylərdə və yerdə nə varsa, (hamısı) mülkün (yer-göy mülkünün) hökmdarı (sahibi), müqəddəs (pak), yenilməz qüvvət, hikmət sahibi olan Allahı təqdis edib Onun şəninə tariflər deyər!»***[1]

Başqa ayələrdən məlum olur ki, hər şey, hətta yer üzünə düşən kölgələr belə Allaha səcdə edirlər:

أَوَلَمْ يَرَوْا إِلَىٰ مَا خَلَقَ اللَّهُ مِنْ شَيْءٍ يَتَفَيَّأُ ظِلَالُهُ عَنِ الْيَمِينِ وَالشَّمَائِلِ سُجَّدًا لِلَّهِ وَهُمْ دَاخِرُونَ

***«Onların kölgələri Allaha acizanə surətdə səcdə edərək sağa-sola əyilir?!»***[2]

Quran bundan da incəsini bəyan edir: Şimşəyin çaxması, bülbüllərin təranəsi və xoşavazlı quşların cəhcəh edib nəğmə oxuması Allahın təsbihidir:

وَيُسَبِّحُ الرَّعْدُ بِحَمْدِهِ وَالْمَلَائِكَةُ مِنْ خِيفَتِهِ

***«Göy gurultusu Onun şəninə tariflər deyir, mələklər də (Allahın) qorxusundan (Onu öyüb mədh edirlər)».***[3]

Nəhayət bu sahədə ümumiliyə şamil olan ayə belədir:

وَإِنْ مِنْ شَيْءٍ إِلَّا يُسَبِّحُ بِحَمْدِهِ وَلَٰكِنْ لَا تَفْقَهُونَ تَسْبِيحَهُمْ

***«...Elə bir şey yoxdur ki, Allaha tərif deyib Ona şükür etməsin, lakin siz onların (dillərini bilmədiyiniz üçün) təqdisini anlamazsınız».***[4]

Bu kimi ayələrin təfsirində deyilir ki, məqsəd təkvini ibadət, təqdis və səcdədir. Yəni bunların bütün izləri və hərəkətləri Allahın bəndəçiliyi və mülkiyyətində olduqlarının

---

[1] «Cümə» sürəsi, ayə 1.
[2] «Nəhl» sürəsi, ayə 48.
[3] «Rəd» sürəsi, ayə 13.
[4] «İsra» sürəsi, ayə 44.

əlamətidir və bir tərəfdən onun «cəmal» və «kəmal» sifətlərini nümayiş etdirir. Digər tərəfdən isə onun çatışmamazlıqdan, yox olmaqdan və səlbiyyə sifətlərdən arı arı olduğunu bildirir (Allahın kəmal sifətlərini göstərən cəhət «həmd», çatışmamazlıqdan pak olduğunu göstərən cəhət isə «təsbih» adlanır). Bu təkvini bir ibadətdir. Bizim bədən üzvlərimizin də belə ibadətləri vardır: Əlimiz bizdən asılı olmayaraq Allahı təqdis edir, ayağımız və eləcə də digər orqanizmlərimiz bizdən aslı olmayaraq Allahın təqsiri ilə məşğuldurlar. Lakin insanlara məxsus ixtiyari bir ibadət də vardır. Hərçənd hər hansı bir şəkildə olan ixtiyarı əməllərin özü Allahın bəndəçiliyinin əlaməti və təkvini ibadətdir. Lakin ixtiyar və seçmə hövzəsi və şəriət baxımından ibadət müəyyən əməllərlə deyilir. İbadətsiz insan dünyada yoxdur, olmayacaq da, çünki onun varlığı (Allahın) mülkiyyətində olmaqdır. Və onu əhatə edib hərəkətinə təsir buraxan qüvvələrin istilası altındadır. Bu arada əsl və həqiqi təsiredicini tanısa və o istiqamətdə hərəkət etsə, Allaha ibadət etmiş olur. Amma əgər onu tanımasa və istiqamətdə hərəkət etmək təşrii ibadəti yerinə yetirməli olur. Hər halda onun davranışı ibadətdir. Ya Allahı ibadəti ya başqaların: Şeytanın ibadət, nəfsin ibadəti, düzəldiyi bütlərin ibadəti və ya əslində var olmayan mövcudların ibadəti. Aşağıdakı ayədə,

أَلَمْ أَعْهَدْ إِلَيْكُمْ يَا بَنِي آدَمَ أَنْ لَا تَعْبُدُوا الشَّيْطَانَ ۖ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُبِينٌ وَأَنِ اعْبُدُونِي ۚ هَٰذَا صِرَاطٌ مُسْتَقِيمٌ

***«Ey Adəm övladı! Məgər Mən sizdən əhd almadımmı ki, Şeytana ibadət etməyin, o sizin açıq-aşkar düşməninizdir, Və***

***(sizə buyurmadımmı ki) Mənə ibadət edin, doğru yol budur?!»***[1]

Allah buyurur: İnsan iki yol ayrıcındadır, bir yol Allaha ibadət etməkdir, o birisi şeytana. Allah isə insanlara əmr edir ki, onu ibadət etməyi, kəmal və səadətə çatdıran yolu seçsinlər.

Diqqəti cəlb etdirmək istədiyimiz incəlik budur ki, yuxarıda dediyimiz ibadət zehinlərdə olan namaz, oruc, həcc kimi ibadət anlayışı ilə fərqlidir. İbadət amm və geniş mənada insanın bütün ixtiyarı əməllərini ehtiva edir ki, insanın səadət və kamala çatmasına təsir buraxsa, və Allahın razılığına səbəb olsa, ibadtüllahdır (Allah ibadətidir) yox, əgər insanın geriliyinə, süqutuna və məqsədindən uzaqlaşmasına səbəb olsa, ibadətüş-şeytandır (şeytan ibadətidir) və dəyərə zidd olan bir əməl sayılır. Demək ixtiyari əməllər hər halda ibadətdir, ya Allah ibadətidir, yoxsa şeytan ibadətidir.

Bu müqəddimədən belə bir nəticə çıxır ki, allahpərəstlik və Allaha ibadət etmək və təqva kimi islam ideologiyasında ümumi bir dəyər anlayışına malikdir. Belə ki, bir fərdin, dəstənin yaxud cəmiyyətin müəyyən bir əməli təqva və allahpərəstlik xarakteri daşımayınca dəyər sahibi ola bilməz. Hətta müəyyən bir iş başqa dəyərləndirmə sistemində bəyənilsə də yuxarıdakı iki xüsusiyyətə müvafiq olmayınca islamın dəyərləndirmə sistemində dəyər həddinə çatmamış olur. Misal üçün yoxsullara və yazıqlara yardım etmək dünyanın əxlaq sistemlərində bir dəyər kimi qəbul edilmişsə də islamın dəyərləndirmə sistemində əsl dəyərə malik deyil, yalnız yaxşı işdir, demək olar. Bu kimi xeyirxah işlər insanın imanında qaynaqlanıb Allah xatirinə görüldükdə, bir sözlə desək hüsni-feli (Allahın əmrinə müvafiq olmaq) və hüsni-faili (İlahi

---

[1] «Yasin» sürəsi, ayə 60-61.

maraqla) olduqda dəyərləndirmə həddinə çatır. Xeyir iş yalnız rəhm və məhəbbətdən qaynaqlansa elədə dəyərli olub dəyərləndirmə həddinə çatmayacaqdır, çünki məhəbbət heyvanda da az-çox vardır. Xüsusilə ona məhəbbət və həmcinsin himayə etmək hissiyyatı misal üçün qarğalarda da vardır. Demək məhz məhəbbət dəyər meyarı ola bilməz.

## BİR NƏZƏRİYYƏNİN TƏNQİDİ

Edəcəyimiz tənqid əslində günümüzdə Qərb ölkələrində yayılmış və təəssüflə etiqadımızın zəifliyinə görə cəmiyyətimizin müəyyən təbəqələri arasında nüfuz etmiş əxlaq fəlsəfəsi prinsiplərindən birinin cavabıdır. Qərb ölkələrinin əxlaq filosoflarının çoxu dəyərin meyarını başqalarına xidmət etməkdə görürlər. Onların nəzərincə şəxsi mənafeyi təmin etmək üçün və şəxsi maraqla görülən iş dəyərsiz və dəyərə ziddir. Başqa şəxslərin xeyrinə görülən iş isə dəyərlidir. Bizim bəzi ziyalılarımız da etik sahəsində əsərlər yazmış və tövhidin əxlaq fəlsəfəsi ilə əlaqəsini elə burada aramış və təsəvvür etmişlər ki, tövhid, özünü cəmiyyətdə həll etmək «mən» yerinə həmişə «biz» görmək, «biz» deməkdir.

İslam dini nöqteyi-nəzərindən neçə eybi varıdır:

Birinci irad budur ki, tövhidin ictimai bir mövzusu olan «mən» və «bizə» heç bir dəxli yoxdur. Keçmiş bəndlər bahslərdə tam aydınlaşdırdıq ki, tövhid islami bir anlayışdır, Allahın xaliqiyyətdə, təkvini və təşrii rübubiyyətdə və məbudiyyətdə yeganə olduğuna inanmaqdır. Tövhid sosioloji və psixoloji bir anlayış deyil, fəlsəfi və kəlami bir anlayışdır. Yəni Allahı yeganə bilmək, onun yeganəliyinə inanmaq və praktikada bu inama riayət etməkdir. Demək insanın cəmiyyət

içində özünü həll edib etməməsinin islami anlayışı olan tövhidə dəxli yoxdur.

İkinci irad budur ki, dəyərin meyarı almış başqaların istəmək deyildir. Bizim bir çox üstün dəyərli işlərimiz fərdi maraqla görülür. Gecə yarısı qışın soyuğunda isti yataqdan çıxıb məscidin soyuq və tozlu həsiri üstündə ibadətlə məşğul olub, Allahla raz-niyaz edən mömin bəndənin işi görəsən fərdi bir işdir yoxsa ictimai? Bu iş cəmiyyətə xidmət etmək üçündür, yoxsa, özünün axirət, mənəvi və əbədi xeyrini təmin etmək üçün? Bir halda ki, Qurani-Kərim belə bir yüksək dəyərləndirərək deyir:

فَلَا تَعْلَمُ نَفْسٌ مَا أُخْفِيَ لَهُمْ مِنْ قُرَّةِ أَعْيُنٍ

***«...Olaraq (Allah dərgahında) onlar (möminlər) üçün göz oxşayan (onları sevindirəcək) nə cür nemətlər gizlənib saxlandığını heç kəs bilməz!»***[1]

Allah bu cür adamlara heç bir insanın ağlına sığmayan dərəcədə mükafat verəcəkdir. Demək dəyər yalnız başqaların xidmətində olmağa həsr olmur və məşhur «ibadət xalqın xidmətində olmaqdan başqa bir şey deyildir» sözü elə də düzgün deyildir.

Üçüncü irad budur ki, başqasını istəmək hər şəkildə dəyərli deyilldir, ya ən azı dəyərləndirmə həddinə malik deyildir. Qabaqca dedik ki, başqasını istəmək qarğalarda, meymunlarda və bir çox heyvanlarda da vardır. Başqasını istəmək hissi təklikdə insanın əməlinin və ruhunun dəyərlənməsi üçün kifayət etməz, dəyərlənmək üçün ilahi maraq lazımdı ki, bu da məhz məhəbbətə xass deyildir. Qərizi istəyi təmin etməkdə ilahi maraqla olduqda ibadətdir. Yemək,

[1] «Səcdə» sürəsi, ayə 17.

içmək və hətta cinsi yaxınlıq belə ilahi maraqla olsa, ibadətdir. Deməmk yeganə meyar əvvəla Allahın xoşuna gəlmək, ikincisi ilahi maraqla və Allaha yaxınlaşmaq üçün olmaqdır. Misal üçün qabaqca bəyan etdiyimiz maraqlardan enməsi əzabdan qorxmaq, savab tamahı, Allahın razılığına və görüşünə ümidvar olmaqdır.

## İSLAM ETİK NƏZƏRİYYƏSİ

Əqli və fəlsəfi cəhətdən əsaslandırılmalı olan əhəmiyyətli bir məsələ də budur ki, insanın əməl və məlləkləri Allaha ibadət və bəndəlik etmək necə deyər sahibi olur? İslam baxımından, müxtəlif ayə və rəvayətlərə əsasən zərrəcə şübhə qalmır ki, insanın davranış və mələkələri ibadətlə deyərlənər. «Zariyyat» sürəsinin 56-ci ayəsində həmin sözün möhkəm sübutudur. Ayədə deyilir:

وَمَا خَلَقْتُ الْجِنَّ وَالْإِنْسَ إِلَّا لِيَعْبُدُونِ

***«Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!»***

Quran baxımından mükəlləfiyyət daşıyan iki növ mövcudun, cin və insanın yaranmasından məqsəd məhz yeganə Allaha pərəstiş etməkdir. Əlbəttə başqa ayələrdən belə bir nəticə çıxaracaq ki, ibadət etmək son məqsəd deyildir. «Yasin» sürəsinin 61-ci ayəsində ibadət bir yol kimi bəyan edilmişdir:

وَأَنِ اعْبُدُونِي ۚ هَٰذَا صِرَاطٌ مُسْتَقِيمٌ

***«Mənə ibadət edin, doğru yol budur?!»***

Qabaqkı ayədə yaradılışın məqsədi kimi götürülən ibadət bu ayədə bir yol kimi təqdim olunmuşdur. Yəni ibadət son məqsəd deyil, ondan üstün məqsəd vardır. İbadətin özü daha

yüksək bir məqsədə çatmaq üçündür, o da Allah-Təalaya yaxınlaşmaqdır ki, bütün kəmalat oradadır.

Lakin bu nəzəriyyə dünyanın digər etik və dəyərləndirmə nəzəriyyələri qarşısında irəli sürmə və müdafiə etmə qabiliyyətinə malik olsun deyə, həm də gənclərimizin islamın haqq mövqeyini digər ideologiyalar qarşısında müdafiə edə bilmələri üçün bu nəzəriyyəni əqli və fəlsəfi dəlillərlə əsaslandırmaq lazımdır. Bu nəzəriyyəni əsaslandırmaq üçün üç əsas prinsip lazımdır.

Birinci prinsip budur ki, əməlin yaxşılıq və dəyər meyarı ixtiyari bir əməlin insanın ruhi və mənəvi təkamülünə baxdığı təsirdən aslıdır. Bu prinsip dünyanın elmi və fəlsəfi dairələrində əxlaq fəlsəfəsinin mühüm məsələlərindəndir. Odur ki, məsələni aydınlaşdırmaq üçün dəyər və dəyərə zidd anlayışının və onun islamdakı qarşılığı yəni xeyir və şərrin təhlilini veririk:

Biz bir sıra şeyləri xeyir, bir sıra şeyləri isə şərr tanıyırıq. Misal üçün sağlamlığı, biliyi, qüdrət və bacarığı xeyir, onun qarşılığında isə xəstəliyi, naqisülxilqə (naqis yaranmaq) olmağı, cahil və aciz olmağı şərr sayırıq. Filosoflar bu məfhumun hikmətli təhlilini vermiş və belə bir nəticə çıxarmırlar ki, bütün xeyirlərin şərikli olduğu cəhət varlığın kamilliyi, bütün şərlərin şərikli cəhəti isə varlığın naqisliyidir. Nümunə olaraq cahil və alim şəxsi bir-biri ilə müqayisə etdikdə alimdə cahil adamın malik olmadığı bir kamillik görürük. Demək alimin varlığı cahildən daha kamildir. Yaxud xəstəliklər qarşısında özünü müdafiə edə bilməyib müvazinətini itirən xəstə sağlam bir insanla müqayisədə naqisdir. Qorxmaz və igid adam müxtəlif şəraitdə öz məqsədinə çata bilir, qorxaq adam isə çata bilmir. Filosoflar sonra daha dəqiq bir təhlil verərək belə bir nəticə çıxarmırlar

ki, «kəmal» varlığın, «naqislik» isə yoxluğun bir dərəcəsidirlər, naqislik yoxluq mövzusudur. Buna görə varlığı var olduğu üçün xeyir, yoxluğu yox olduğu üçün şərr hesab edə bilərik. Beləliklə hər mövcudun xeyri onun kəmalı, şərri isə onun naqisliyidir.

Bəzən bir mövcudun kamilliyi başqasının naqisliyinə səbəb olur. Odun yandırıcılığı onun kamilliyidir, lakin bir xırmana düşdükdə onun aradan getməsinə səbəb olur. Bıçaq və qılıncın kəsiciliyi onun kamilliyidir, lakin təqsirsiz bir adamın bədənini kəsdikdə onun ölümünə səbəb olur. Mikrobun canlılığı onun kamilliyi sayılır, lakin bədənimizə daxil olub bizi xəstələndirdikdə naqisliyimizə səbəb olur. Cəlaləddin Ruminin məşhur bir şeiri vardır ki, hamınız eşitmisiniz: İlanın zəhəri özü üçün xeyir sancdığı üçün şərdir.

Əksinə, bəzən də naqis və zatən şərr olan bir şey ayrı bir şeyin xeyri və kamilliyi səbəb ola bilər. Siz bir bağçaya girib görsəniz ki, bir bağban ağacın çol-budaqlarını vurur, bağbanlıqdan bir şey bilməsəniz onun pis iş gördüyünü, ağacın kamilliyini pozmasını zənn edəcəksiniz, lakin xibrə olsanız başa deşəcəksiniz ki, bağban ağacın artıq (inkişafına mane olan) budaqlarını vurmaqla onun daha da inkişaf etməsinə kömək edir. Bu misalda budaqları olmaması yoxluq və naqislikdir, ağac üçün isə xeyir sayılır, çünki onun daha yaxşı cücərməsinə səbəb olur.

Görəsən müxtəlif kəmalatın bir-biri ilə müqayisədə üstünlüyü nədədir?

Müqayisəni bitkilərdən başlayırıq. Görəsən qoz ağacı kamildir yoxsa, çinar ağacı? Yəqin ki, qoz ağacı deyə cavab verəcəksiniz. Çünki qoz ağacının cinardan artıq bir şeyi vardır, yetirdiyi meyvə. Demək qoz ağacının varlıq təzahürü daha çox olduğu üçün daha kamildir. İki qoz ağacının müqayisəsi də

belədir, faydası daha çox olan qoz ağacı daha kamildir. Yaxud meyvəsi çox, böyüklüyü az olan qoz ağacı meyvəsi az, böyüklüyü çox olan qoz ağacından daha kamildir. Bir heyvanı bir ağacla müqayisə etsək necə? Demək olarmı ki, üstünlüyün meyarı heyvanın həcmidir? Belə olsa, çinar ağacı bir bülbüldən min dəfə kamildir, lakin belə deyil, çünki bülbül bitkidən çox bir şeyə malikdir, yəni bülbül cismi təkamüldən əlavə şüur və iradi hərəkət sahibidir. Bülübül gülü gördükdə cəhcəh edir, onda bir növ hissiyat və dərk yarnır, çinar ağacında olmayan hissiyat və dərk. Demək bülbülün ağaca üstünlük meyarı böyüklük deyildir. Biz, iki heyvanı da bir-birilə müqayisə etsək həcmi çox olan yox, dərki və hissiyyatı çox olan heyvan daha kamildir. Atla kərgadanı müqayisə edək. Atın zəkası çox, çevikliyi yaxşı, işi faydalı və vəfası artıqdır, kərgadanın isə həcmi. İnsana gəldikdə isə onu ağac və heyvanla müqayisə etdikdə üstünlüyünü nədə görməliyik? Bir insan mükəmməldir yoxsa, bir cinar ağacı. Bir insan mükəmməldir yoxsa, bir fil? İnsanın bitkilərə və heyvanlara üstünlüyü onun cismi inkişafı, fiziki qüdrəti, şəhvəti, müdafiə qabiliyyəti ya hətta heyvanlıq idrakı deyil. Bunlar bəşəri kamillik deyildir. Bunlar meyar olsa, heyvanlar bizdən kamildirlər (özümüzü kamil bildiyimizə görə başqa bir meyar aramalı olduğumuz xüdbinlik deyilir. Bu həqiqi fəlsəfi bir məsələdir). İnsanın heyvan və başqa mövcudlarla müqayisədə üstünlüyün və kamiliyinə səbəb olan onun insanlıq və mələkuti ruhudur. Həmin xüsusiyyət səbəb olmuşdur ki, şənində deyilsin:

وَنَفَخْتُ فِيهِ مِنْ رُوحِي

***«Mən ona öz ruhumdan (Özümün yaratdığı) üfürdüm».***[1]

---

[1] «Sad» sürəsi, ayə 72.

فَتَبَارَكَ اللَّهُ أَحْسَنُ الْخَالِقِينَ

***«Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur!»***[1]

Burada qarşıya belə bir sual çıxır. Görəsən insanın dəyəri məhz onun ruhi kəmalatının üstünlüyüdür, yoxsa bitki və heyvanlıq kəmalatı da dəyərlidir. Bir alma ağacını götürək. Onun kök atıb yaşıllaşması, qol-budaq və hətta çiçəklənməsi meyvə verməyinə səbəb olmayınca kəmal sayılmaz. Bu növ kəmalat müqədimədir, və öz-özlüyündə kəmal sayılmaz, son kamala çatmaq və bu vəsilə ilə dəyər qazanmaq üçün müqəddimədir. İnsan da belədir. Əgər yalnız cisim inkişaf etsə əsli, əsas və son inkişafa səbəb olmasa heyvani bir inkişaf sayılır və insana, insan olduğu üçün dəyər qazandırmaz. Sağlam bədən insanın ruhi və mənəvi tərəqqisinə səbəb olduqda dəyərlidir, başqasıına ziyan vurmaq üçün istifadə edildikdə isə heç bir dəyəri yoxdur. Başqa sifətlər də belədir. Misal üçün islam baxımından şücaət və igidlik insanın ruhi və mənəvi təkamülü və Allaha yaxınlaşmaq uğrunda istifadə olunduqda yaxşıdır, yoxsa Əmr ibn Əbdəvid və Rüstəm şücaətli idilər və bu heyvani dəyərə malik idilər. Şücaətli bir adamın (mənəvi kəmal və hədəfinə baxmasaq) ayrı bir adama üstünlüyü kərgədanın ata və filin ceyrana üstünlüyü kimidir. Bu kəmallar (müqəddimələr) o zaman dəyərli olacaq ki, son insanlıq kəmalatına çatmaq üçün qazanılmış və onun uğrunda istifadə olunmuş olsun. Müasir dünya mədəniyyətində ədalət mütləq dəyər sahibi olmuşdur, Quran baxımından isə təqvanın müqəddiməsi olduğu üçün dəyərlidir.

---

[1] «Muminun» sürəsi, ayə 23.

اعْدِلُوا هُوَ أَقْرَبُ لِلتَّقْوَىٰ

***«Ədalətli olun. Bu, təqvaya daha yaxındır».***[1]

Təqvanın müqəddiməsi ola ədalət bal arılarında və başqa heyvanlarda da vardır. Bu, mütləq insanlıq dəyəri deyildir. İslamın dəyərləndirmə sistemində ədalət Allah yolunda, yüksək hədəfə çatmaq və insani zirvəyə doğru aparmaq üçün də dəyər qazanır.

Burada bəyan edilməsi lazım gələn incəlik fəlsəfi xeyirlə əxlaqi xeyrin əlaqəsidir. Lakin bu əlaqəni bəyan etməzdən əvvəl yaxşı-pisin meyarı haqqında bəhs edirik.

## YAXŞI-PİSİN MEYARI

Tarix boyu humanitar məsələlərin hay-küylüsündən biri «yaxşı-pisin» və «xeyir-şərin» meyarı məsələsi olmuşdur. Bu gün Qərb universitetlərinə hakim olan bir xoc fəlsəfi məktəblər o cümlədən pozitivistlər inanırlar ki, yaxşılıq və pislik şəxsi təmayüldən asılıdır və başqa bir həqiqət yoxdur. Yunanıstanın etik fəlsəfəsində deyilir ki, şəhəviyyə, qəzəbiyyə və aqilə qüvvələrin müvazinəti dəyərin meyarıdır. Lakin bu sual cavabsız qalır ki, bu müvazinətin yaxşılıq və pislik meyarı olmasını kim təyin etmişdir? Qərb əxlaqiyyatının ən üstünü Kant əxlaqiyyatıdır. Kant etik aksiomlarını qəbul edərək deyirdi: Bunların niyəsi yoxdur, doğru danışmaq mütləqa yaxşıdır, heç bir şərtdən asılı deyildir, özü meyardır. Əgər doğru danışmaq təqsirsiz bir insanın ölümünə səbəb olarsa, yenə doğru danışmaq lazımdırmı – deyə ondan soruşduqda, doğru danışmaq lazımdır, bu mütləq dəyərdir – deyə cavab verirdi. Bu əxlaq fəlsəfəsi sahəsində Qərb təfəkkürünün ən

[1] «Maidə» surəsi, ayə 8.

yüksək zirvəsidir. İslamın fikri isə belədir: Əslində əməl hədəf deyil, vəsilədir, ixtiyari iş müəyyən məqsəd görülür və öz dəyərini hədəfdən alır. İslamın əxlaq fəlsəfəsində yaxşı iş insanı son kəmalına doğru, Allah yaxınlığına sövq etdirən iş, pis iş isə insanı hədəfindən uzaqlaşdıran işdir. Bununla da islamın bu qədər qəsdə, niyyətə təkid etdiyinin səbəbi aydınlaşır, çünki əslində niyyət işə istiqamət verir.

Fəlsəfi xeyirlə əxlaqi əlaqəsinə gəldikdə isə (demək olar ki,) əxlaqi xeyir insanın ixtiyari işlərinə deyilir ki, bunun özü də bir vəsilədir, çünki işin sifətidir, işin mahiyyəti isə nəticəyə və qayəyə çatmağa görə bir vəsilədir. Nəticənin özü isə artıq əxlaqi bir anlayış deyil, fəlsəfə kateqoriyasıdır. Demək əxlaqi xeyir bir baxımdan fəlsəfi xeyirdən başqadır, amma ondan sonra ayrı deyildir və onların arasında səbəb-nəticə əlaqəsi vardır. Başqa bir sözlə əxlaqi xeyir fəlsəfi xeyrin müqəddiməsi, başlanğıcıdır. Demək «xeyir iş insan nəfsinin təkamülünə səbəb olar» sözündə **xeyir iş** əxlaqi, nəfsin kəmalı isə fəlsəfi bir anlayışdır.

**İkinci prinsip** (Əməllərin dəyər meyarın əsaslandırmaq üçün) budur ki, insanın ixtiyari əməllərlə çatmalı olduğu nəfs kamilliyi Allaha yaxınlaşmaqdır. Bu yaxınlaşmağın nə olduğu haqda müxtəlif fikirlər söylənilmişdir ki, onların haqqında aşağıda lazımi izahatlar verəcəyik.

## «QÜRB»ÜN MÜXTƏLİF MƏNALARI

Qürb (yaxınlaşmaq) sözü adı danışıqda məkan xarakteri daşıyır. Misal üçün deyilir ki: İki, nəfər bir-birinə yaxın əyləşmişlər, bu adam ona yaxındır yaxud onda uzaqdır. Görəsən insanın Allaha yaxın olması da həmən mənadadırmı? Görəsən Fironun zövcəsi Asiyə,

رَبِّ ابْنِ لِي عِنْدَكَ بَيْتًا فِي الْجَنَّةِ

***«Ey Rəbbim! Mənim üçün Öz dərgahında – Cənnətdə bir ev tik»***[1] deyəndə məqsədi mömin adamın cənnətdə Allahın məkan yaxınlığında olacağı imişmi? İslam ideologiyasının əlifbası ilə tanış olan bilər ki, məqsəd məkan yaxınlığı deyildir, çünki məkan yaxınlığı cisimləri arasında ola bilər. Allah isə cism deyil biri ona məkan baxımından nə yaxın ola bilər nə də uzaq. Demək Allaha yaxınlaşmaq məkan yaxınlığı mənasında deyilir.

Qürb sözü adi danışıqda bir də zaman yaxınlığı mənasında işlənir. Bir-birinə yaxın zamanda yaşayan iki nəfərə çağdaş deyilir əksinə, iki nəfər, iki mövcud ya iki cəmiyyətin bir-biri ilə zaman fərqi çox olduqda, biri min illər bundan əvvəl, o biri isə indiki zamanda mövcud olduqda bu ikisi bir-birindən uzaqdır, deyirlər. Məlumdur ki, insanın Allaha yaxınlaşması zamanca da ola bilməz. Ona görə ki, əvvəla Allahda zaman yoxdur. O, bütün zamanları əhatə etmişdir (neçə ki, onun üçün məkan yoxdur və bütün məkanları əhatə etmişdir). İkincisi zaman və məkan baxımından yaxın ya uzaq olmaq öz-özündə bir kamillik yaratmaz. Nə isə, Allah-Təalaya məkan və zaman yaxınlığı qeyri-mümkündür.

Qürb, adi danışıqda ayrı bir mənada da işlənir. İki şeyi, onların zaman və məkan xassələrinə baxmayaraq oxşarlıq, kamillik və nə kimi sifətlərə malik olduqları baxımından bir-biri ilə müqayisə edirlər. Görəsən bu baxımından demək ola bilərmi ki, insan Allaha yaxınlaşır? Görəsən **«qürb»** Allaha daha çox oxşamaq deməkdirmi? Bəziləri Allaha yaxınlaşmağı bu mənada təfsir etmək istəmişlər ki, bu da səhvdir, çünki

---

[1] «Təhrim» sürəsi, ayə 11.

əvvəla Allaha heç şey oxşamır («Leysə kəmislihi şeyün») və bəzən işlənən «tanrı sayağı» təbiri səhlənkarlıqla deyilən ifadədir. İkincisi belə müqayisə bir-birindən müstəqil iki mövcud haqqında ola bilər. Misal üçün iki alimi bir-biri ilə o zaman müqayisə edib, bunun elmi onun elminə çatar, deyirik ki, onların heç biri digərindən asılı olmasın, bir-birindən müstəqil varlıq olsun, bunun özünün elmi olsun, onun özünün elmi, biz isə onların elmlərini bir-biri ilə müqayisə edək. İnsanı Allahla bü cür müqayisə etmək düzgün deyildir, çünki insanın Allahdan müstəqil heç bir şeyi yoxdur, nəyi varsa onunkudur. Üçüncüsü, ilahi kəmalatın həddi yoxdur, halbuki başqa hər bir mövcud müəyyən varlıq məhdudluq dairəsindədir və məhdud bir şeyi qeyri-məhdud bir şeylə müqayisə etmək olmaz. Əgər bir metr uzunluğunda olan bir xətti götürüb sonsuz bir xətlə müqayisədə hansı nisbətdə olduğu soruşsaq, riyazziyyatla azca tanış olan deyəcək ki, məhdudla sonsuz arasında heç bir nisbət ola bilməz. Götürdüyümüz xətt bir yox iki metr olsa necə? İki metr əvəzinə yerdən günəşə qədər uzunluqda olsa da cavabı eynidir. İnsan nə qədər kamilləşsə də Allahın sonsuz kəmalatı ilə tərəf-müqabil ola bilməz ki, bir az Allaha yaxınlaşmışdır, deyək. Beləliklə bəzilərin bu fikirləri ki, insanın kəmalı artdıqca Allahla fərqi azalır, ona yaxınlaşır, onun ilahi mərifət sahəsində fikir çatışmamazlığından irəli gəlir. Bir-birilə varlıq əlaqəsində olmayan, biri səbəb o biri nəticə olmayan cisimlər və mövcudlar arasında ola bilər. Varlıq bəxş edən səbəblə nəticə arasında belə bir müqayisə tamamilə səhvdir.

وَنَحْنُ أَقْرَبُ إِلَيْهِ مِنْ حَبْلِ الْوَرِيدِ

***«Biz ona şah damarından da yaxınıq!»***[1]

---

[1] «Qaf» sürəsi, ayə 16.

Ayəsinin işarə etdiyi yaxınlıqdan məqsəd həmin **qürbdur**. Hərçənd bu söz doğrudur və Allahla bəndələri arasında bundan yaxın və möhkəm əlaqə təsəvvür etmək olmaz, lakin aydındır ki, bu yaxınlıq mömin adama həsr olunmur. Nəinki mömin və kafir Allah arasında üstəlik Allahla bütün yaranmışlar arasında belə bir əlaqə vardır.

Bəs insan Allaha necə yaxınlaşır?

Bəzən də **«qürb»** etibari mənada işlənir. Məsələn filan adam filan nazirə yaxındır, deyirik. Yəni onların dostluq münasibəti vardır xahişini rədd etməz, sözündən çıxmaz. İnsanın Allah yaxınlığını da bu cür yazmaq olar: İnsan Allaha o qədər yaxınlaşır ki, Allah onun sözünə etina edər, istəklərini nəzərə alar, duasını qəbul edər.

Qürbün bu beş növ mənası arasında son məna ilahi yaxınlığa müvafiqdir. Bu yaxınlıq Allah-Təalanın itaət və bəndəliyinin nəticəsində əldə edilir. Qüdsi hədisdə deyilir:

لا يزال العبد يتقرب الى بالنافلة حتى اكون سمعه الذى يسمع به و بصره الذى يبصر به و يده التى يبطش به

**«Bəndə, öz bəndəliyi nəticəsində elə bir dərəcəyə çatar ki, Allah-Təala onun eşidən qulağı, görər gözü və bacaran əlləri olar».**[1]

Məlumdur ki, belə bir bəndənin duası icabət olunar, Allah-Təala onun istəklərini təmin edər. Lakin məsələ burasındadır ki, görəsən insanın yüksədiyi bu məqam etibari bir məqamdır yoxsa həqiqi varlıq kəmalı? Bizim cavabımız isə belədir: Bu qürb insanlıq ruhunun həqiqi kəmalıdır. Müstəcabüddəvə (duası qəbul olan) olmaq və şəfaət edə bilmək belə etibari-şərti bir məqam deyil, ruhi kəmalatın nəticəsidir. Başqa sözlə ilahi

---

[1] «Üsuli-kafi», cild 2, səh. 352.

yaxınlığın həqiqi və əsl mənası aşağıda müəyyən qədər izah edəcəyimiz altıncı mənadır.

Bunun aydınlaşması üçün iki fəlsəfi mətləbə toxunmağımız lazımdır:

**Birinci mətləb** budur ki, hər bir yaranmışın varlığı yaradanla ələqədə olmaqlığın özüdür. Heç bir yaranmış yaradandan müstəqil varlığa malik deyildir. Bu mətləbi birinci dəfə böyük islam filosofu Sədrül-mütəəllihin Şirazi izah etmişdir. «Qürbün» dördüncü mənasının fəlsəfi bəyanı da həmin mətləbə əsaslanır. Yəni Allah-Təalanın hər bir mövcuda hər bir şeydən yaxın olduğunun səbəbi budur ki, hər bir yaranmışın varlığı onun yaradanla əlaqəsi və onun asılılığıdır. Bu əlaqə qırılsa artıq var olmayacaqdır. Bizim zehnimizə sığışmaq üçün deyə bilərik ki, hər bir mövcudun Allah-Təalaya nisbət varlığı zehni təsəvvürün insana nisbət varlığı kimidir ki, insanın diqqəti yayınsa, o təsəvvür var olmayacaqdır. Əlbəttə mövcudatların Allah-Təalaya nisbət varlığı bu misallardan daha üstündür.

**İkinci mətləb** budur ki, ruhun varlığı elmin varlığı qismdəndir. Başqa sözlə hər bir cismani varlığın var olması üçün «imtidad» lazım olduğu kimi hər bir mücərrəd varlığın var olması üçün elm lazımdır ki, əlbəttə belə bir lüzumluluq ruh varlığından kənar deyildir.

Yuxarıda deyilən iki mətləbdən belə bir nəticə çıxarırıq ki, ruhun varlığı mükəmməlləşdikdə onun elmi də mükəmməlləşəcəkdir. Ruh təkəmülünün birinci mərtəbəsi özünü öyrənməkdir. Özünü mükəmməl öyrəndikdən sonra öz varlığının həqiqətini, varlığının Allahdan aslı olduğunu dərk edəcək, yəni Allah mərifətnə çatacaqdır. Buna görədir ki, islam mədəniyyətində «özünü öyrənmək» və «Allah mərifəti» bir-birindən ayrılmazdırlar. Həm belə buyurmuşlar ki, «kim özünü

tanısa Allahı tanıyar». Həm də Qurani-Kərim deyir: «Nəsullahə fə-ənsahüm ənfüsəhüm» yəni ***«özlərini unudanlar Allahı unudarlar».***

Demək özünü öyrənməklə Allahı tanımaq arasında habelə özünü unutmaqla Allahı unutmaq arasında qırılmaz əlaqə vardır. İslam mədəniyyətində özünü unutma və özünə yad olmaq o deməkdir ki, şəxs dünyanın cah-cəlalına və ləzzətlərinə uyğur və özünün insanlıq səadət və kəmalını və Allah-Təaladan asılı olduğunu unudur.

Sözün qısası budur ki, insan ruhunun həqiqi kamilliyi Allahı tanımaqdır. Allahı tanımağın isə saysız mərhələləri vardır. İnsanın möləkuti ruhu kamilləşdikcə ilahi mərifəti artır. Özü və Allah haqqındakı mərifət isə ruhun varlığı deməkdir. Beləliklə insan kəmalının son həddi Allah-Təala haqqında kamil biliyə, şühudi və hüzuri elmə yiyələnməkdir. İlahi mərifət isə çox səy ilə əldə edilən ilahi **qürbdür**. Demək ilahi qürbün, insan ruhunun qazandığı kəmal olaraq düzgün mənası şühudi və hüzuri yaxınlıq, bir də bu həqiqəti dərk etməkdir ki, insanın varlığı əqli istidlal yolu və müxtəlif anlayışlarla qazanılan hüsuli elm deyil, Allah-Təala ilə əlaqədə olmaq və ona bağlılıqdır.

**Üçüncü mətləb** budur ki, yuxarıda deyilən kəmal və ilahi «qürb» yalnız ibadət, allahpərstlik və təqva adlanan əməllər nəticəsində əldə edilir. Bu prinsipi fəlsəfə baxımından sübuta yetirmək mövzu-bəhsə uyğun olmayan mürəkkəb istidlallar və ixtisasçılıq tələb edir. Biz isə sadə dillə izah etməyə çalışırıq:

Öyrəndik ki, Allah-Təala cism deyil və məkansızdır. Nəticədə maddi hərəkətlə ona yaxınlaşmaq olmaz. Heç bir maddi aksiya və reaksiya və cismani dəyişikliklər insanın Allah-Təalaya nisbət mövqeyini dəyişdirə bilməz. Həm də öyrəndik ki, insanın Allaha yaxınlaşması hüzuri və şühudi

yaxınlaşmaq və onunla varlıq əlaqəsində olmaqdır. Yuxarıda deyilənlərə diqqət yetirdikdə asanlıqla qəbul etmək olar ki, insanın Allah-Təalaya yaxınlaşması üçün əsas rolu onun qavrayıcı qüvvəsi yəni ruhu oynayır. Həmin ruh çox vaxtlar «qəlb» ya «ürək» və «könül» adlanır. İnsanla Allah-Təala arasında ixtiyari əlaqə diqqətin yönəlməsilə yaranır. Diqqətin yönəlməsi isə «zikri-qəlb» (ürək danışığı) adlanır. Allahı xatırlamaq və ona yönəlmək bir hərəkət və işə səbəb olduqda o işin səbəbkarı və niyyəti sayılır. Buna görə ki, insan nəfsinin təkamülü ixtiyari əməllərin nəticəsində mümkün olur və hər bir əməl insan nəfsinin müəyyən cəhətlərdə tərəqqi etməsinə ya geriləməsinə səbəb olur, belə bir nəticə çıxır ki, insanın hər tərəfli təkamülü o zaman mümkün olur ki, onun bütün davranışları ilahi maraqla olsun və Allaha yönəlmə əməllərinin əsas mühərriki və istiqamətləndiricisi olsun. Başqa sözlə, fiziki qüvvələr cismin istiqamətini müəyyənləşdirdiyi kimi mənəvi qüvvələr də insanın hərəkət və davranışının mənəvi istiqaməti müəyyənləşdirir, onlara dəyər bəxş edir, həm da qabaqca dedik ki, bu davranışların islam mədəniyyətində iki adı vardır: Külli mənada **təqva** və **ibadət**.

Sözünün icmalı belədir: Hər bir ixtiyari əməl ilahi niyyət və maraqla olduğu qədər müsbət və dəyərlidir, Allaha zidd, xüdbinlik və şirkdən irəli gəldiyi qədər isə mənfidir. Beləliklə də islamın dəyərləndirmə sistemində tövhidin rolu aydınlaşır.

## QURANIN ƏXLAQ FƏSƏFƏSİ HAQQINDA SÖZLƏRİ

Buraya kimi əxlaq və dəyərə dair islamın nəzəriyyəsini bizə mümkün olan sadə və əqli yolla izah etdik. İndi isə bu barədə Qurandan nümunələr veririk.

«Şəms» surəsində Allah-Təalanın günəşə, aya, gecəyə, gündüzə və s. and içdiyini bəyan etdikdən sonra 7-10 ayələrində deyir:

وَنَفْسٍ وَمَا سَوَّاهَا فَأَلْهَمَهَا فُجُورَهَا وَتَقْوَاهَا قَدْ أَفْلَحَ مَنْ زَكَّاهَا وَقَدْ خَابَ مَنْ دَسَّاهَا

***«And olsun nəfsə və onu yaradana (ona biçim verənə); Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə. Nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır! Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğrayacaqdır».***

Bu ayələrdə olan çoxlu mövzulardan üçüncü zikr etməklə kifayətlənirik.

**Birinci mövzu** budur ki, insan nəfsinə and içir. Bu nəfs bütün yaranmışlar içində özünə xas üstünlüyə malikdir, öz müqəddəratını özü həll etməlidir: Səadət və şəqavət yollarından birini seçməlidir. Əlbəttə Allahın, insanı yaratmaqdan məqsədi onun səadətə çatmasıdır, lakin bu yol insanın ixtiyarı və iradəsi ilə seçilməli olduğu üçün onun qarşlığı, nöqtə-müqabili də olmalıdır ki, hər kəs öz iradəsindən asılı olaraq və pis seçmə ilə ora süqut etsin.

**İkinci mövzu** budur ki, təkamül ya gerilikdən birini seçmək üçün mərifət lazımdır, çünki mərifət və bilik olmadan düzgün seçmək olmaz. Buna görə də Allah-Təala insana iki yolu öyrətmişdir: Biri təqva yolu, o biri fücur yolu. Burdan belə fikri çıxarmaq olar ki, davranışının müsbət dəyərinin meyarı «təqva», mənfi dəyərinin meyarı isə «fücur»dur.

**Üçüncü mövzu** budur ki, təqva «təzkiyeyi-nəfsin» özüdür, onun nəticəsi isə təkamüldür. Fücur nəfsi batırmaqdır, onun nəticəsi isə korlanmaq və süqut etməkdir. Demək insan təqva yolunu seçməklə nəfsini inkişaf etdirir, mükəmməlləşdirir,

fücur və əxlaqsızlığı seçməklə öz nəfsini batırır, korlayır. Beləliklə insanın ixtiyari əməllərinin nəticəsi istər inkişaf və təkamül istiqamətində olsun, istər süqut və gerilik, özünə aiddir. Buradan belə çıxarmaq olar ki, dəyərləndirilməli əməllər nəfsin kamil və naqisliyinə təyinedici təsir buraxır, müsbət və mənfi dəyərin meyarı isə insan ruhunun kamilliyi və naqisliyidir. Bu da qabaqca işarə etdiyimiz birinci prinsipin istidlali cəhətidir.

Qurani-Kərimin bir sıra başqa ayələrindən belə nəticə alınır ki, insanın əbədilik səadət ya şəqavətə çatması onun imanı və küfrünün, layiq və layiqsiz işlərinin nəticəsindən asılıdır.

«Nəcm» surəsinin 39-cü ayəsində deyilir:

وَأَنْ لَيْسَ لِلْإِنْسَانِ إِلَّا مَا سَعَىٰ

***«İnsana ancaq öz zəhməti (səyi, çalışması, əməli) qalar!»***

«Bəqərə» surəsinin 286-ci ayəsində deyilir:

لَهَا مَا كَسَبَتْ وَعَلَيْهَا مَا اكْتَسَبَتْ

***«Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir».***

«Ali-İmran» surəsinin 25-ci ayəsində deyilir:

وَوُفِّيَتْ كُلُّ نَفْسٍ مَا كَسَبَتْ

***«Hər kəsə qazandığının (tutduğu əməllərin) əvəzi ödəniləcək».***

Həmin surəsinin 30-cü ayəsində deyilir:

يَوْمَ تَجِدُ كُلُّ نَفْسٍ مَا عَمِلَتْ مِنْ خَيْرٍ مُحْضَرًا

***«O gün (qiyamət günü) hər kəs etdiyi yaxşı və pis əməlləri qarşısında hazır görəcək».***

Və onlarla başqa ayələr göstərir ki, axirət mükafatı və cəzası insanın dünyada gördüyü işlərin nəticəsidir, bəlkə də həmin əməlləridir ki, axirət dünyasında nemət ya əzab şəklində təzahür edəcəkdir.

Əlbəttə Quran ayələrinin çoxunu dili belədir ki, axirət nemətləri (savab) və əzab (cəza) dünyadakı əməllərdir. Bizim mükafat və cəza haqqındakı zehni təsəvvürümüzə əsasən ilk baxışda belə nəzərə gəlir ki, yaxşı və pis əməllərin axirət nəticəsi ilə əlaqəsi şərti və etibari bir əlaqədir, lakin yuxarıdakı ayələrə diqqət yetirdikdə məlum olur ki, bu şərti anlayışların arxasında bir sıra təkvini həqiqətlər, həqiqi və nəfsül-əmri əlaqələr gizlənmişdir ki, bizim bildiyimiz bu əlaqəni kəşf etməyə kifayət etmir, çünki bu cür əlaqəni təcrübə etməmişik.

Bu bəhsdə diqqət yetirilməli ayələrdən mənəvi nur və zülmətdən danışa ayələrdir. bu sözlərin haqq-batil, xeyir-şərr və bunlarla əlaqədar anlayışları ifadə etmə funksiyası Qurani-Kərimdə, Peyğəmbəri-Əkrəm (s) və imamların sözlərində çoxdur və islam mədəniyyətində xüsusi yer tutur.

Bir tərəfdən Qurani-Kərimdə Allah-Təalanı «göylərin və yerin nuru» kimi tanıtdırır (məlumdur ki, bu nurdan məqsəd cismani nur deyil). Digər tərəfdən də Peyğəmbəri-Əkrəm (s) «nur saçan çıraq» kimi vəsf olunmuş, o biri tərəfdən isə Quranın özü «nur» adlandırılmışdır.

قَدْ جَاءَكُمْ مِنَ اللَّهِ نُورٌ وَكِتَابٌ مُبِينٌ

***«Artıq Allah tərəfindən sizə bir nur və açıq-aydın bir Kitab (Quran) gəldi».***[1]

---

[1] «Maidə» surəsi, ayə 15.

Həm də Qurana Peyğəmbərə (s) nazil etməyin məqsədi insanları zülmətlərdən çıxarıb «nur»a daxil etmək bəyan edilmişdir:

لِتُخْرِجَ النَّاسَ مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ

***«İnsanların zülmətdən nura daxil etmək üçün».***[1]

Habelə iman əhli dünyada nur sahibi olan, küfr əhli isə zülmətlərə batan kimi tanıtdırılmışdır:

أَوَمَنْ كَانَ مَيْتًا فَأَحْيَيْنَاهُ وَجَعَلْنَا لَهُ نُورًا يَمْشِي بِهِ فِي النَّاسِ كَمَنْ مَثَلُهُ فِي الظُّلُمَاتِ لَيْسَ بِخَارِجٍ مِنْهَا

***«Heç (küfrlə) ölü olub diriltdiyimiz, sonra insanlar arasında gəzmək üçün özünə bir nur (islam dini) verdiyimiz kəs zülmət içində qalıb oradan çıxa bilməyən kimsə kimi ola bilərmi?»***[2]

Nəhayət qiyamət gününü belə vəsf edir:

يَوْمَ تَرَى الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ يَسْعَىٰ نُورُهُمْ بَيْنَ أَيْدِيهِمْ وَبِأَيْمَانِهِمْ

***«O gün mömin kişilərin və qadınların nurunun onların önlərindən və sağ tərəflərindən axıb şölə saçdığını görəcəksən».***[3]

يَوْمَ يَقُولُ الْمُنَافِقُونَ وَالْمُنَافِقَاتُ لِلَّذِينَ آمَنُوا انْظُرُونَا نَقْتَبِسْ مِنْ نُورِكُمْ قِيلَ ارْجِعُوا وَرَاءَكُمْ فَالْتَمِسُوا نُورًا

***«O gün münafiq kişi və qadınlar iman gətirənlərə: «(Bizi bir az) gözləyin ki, nurunuzdan bir qədər işıq alaq!» –***

---

[1] «İbrahim» sürəsi, ayə 1.
[2] «Ənam» sürəsi, ayə 122.
[3] «Hədid» sürəsi, ayə 12.

***deyəcəklər. (Onlara istehza ilə) belə cavab veriləcəkdir: «Geriyə dönüb işıq axtarın!»***[1]

Yəni nur almaq üçün dünyaya qayıtmalısınız ki, qeyri-mümkündür.

Bu sahədə came ayələr «Nur» surəsinin 35 ilə 45 ayələridir ki,

اللَّهُ نُورُ السَّمَاوَاتِ وَالْأَرْضِ

***«Allah göylərin və yerin nurudur»*** cümləsi ilə başlanır və

وَمَنْ لَمْ يَجْعَلِ اللَّهُ لَهُ نُورًا فَمَا لَهُ مِنْ نُورٍ

***«Allah bir kəsə nur bəxş etməsə, onun nuru olmaz».*** cümləsi ilə bitir.

Bu ayələrin mükəmməl izahını və təfsirini verməyə vaxtımız yoxdur, lakin onların bəhsimizdə əlaqəsini aydınlaşdırmaq üçün ixtisarla izahat vermək məcburiyyətindəyik.

Bu ayələrdə Allah-Təala Göylərin və Yerin (dünyanın) nuru kimi tanıtdırıldıqdan sonra ilahi nurun nə olduğu haqda bir misal çəkilir: Bir duru şişə kimidir, içində xalis zeytun yağı ilə yanan bir çıraq vardır. Bu yağ bərəkətli bir zeytun ağacından alınmış yağdır. Bu ağac nə şərqə nə qərbə yönəlir (Yəni günəş onu tamamilə tutur və yetişməmiş meyvəsi qalmır). Belə bir yağ od dəyər-dəyməz yanır.

Təfsirçilər bu məsəl haqqında çox söz demişlər ki, onları araşdırmağa vaxt yoxdur. O təfsirlərdən biri belədir: Belə bir mətləbin nümunəsi mömininin qəlbidir ki, Allah-Təala ilə əlaqə yaradıb ilahi nurdan yararlanmaq qabiliyyətinə tamamilə malikdir. Sonrakı ayə bu sözü təsdir edir:

---

[1] «Hədid» sürəsi, ayə 13.

فِي بُيُوتٍ أَذِنَ اللَّهُ أَنْ تُرْفَعَ وَيُذْكَرَ فِيهَا اسْمُهُ يُسَبِّحُ لَهُ فِيهَا بِالْغُدُوِّ وَالْآصَالِ
رِجَالٌ لَا تُلْهِيهِمْ تِجَارَةٌ وَلَا بَيْعٌ عَنْ ذِكْرِ اللَّهِ

***«Allahın tikilib ucaldılmasına və Öz adının zikr edilməsinə izin verdiyi o evlərdədir (o məscidlərdədir) ki, orada səhər-axşam Onu təqdis edib şəninə təriflər deyərlər. O kəslər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz».***[1]

Əslində Allahı yad etmək onların həyatını nurla doldurur, işıqlandırır və əməllərinə dəyər bəxş edir.

Bunların əksi kafirlərdir. Onlar Allahı unutduqlarından zülmətə batmışlar, əməlləri batil və dəyərsizdir. Son iki ayədə kafirlərin əməllərinə iki məsəl çəkilmişdir: Biri ilğımdır. Səhrada susuz adam onu su bilib cumur, lakin oraya yetişdikdə heç nə tapmır və Allahın hazır olduğunu və onun hesabına yetişəcəyini dərk edir. Yəni kafirlər səadətə çatmaq arzusu ilə çalışır və öz əməllərinə ümid bağlayırlar, lakin səylərinin nəticəsindən yaralanma vaxtı çatdıqda (axirət dünyası) faydalı bir şey görmürlər. Allah-Təala isə səadətə çatmaq uğrunda bir iş görmədiklərini aydınlaşdırar.

İkinci məsəldə kafir dərin və qaranlıq dənizdədir. Bir tərəfdən suyun dərinliyi və günəş işığının çatmaması onu zülmətə batırmış, digər tərəfdən də dalğaların bir-birinə dəyməsi onu qaranlığını artırmışdır, üstəlik dənizi qara bulud əhatə etmişdir. Belə bir qaranlıq fəzada, bu cür dərin dənizin dibində heç kim öz əlini belə görə bilmir.

Bu ayələr aşağıdakı cümlə ilə bitir:

وَمَنْ لَمْ يَجْعَلِ اللَّهُ لَهُ نُورًا فَمَا لَهُ مِنْ نُورٍ

---

[1] «Nur» surəsi, ayə 36-37.

***«Allah bir kəsə işıq verməsə, onun işığı olmaz».***[1]

Ayələrdə deyilən «misbah», «zücacə» və «mişkat» sözlərinin mahiyyəti haqda, dəniz, onun dalğaları və qara buludlar haqqında hər nə ibhamlı və bəhs yeri olsa, da ən azı bundan şübhə yoxdur ki, bu ayələr Allah adamlarını nur və səadət əhli bilir ki, Allahı yad etməklə, ona könüllə yönəlməklə öz ömürlərinə dəyər bəxş edirlər, kafirlər isə Allahı unutmaqla əməllərinin dəyərini korlayır, nəhayət zülmət və şəqavət əhli olurlar. Deməк səadət nur və həqiqi dəyərin meyarı, nur qaynağı ilə əlaqədə olmaqdır ki, Allaha iman gətirib ona yönəlməklə əldə edilir. Şərr, şəqavt, zülmət və dəyərsizliyin meyarı isə, nur qaynağı ilə əlaqəni qırmaqdır ki, buda küfr etmək, Allahı unutmaq və onun zikrindən dönməyin nəticəsidir. Elektrik lampası kimi Elektirik stansiyasına qovuşmaqla yanır, qırılmaqla sönür. Bunlar, qabaqca istidlalları cəhətini bəyan etdiyimiz iki prinsipin məzmunudur. Beləliklə mövzunun istidlalları cəhətinin Qurana necə tətbiq edilməsi aydınlaşır.

Burada bəhsimizi bitirir və Allah-Təaladan istəyirik ki, hamımızı müxtəlif – zülmlərdən qurtarsın, nur qaynağı ilə əlaqəmizi gücləndirsin. Bizi hər hansı bir yanlış yol və yanlış düşüncədən qorusun. Və nəhayət bizi layiq bəndələri və pak Əhli-beyt ilə məşhur etsin.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.

SON

---

[1] «Nur» sürəsi, ayə 40.

# MÜNDƏRACAT

**Ön söz**....................................................................................4
**Nəşirdən**...............................................................................5
**Birinci fəsil**...........................................................................7
Tövhid səmavi dinlərin oxudur..................................................7
Məsumların nəzərincə tövhid bəhsinin zəruriliyi və əhəmiyyəti...................................................................................8
Silsilətüz-zəhəb hədisi..............................................................8
Əmirəl-möminin (ə)-ın Cəməl müharibəsində tövhid haqqında dediyi sözlər...........................................................9
Tövhid bütün əqidələrin köküdür............................................11
Tövhidin digər əqidələrlə əlaqəsi.............................................12
İslamın iki inam və dəyərləndirmə sistemi və onların arasındakı əlaqə.....................................................................13
Tövhidin digər din üsulları ilə əlaqəsi.....................................15
Tövhid ədl ilə əlaqəsi...............................................................16
Tövhid nübüvvət və imamətlə əlaqəsi.....................................17
Tövhidin məadla əlaqəsi..........................................................18
Tövhid dəyərləndirmə sisteminin oxudur................................18
Tövhidi təlimlə qavramaq olarmı?..........................................20
Xaliqiyyətdə tövhid..................................................................21
Rübubiyyətdə tövhid................................................................23
Təşriİ rübubiyyət.....................................................................24
Təkfini rübubiyyət haqqında Quran ayələri.............................25
Təşrii rübubiyyətin yeri............................................................26
Übudiyyətdə tövhid..................................................................29
Übudiyyət tövhid təzahürləri....................................................30
Tövhid bir həqiqətdir................................................................35
İnamla deyil dillə tövhidi izhar etmək.....................................36
Tövhidə sadiq qalmaq..............................................................38
Tövhid sözünün mənası. Quranı tərif etmə səyi......................39

Tövhid anlayışında yanlış ibhamlar....................................42
Bida məsələsi.................................................................45
Mexaniki və dinamik hərəkətin izahı..................................46
İlahi tədbir.....................................................................52
İlahi vilayət...................................................................54
Hidayətdə tövhid.............................................................59
İnsana xas hidayət...........................................................64
Ruzi vermək....................................................................68
Allahın insanlara ruzi təyin etməsi.......................................71
Ruzinin dəyişilməsinin səbəb və amili.................................73
Qeyri-təbii yollarla ruzi vermək..........................................80
Çətinliklərə dözməyin hikməti...........................................81
İlahi qəza-qədər...............................................................89
İlahi qəza və qədərin düzgün mənası...................................90
**İkinci fəsil**....................................................................97
İslam dəyərləndirmə sistemində tövhid...............................97
Dəyər anlayışı.................................................................97
İnsan şərəfi.....................................................................98
Əxlaqi dəyər..................................................................100
Əxlaqi dəyərin meyarı......................................................101
Azadlığın dəyəri.............................................................103
Məsuliyyət və vəzifə.......................................................104
Təqva...........................................................................105
Təqvanın mərtəbələri.......................................................111
Təqva tövhidlə əlaqəsi.....................................................113
İbadət...........................................................................116
Məsuliyyətin əsası...........................................................118
Təkvini və təşrii ibadət.....................................................119
Bir nəzəriyyənin tənqidi...................................................123
İslam etik nəzəriyyəsi......................................................125
Yaxşı-pisin meyarı...........................................................130
«Qürb»ün müxtəlif mənaları..............................................131
Quranın əxlaq fəsəfəsi haqqında sözləri...........................137

Tövhid görüşünə əsaslanan islam ideologiyasında Allah-Təala bütün təsirlərin qaynağıdır. Hərçənd təsir buraxmaq üçün amillər və səbəblər vardır, lakin son təhlildə varlıq aləmini hərəkət etdirən, bütün səbəbləri və vasilələri yaradan Allahdır. Buna görə (əfali tövhid prinsipinə əsasən) birini hədələyən hər hansı bir təhlükə Allahın ixtiyarındadır. Buna görə bir kimsə gələcəkdə varlığının, həyat və kəmal və saflığının, şərəf və heysiyyətinin təhlükəyə düşməsindən qorxursa, tövhid dünyagörüşü baxımından o deməkdir ki, əslində onun geriliyə uçmasına Allah-Təalanın istər maddi istər mənəvi vəsilələr yaratmasından qorxur. Deməк bu qorxu son təhlildə Allahdan qorxmaqdır.